Xalqın qəzeti!

# Xalq qəzeti

№ 270 (30964) 24 dekabr 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## Dayağı – Xalq, amalı – Müstəqillik, hesabatı – Zəfər!

### İlham Əliyev liderliyi və güclü Azərbaycan



**Doğum günləri hər kəsin həyatında əlamətdar səciyyə və xüsusi məna daşıyır. Həyat düsturuna çevrilmiş bu cümləyə xüsusi ahəng qatan məqamlar və anlar var. O məqamlar və anlar ki, onları nəzərdən keçirəndə ömrün həm də hesabat mahiyyətini düşünürsən. Həyat hesabatı isə o zaman ictimai dəyərə çevrilir ki, yaşanan ömür xalq və dövlət naminə mücadilə və mübarizəyə həsr olunur.**

Prezident, Ali Baş Komandan İlham Əliyev mənalı ömrünü xalq və dövlət naminə zəfərlər hesabatına çevirmiş liderdir. Həm də şanlı tariximizə adını yazdırmış, Azərbaycan dövlətinə və dövlətçiliyinə əbədilik statusu qazandırmış, Ulu öndər Heydər Əliyevin mənəvi və siyasi irsindən qidalanmış böyük lider! Elə bir lider ki, nəbzi daim xalqla birgə döyünür.

Bu il 44 günlük Vətən müharibəsindəki Zəfərimizin beşinci ildönümünü qeyd etdik. 5 il əvvəl yaşanan sevinc və təntənələri yada saldıq. Əlbəttə, ən parlaq obraz kimi duyğu-düşüncələrimizə İlham Əliyevin liderliyi hakim kəsildi. Təkcə ona görə yox ki, cənab Əliyev Prezident və Ali Baş Komandan kimi müqəddəs mübarizəmizin bayraqdarı idi. Ən başlıcası o səbəbdən ki, Bayraqdarımız dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı üçün ata, qardaş, əmi və dayıya çevrilib. İlham Əliyev həmin çətin, məsuliyyətli və şərəfli dövrdə yalnız bir ölkənin lideri yox, hər kəsin doğması olub. Tam qətiyyətlə demək olar ki, onun ömür yolunda, xalqa xidmət amalında doğmalıq anlayışı ön plandadır.

Bu il Azərbaycan xalqı önəmli tarixi nailiyyəti olan milli mətbuatının 150 illik yubileyini qeyd etdi. Prezident İlham Əliyev 20 fevral 2025-ci il tarixli fərmanı ilə "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalını təsis etdi, 25 aprel 2025-ci il tarixdə isə "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzaladı. Dövlətimizin başçısının 21 iyul 2025-ci il tarixli sərəncamı ilə həmkarılarmızın böyük bir qrupu da dövlət təltiflərinə layiq görüldü.

Bütün bunlar, ümumən, Azərbaycan dövlətinin mediaya, jurnalistikaya xüsusi diqqət və qayğı ilə yanaşması onu deməyə əsas verir ki, cənab İlham Əliyevin liderliyinin seçilən xüsusiyyətlərdən biri də həssaslıqdır. Onun bu münasibətini hiss edən isə təkcə jurnalistlər deyil, ən müxtəlif peşə sahibləridir. Ötən bir ildə, ötən dövrdə olduğu kimi, Prezidentin lider həssaslığının çoxsaylı, rəngarəng nümunələrinə şahidlik etdik. İl boyu uğurlar yolunda sevinc və öyünclə birgə addımladıq.

İlham Əliyev şəxsiyyətinin mükəmməlliyini iradə edən önəmli amillərdən biri də ali bir qətiyyətdir. Əgər 5 il əvvəlin 44 günlük müharibə dönəmində dövlətimizin başçısı Ali Baş Komandan kimi özünün bacarıqlı çağdaş sərkərdə məharətini göstərmişdisə, bu onun müdrikliyindən və möhkəm iradəsindən qaynaqlanmışdı. İlham Əliyevin məhz bu liderlik keyfiyyəti ilə Azərbaycanın savaş meydanında qazandığı qələbəni diplomatik müstəvidə də gerçəkləşdirməyi, Zəfərimizin dönməzliyini qorumağı bacarıb.

Tam əminliklə demək olar ki, İlham Əliyev müdrikliyinin, qətiyyətinin və iradəsinin xalqımıza bəxş etdiyi Zəfər təntənəsi tariximizin ən böyük hərbi-siyasi qələbəsinin nümayişi oldu. 2025-ci il isə qələbənin 5 illik öyünclü təəssüratı ilə 2020-ci ildə tarixə qızıl hərflərlə yazılmış bu ümumxalq əminliyinə yeni çalarlar gətirdi.

Bəli, Prezident İlham Əliyev yaşadığımız coğrafiyaya sülh gətirən liderdir. Böyük əminliklə yola salmaqda olduğumuz ilin bu baxımdan şanlı tariximizə çevrildiyini vurğulaya bilərik. Elə bir tarixə ki, təkcə Azərbaycan deyil, bütövlükdə yaşadığımız coğrafiya üçün önəmlidir. Hesab edirəm ki, Prezident İlham Əliyevin sülhyaratma missiyasına əlahəzrət zaman daha əhatəli qiymətini verəcək. Nəsillərə miras qalacaq qiymətini. Nəzərə alaq ki, bu, həm də qətiyyətli siyasətə, sarsılmaz iradəyə və dövlət-xalq birliyinə veriləcək, bu dəyərləri qədirbilənlik nümunəsinə çevirəcək qiymətdir.

*(ardı 5-ci səhifədə)*

# Qarabağa "Böyük qayıdış" dünyada ən uğurla icra edilən proqramdır

## *Prezident İlham Əliyevin Xankəndi, Xocalı və Ağdama səfəri*

### Xankəndinin Kərkicahan qəsəbəsində görülmüş işlərlə tanışlıq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində olub.**

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına qəsəbədə görülmüş işlər barədə məlumat verdi.

Təmir işlərinə bu ilin may ayında başlanılmış qəsəbədə hazırda 33 yaşayış binası və 1037 fərdi ev mövcuddur. Onlardan 247-si yararsız, 790-ı isə qismən yararlıdır. Bu ilin sonunadək 40, 2026-cı ildə isə 280 evin təmiri nəzərdə tutulur. Artıq 30 evdə təmir işləri başa çatdırılıb. İlkin mərhələdə 30 ailə olmaqla, ümumilikdə 115 sakin müvəqqəti məskunlaşdıqları şəhər və rayonlardan qəsəbəyə - öz dədə-baba yurdlarına qayıdıb.

Qəsəbədə bir sıra sosial infrastruktur layihələri də icra olunub. Fərdi evlərin yerləşdiyi ərazidə su, elektrik və qaz xətləri yoxlanılıb, 2 kilometr yeraltı optik kabel, 510 metr elektrik xətti çəkilib, işıq dirəkləri quraşdırılıb, küçə işıqlandırılması təmin olunub, daxili yollar asfaltlanıb. Eyni zamanda, 60 çarpayılıq 1 nömrəli körpələr evi-uşaq bağçası və 624 şagird yerlik tam orta məktəbdə əsaslı təmir işləri aparılıb.

Qeyd edək ki, Prezident İlham Əliyev 2023-cü il oktyabrın 15-də bu qəsəbədə olub.

*(ardı 2-ci səhifədə)*

## İran Prezidenti Məsud Pezeşkian Prezident İlham Əliyevi təbrik edib

**Dekabrın 23-də İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

İran Prezidenti dövlətimizin başçısını qarşıdan gələn ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində yeni uğurlar və cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Məsud Pezeşkian ölkəmizə səfərlərini və dövlətimizin başçısı ilə apardığı müzakirələri məmnunluqla xatırlayıb.

Telefon söhbət zamanı 2026-cı ildə təmaslar və Azərbaycan-İran dostluq əlaqələrinin gələcək inkişafına dair fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

## Birinci vitse-prezident Mehriban Əliyeva Prezident İlham Əliyevin doğum günü ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Prezident İlham Əliyevin doğum günü münasibətilə sosial media hesablarında paylaşım edib.

Paylaşımda deyilir: **"Ləyaqət, saf niyyət və xeyirxah ürək — Uca Tanrının sözsüz eşitdiyi ali dualardır.**

**Uca Allah Sizi və xalqımızı qorusun!".**

*Doğum gününüz mübarək,*

**CƏNAB PREZİDENT!**



## Azərbaycan diasporu xalqımızın dünyada yüksələn səsidir



Səhifə ⇨ 17

## TRIPP, Rusiya–Ermənistan münasibətləri və Azərbaycan amili




Səhifə ⇨ 15

# Xankəndinin Kərkicahan qəsəbəsində görülmüş işlərlə tanışlıq







**(əvvəli 1-ci səhifədə)**

Dəniz səviyyəsindən 1130 metr hündürlükdə yerləşən və ümumi sahəsi 234 hektar olan Kərkicahan Xankəndi şəhər ərazi vahidində qəsəbədir. 1960-cı illərdə keçmiş vilayətin millətçi erməni rəhbər orqanları qəsəbənin adını yaşayış məntəqələrinin rəsmi siyahısından çıxarıb Xankəndi şəhərinə birləşdirmişdilər. 1991-ci ilin sonunda işğal olunan Kərkicahan 1992-ci ildə ermənilər tərəfindən yandırılmışdı. İşğaldan əvvəl qəsəbədə 355 ailə olmaqla 1796 nəfər azərbaycanlı yaşayırdı. Hazırda qeydiyyatda 674 ailə olmaqla, ümumilikdə 2531 sakin var. Qəsəbə 2023-cü ildə Azərbaycan Ordusunun həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

Sonra dövlətimizin başçısı Xankəndi şəhəri Kərkicahan qəsəbə sakini Yadigar Əsədovanın evində oldu və söhbət etdi.

**Gənc qadın:** Xoş gəlmisiniz, cənab Prezident. Həmişə Siz gələsiniz bizim Vətənə, elimizə, obamıza – Kərkicahan qəsəbəsinə.

**Prezident İlham Əliyev:** Siz də xoş gəlmisiniz.

**Yaşlı qadın:** Xoş gəlmisən, xoş gəlmisən.

**Prezident İlham Əliyev:** Sağ ol, necəsiniz?

**Yaşlı qadın:** Sağlığın, başına dönüm.

**Prezident İlham Əliyev:** Siz də xoş gəlmisiniz doğma Vətənə.

**Yaşlı qadın:** Səni Allah saxlasın.

**Prezident İlham Əliyev:** Sağ ol.

**Yaşlı qadın:** Sən ki Azərbaycan millətini öz Vətəninə gətirdin, çox sağ ol.

**Prezident İlham Əliyev:** Sağ ol. İndi necə yaşayırsınız burada, rahat yaşayırsınız?

**Yaşlı qadın:** Rahat, qəşəng. Allah Sizə dəyməsin. Dünya durduqca durasınız.

**Prezident İlham Əliyev:** Sağ ol. Ev də gözəldir.

**Yaşlı qadın:** Gözəldir, qəşəngdir.

**Prezident İlham Əliyev:** İşğal dövründə harada yaşamısınız?

**Yaşlı qadın:** Gəncədə. Köçüb Gəncəyə getmişdik. Balaca yataqxanalar var idi.

**Prezident İlham Əliyev:** Yataqxanada?

**Yaşlı qadın:** Bəli. Biri orada, biri burada, bir-birinə qarışıq. Çox sağ olun, indi gözəl evlər vermisiniz.

**Prezident İlham Əliyev:** 34 ildən sonra.

**Yaşlı qadın:** Hə, 34 ildən sonra Kərkicahan qəsəbəsinə gəlmişik. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun. Təbrik edirəm sizi. Xoşbəxt yaşayın. Allah cansağlığı versin, uzun ömür versin. Hər şey təmirli və yüksək səviyyədədir.

**Yaşlı qadın:** Sağ ol, başına dönüm.

**Gənc qadın:** Çox gözəl nəticədir, cənab Prezident. Elimizə, obamıza yığışdıq, şükür. Allah Sizi Prezidentlikdən əskik eləməsin. Həmişə var olun. Kərkicahan qəsəbəsinə də xoş gəlmisiniz. Evimizin ilk qonağı Siz oldunuz, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Sağ olun, bir daha təbrik edirəm sizi. Rahat yaşayın doğma torpaqda.

**Yaşlı qadın:** Allah Sizin canınızı sağ eləsin, Sizə dəyməsin.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Gənc qadın:** Fürsətdən istifadə edərək Sizin qarşıdan gələn Yeni ilinizi təbrik edirəm.

**Prezident İlham Əliyev:** Sizi də təbrik edirəm. Bala neçə aylıqdır?

**Gənc qadın:** 13 günlükdür.

**Prezident İlham Əliyev:** 13 günlük? Maşallah.

**Gənc qadın:** Kərkicahana ilk köçənin balası.

**Prezident İlham Əliyev:** Gəncədə doğulub?

**Gənc qadın:** Bəli.

**Prezident İlham Əliyev:** Təbrik edirəm bir daha.

**Gənc qadın:** Çox sağ olun.

# 1 nömrəli tam orta məktəb istifadəyə verilib






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərinin Kərkicahan qəsəbə 1 nömrəli tam orta məktəbin binasının əsaslı təmirdən sonra açılışında iştirak edib.**

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verdi.

Bildirildi ki, 624 şagird yerlik məktəbin binasında əsaslı təmir işləri yüksək səviyyədə və qısa müddətdə həyata keçirilib. Burada ümumilikdə 17 sinif otağı, laboratoriyalar, STEAM, informatika, hərbi hazırlıq, biologiya, kimya, fizika, texnologiya, dərnək, məktəbəqədər hazırlıq otaqları, kitabxana, oxu, idman və akt zalları, yeməkxana müəllim və şagirdlərin ixtiyarına veriləcək. Binadakı otaqların hamısı zəruri tədris vəsaiti ilə təchiz edilib. Bundan başqa, məktəbin həyətyanı sahəsində açıq idman meydançası da yaradılıb. Bir sözlə, burada təlim-tədrisin yüksək səviyyədə həyata keçirilməsi üçün hərtərəfli imkanlar mövcuddur.

Qeyd edək ki, müasir təhsil infrastrukturunun yaradılması işğaldan azad edilmiş ərazilərimizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı yenidənqurma işlərinin vacib istiqamətlərindən biridir. Azad edilmiş torpaqlarımızda təhsil ocaqlarının müasir layihələr əsasında inşası, onların zəruri tədris avadanlığı ilə təchizi, fənn kabinetlərinin, laboratoriyaların, idman infrastrukturunun yaradılması bu müəssisələrdə çalışan müəllimlərin və təhsil alan şagirdlərin hərtərəfli şəraitlə təmin olunmalarına hədəflənib. Bütün bunlar, eyni zamanda, müəllimlərin və şagirdlərin doğma yurdlarına qayıdışını sürətləndirir, həmçinin işğaldan azad olunmuş torpaqlarımızda sosial həyatın canlanmasına töhfə verir.





# Prezident İlham Əliyev Kərkicahana köçən sakinlərlə görüşüb







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində buraya köçən sakinlərlə görüşüb.

Prezident İlham Əliyev sakinləri salamladı.

**Sakinlər:** Salam, xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ olun, siz də xoş gəlmisiniz.

**Sakinlər:** Çox şükür. Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Allah Sizi qorusun, mənim komandanım, Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev:** Doğma torpağa 34 ildən sonra qayıdışınız münasibətilə sizi təbrik edirəm. Şükür Allaha, torpaqlarımız işğalçılardan azad olundu və bütün keçmiş köçkünlər yavaş-yavaş öz dədə-baba torpaqlarına qayıdırlar, o cümlədən bu gün Kərkicahan qəsəbəsinə də keçmiş köçkünlər qayıdıb və bu qayıdış prosesi davam edir. Yəni “Böyük Qayıdış” Proqramı bu gün dünya miqyasında ən uğurla icra edilən qayıdış proqramıdır. Siz isə uzun illər çətin şəraitdə, həm fiziki, həm mənəvi əzablar içində yaşamısınız. Artıq buna son qoyuldu və 34 ildən sonra doğma Kərkicahana qayıdırsınız. Böyük xoşbəxtlikdir, həm sizin üçün, həm də xalqımız üçün.

**Sakinlər:** Allah Sizə ömür versin.

**Prezident İlham Əliyev:** 1991-ci il dekabrın sonunda Ermənistan dövləti sizi öz dədə-baba torpağınızdan didərgin salmışdı. Dekabrın sonu idi və indi 2025-ci il dekabrın sonunda ədalət burada da, bu torpaqda da tam bərqərar olur. Əlbəttə, təsəvvür etmək çətin deyil ki, bu illər ərzində necə əzab-əziyyət içində yaşamısınız. Həm ev şəraiti, həm mənəvi əzab, ədalətsizlik hissi. Amma əminəm, siz də bütün xalqımız kimi inanırdınız ki, gün gələcək və biz buraya qayıdacağıq. İki il bundan əvvəl antiterror əməliyyatı nəticəsində Kərkicahan qəsəbəsi Xankəndi şəhəri ilə birlikdə işğalçılardan azad edilmişdir və artıq burada həyat yenidən qurulur.

Mən oktyabr ayında bu qəsəbəyə gəlmişdim. O vaxt göstəriş verdim ki, evlər, məktəb təmir olunsun, digər lazımi infrastruktur layihələri icra edilsin. Bu gün qəsəbə ilə tanış olarkən görürəm ki, hər şey yüksək səviyyədə təşkil olunub, qəsəbə göz oxşayır. Əlbəttə ki, bu, qəsəbənin, bərpasının birinci mərhələsidir. Çünki işğal dövründə düşmən buranı da yararsız vəziyyətə salmışdı. Evlərin bir çoxunda heç yaşamaq mümkün deyil. Ona görə təqribən iki ilə yaxın təmir-bərpa işləri aparılıbdır. İndi isə artıq qəsəbənin bəzi küçələri tam abadlaşdırılıb, evlər tam hazır vəziyyətə gətirilib və burada yaşamaq üçün bütün şərait var.

Sizi bu hadisə münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Əminəm ki, burada rahat və firavan yaşayacaqsınız. Əsas odur ki, öz doğma torpağınızdasınız.

**Sakin:** Allah canınızı sağ eləsin. Sabah ad gününüzdür. Ürəkdən təbrik edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Kişi sakin:** Cənab Ali Baş Komandan, çox minnətdarıq ki, Siz bizi bu gün doğma Kərkicahanımıza qaytardınız, Qarabağımıza qaytardınız. Bu günlərə şükürlər olsun. Ağlaya-ağlaya dekabrda tərk etmişdik, indi gülə-gülə qayıdırıq. Allah Sizi qorusun, ailənizi qorusun.

**(ardı 3-cü səhifədə)**

# Prezident İlham Əliyev Kərkicahana köçən sakinlərlə görüşüb




**(əvvəli 2-ci səhifədə)**

**Prezident İlham Əliyev:** Sağ olun. Əfsuslar olsun ki, o vaxt Azərbaycan rəhbərliyi sizi qoruya bilmədi, iradə göstərə bilmədi, qorxaqlıq göstərdi və faktiki olaraq işğalla barışmalı oldu. Ondan sonra gələn hakimiyyət vəziyyəti daha da bərbad vəziyyətə salmışdı. Faktiki olaraq Şuşanın, Laçının işğalı Kərkicahanın işğalından təqribən beş ay sonra baş verdi. Ona qədər Xocalı soyqırımı törədildi. O vaxt həm sovet dövründən qalan rəhbərlik, həm də ki, guya xalq hərəkatına aid olan rəhbərlik faktiki olaraq burada yaşayan insanları taleyin ümidinə buraxmışdı. Sizi müdafiə edə bilərdilər, etmədilər. Bəziləri qorxaqlıqdan, bəziləri isə hakimiyyətə gəlmək üçün Azərbaycanda xaos, anarxiya yaratmaq məqsədilə bir çox hallarda xəyanət edərək torpaqlarımızı düşmənə təhvil vermişdi. Ondan sonra hakimiyyətə gələn AXC-Müsavat cütlüyü yarıtmaz və xəyanətkar fəaliyyəti ilə ölkəmizi dərin böhrana salmışdı. Vətəndaş müharibəsi, Kəlbəcərin işğalı və faktiki olaraq Laçın-Xankəndi yolunun itirilməsi - bütün bunlar Ermənistan üçün böyük üstünlük təmin etdi və nəticədə işğala, böyük işğala yol açdı. Biz isə gecə-gündüz öz əzəli torpaqlarımızı düşmənin tapdağından qurtarmaq üçün çalışmışıq, vuruşmuşuq, müharibədə Qələbə qazanmışıq. Düzdür, İkinci Qarabağ müharibəsi zamanı işğala tam son qoymasaq da, heç vaxt şübhə etmirdik ki, tezliklə Xankəndi, Xocavənd, Ağdərə, Əsgəran, Kərkicahan və o vaxt hələ işğal altında olan bütün digər qəsəbə və şəhərlər azad olunacaq. İki il bundan əvvəl cəmi bir neçə saat davam edən antiterror əməliyyatı nəticəsində işğala tam son qoyduq, suverenliyimizi bərpa etdik, işğalçıları torpaqlarımızdan əbədi qovduq və bu gün sülh içində yaşayırıq. Bu elə bir şərəfli tarixdir ki, əminəm, bugünkü nəsil, bundan sonrakı nəsillər bu şərəfli tarixlə əbədi olaraq fəxr edəcəklər.

**Sakinlər:** İnşallah.

**Prezident İlham Əliyev:** Sizin buraya qayıtmağınız bir daha göstərir ki, ədalət var, sadəcə olaraq, onu təmin etmək lazımdır. Bir daha sizi təbrik edirəm.

***

**Prezident İlham Əliyev:** İşğal dövründə harada yaşamısınız?

**Sakin:** Gəncədə yataqxana şəraitində, ağır vəziyyətdə.

**Prezident İlham Əliyev:** Yataqxanada.

**Sakin:** Allah Sizə uzun ömür, cansağlığı versin ki, bizi o şəraitdən qurtardınız. Ulu Tanrı Sizi qorusun. "Dəmir yumruğ"unuz həmişə düşmənin başının üstündə olsun. Allah qolunuza qüvvət versin.

**Sakinlər**: Amin.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Qadın sakin:** Allah bütün şəhidlərimizə rəhmət eləsin. Əvvəlki müharibədə və axırıncı müharibədə zəhməti olanlara, qazilərimizə cansağlığı versin. Amin.

**Prezident İlham Əliyev:** Siz harada yaşayırdınız, Gəncədə?

**Qadın sakin:** Yox, Goranboyun Meşəli qəsəbəsində. Bir dəfə orada məskunlaşdırmısan bizi, indi də burada evlə təmin etmisən. Allah sənə dəyməsin.

**Kişi sakin:** Çox sağ olun, cənab Prezident. Siz ki bu tarixi günü bizə yaşatdınız, Allah Sizdən razı olsun, ailənizi qorusun.

**Sakinlər:** Amin.

**Prezident İlham Əliyev:** Sağ olun. Sizə cansağlığı, xoşbəxt həyat arzulayıram. Bir daha təbrik edirəm.

**Sakinlər:** Çox sağ olun, cənab Prezident.

# Qarabağ Universiteti mühəndislik fakültəsi binasının təməli qoyulub






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərində Qarabağ Universitetinin Mühəndislik fakültəsinin binasının təməlini qoyub.**

Dövlətimizin başçısına binada yaradılacaq şərait barədə məlumat verildi.

Qeyd edək ki, Qarabağ Universitetinin Mühəndislik fakültəsi müasir texnoloji çağırışlara cavab verən, innovasiya və tətbiqyönümlü mühəndis kadrların hazırlanmasını hədəfləyən əsas akademik struktur bölmələrdən biridir. Fakültədə hazırda 19 professor-müəllim, inzibati və texniki heyət üzvü fəaliyyət göstərir. Burada ümumilikdə 314 tələbə təhsil alır.

Fakültədə bakalavriat səviyyəsində elektrik və elektronika, inşaat, mexatronika və robototexnika, logistika və nəqliyyat texnologiyaları, kompüter mühəndisliyi, data analitika və riyaziyyat daxil olmaqla 7 ixtisas üzrə kadr hazırlığı həyata keçirilir. Gələcəkdə mühəndislik istiqaməti üzrə yeni ixtisasların açılması nəzərdə tutulur.

Yeni binanın müasir standartlara uyğun inşa edilərək qısa müddətdə istifadəyə verilməsi planlaşdırılır. Tədris binası keyfiyyətli kadr hazırlığını təmin edən, tələbələrin nəzəri bilik və praktiki bacarıqlarının inkişafına, həmçinin innovativ fəaliyyətlərinin genişləndirilməsinə xidmət edən auditoriyalar, laboratoriyalar, kitabxana, elmi-tədqiqat və innovasiya məkanları ilə təchiz olunacaq.

Layihənin icrası mühəndislik təhsilinin inkişafına mühüm töhfə verməklə yanaşı, müasir akademik məzmunun və innovativ tədris metodlarının tətbiqini təşviq edən, tələbələrin hərtərəfli inkişafını dəstəkləyən qabaqcıl ali təhsil mühitinin formalaşdırılmasına xidmət göstərəcək.

# Qarabağ Universiteti biznes və iqtisadiyyat fakültəsi binasının açılışı





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərində Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin yeni inşa olunmuş binasının açılışında iştirak edib.**

Dövlətimizin başçısına binada yaradılmış şərait barədə məlumat verildi.

Bildirildi ki, Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsi müasir akademik mühitin formalaşdırılması istiqamətində ardıcıl şəkildə inkişaf edən əsas struktur bölmələrdən biridir. Fakültədə hazırda 20 professor-müəllim, inzibati və texniki heyət üzvü fəaliyyət göstərir. Burada ümumilikdə 505 tələbə bakalavriat səviyyəsində 7 ixtisas - iqtisadiyyat, maliyyə, mühasibat uçotu, menecment, dövlət və bələdiyyə idarəetməsi, beynəlxalq ticarət və logistika, turizm işinin təşkili üzrə təhsil alır.

Yeni akademik məzmunun formalaşdırılması, müasir tədris metodlarının tətbiqi, praktiki bacarıqların inkişafı, innovativ idarəetmə və nəticəyönümlü elmi tədqiqatlar fakültənin fəaliyyətinin əsas istiqamətlərini təşkil edir.

Tədris binasında 40 auditoriya, kompüter laboratoriyaları, kitabxana, oxu və akt zalları, iclas, inzibati və professor-müəllim otaqları mövcuddur. Müasir universitet konsepsiyasına uyğun dizayn edilərək inşa olunmuş binanın layihələndirilməsi və tikilməsində dayanıqlı inkişaf, inklüzivlik və resurslardan səmərəli istifadə prinsipləri nəzərə alınıb. Bir sözlə, bina tədris, tədqiqat və inzibati fəaliyyətin daha səmərəli şəkildə həyata keçirilməsinə imkan verən geniş və müasir infrastruktura malikdir.

Yaradılmış şərait fakültənin elmi-pedaqoji potensialının gücləndirilməsinə, tələbələrin bilik və bacarıqlarının inkişafına, əmək bazarının sürətlə dəyişən tələblərinə uyğun iqtisadiyyat və biznes istiqamətli yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasına, elmi-tədqiqat və innovativ fəaliyyətlərin genişləndirilməsinə imkan yaradacaq.

Biznes və iqtisadiyyat fakültəsinin yeni tədris binasının istifadəyə verilməsi universitetdə müasir kampusun formalaşdırılması istiqamətində atılan mühüm addımlardan biri olmaqla yanaşı, Qarabağda və Şərqi Zəngəzurda yüksəksəviyyəli ali təhsil ekosisteminin qurulmasına əhəmiyyətli töhfədir.

Qeyd edək ki, Prezident İlham Əliyev 2024-2025-ci illər ərzində Qarabağ Universitetində görülən işlərlə tanış olub, universitetin, tələbə yataqxanasının, Klinika binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılış mərasimlərində də iştirak edib.

Hazırda Qarabağ Universitetində 34 ixtisas üzrə 7 fakültədə 2154 tələbə təhsil alır.

# "Xankəndi-1" elektrik yarımstansiyası istismara verilib






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərində "AzərEnerji" ASC-nin 110/35/10 kV-luq "Xankəndi-1" elektrik yarımstansiyasının açılışında iştirak edib.**

"AzərEnerji" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayev dövlətimizin başçısına həyata keçirilmiş işlər barədə məlumat verdi.

Qeyd edək ki, Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərin dayanıqlı elektrik enerjisi təchizatı infrastrukturunun yaradılması ilə bağlı tapşırıqlarına əsasən, Xankəndi şəhərində müasir şəhər şəbəkəsi modelinə uyğun 110/35/10 kilovoltluq qapalı tipli yarımstansiya tikilib. Xankəndi və ətraf ərazilərin ölkə enerjisisteminə qoşulması üçün Şuşa şəhərindən Xankəndiyə çətin dağlıq və meşəlik relyefdən keçməklə 1,8 kilometri yeraltı kabel olan, ümumilikdə 11 kilometrlik yüksəkgərginlikli ötürmə xətti çəkilib. Bu yarımstansiya işğaldan azad edilmiş ərazilərdə 110 kV-luq gərginlik sinfi üzrə tikilmiş ilk qapalı tipli yarımstansiyadır. Burada bütün avadanlıq və qurğular, o cümlədən transformatorlar binanın daxilində yerləşdirilib.

Bildirilib ki, yarımstansiyada ən müasir mikroprosessor tipli Rəqəmsal İdarəetmə Mərkəzi qurulub. Bu Micro-SCADA sistemi "AzərEnerji" ASC-nin mütəxəssisləri tərəfindən yaradılaraq ilk dəfə məhz Xankəndidə tətbiq olunub. Sistem yüksəkgərginlikli elektrik xətlərinin və avadanlıqların real vaxtda monitorinqi, idarə olunması və hadisələrin izlənməsini təmin edir. Yarımstansiyadan Xankəndi şəhəri, Ağdərə, Xocalı və Xocavənd rayonları etibarlı və dayanıqlı elektrik enerjisi alacaq.

**(ardı 4-cü səhifədə)**

## “Xankəndi-1” elektrik yarımstansiyası istismara verilib



**(əvvəli 3-cü səhifədə)**

Dövlətimizin başçısına Qarabağ və Şərqi Zəngəzurda 1000 kilometrədək məsafədə yaradılmış dairəvi elektrik təchizatı sisteminin və istismarının təşkilində innovativ texnologiyaların tətbiqi barədə də məlumat verildi.

Diqqətə çatdırıldı ki, “AzərEnerji” ASC tərəfindən Qarabağda və Şərqi Zəngəzurda rekord müddətdə - cəmi 5 il ərzində 1000 kilometr uzunluğunda yüksəkgərginlikli ötürmə xətləri çəkilərək 12 yeni yarımstansiya ilə zəncirvari şəkildə əlaqələndirilib, 330 və 110 kV-luq ikipilləli dairəvi elektrik təchizatı yaradılıb. Bunun üçün yeni Cəbrayıl Enerji Qovşağı inşa edilib, “İmişli”, “Ağcabədi” və “Gəncə” yarımstansiyaları tam yenidən qurulub. Bu, Qarabağın və Şərqi Zəngəzurun enerji tarixində ən böyük yenilikdir, belə ki, istənilən istiqamətdə qəza baş verərsə, fasilə yaranmadan digər istiqamətdən avtomatik və dayanıqlı enerji təmin olunacaq.

Qeyd edək ki, “AzərEnerji” ASC tərəfindən istismarın təşkili üçün tətbiq edilən növbəti innovativ yenilik Qarabağda və Şərqi Zəngəzurdan başlanılmaqla bütün ölkəni əhatə edəcək Rəqəmsal Texnologiyalarla Yarımstansiya və Hava Xətlərinin Monitorinqi və Analizi sistemləridir. Bunun üçün ən müasir rəqəmsal cihaz və qurğular alınıb, yerli gənc mühəndis heyətinin xarici ölkələrdə ixtisasartırma kurslarında iştirakı təmin olunub. Yeni sistem avtomobil və xüsusi təyinatlı dronlar üzərində quraşdırılmış yüksək dəqiqliyə malik kameralar və teplovizorlarla elektrik stansiyası, yarımstansiya və xətlərdə görüntülərin əldə edilməsini, emalını və serverə göndərilməsini, həmçinin lazer texnologiyaları vasitəsilə ölçülərin, məsafələrin və qızma nöqtələrinin müəyyənləşdirilməsini təmin edir, beləliklə, adi gözlə görünməsi mümkün olmayan qəza riskləri aşkarlanır.

Prezident İlham Əliyevə “AzərEnerji” ASC tərəfindən “Yaşıl enerjiyə keçid” meqalayihələri barədə də məlumat verildi. Qeyd edildi ki, ölkənin ən böyük yarımstansiyası — 500 kV-luq “Nəvahi” yarımstansiyasında işlər tamamlanıb, “Şəfəq” Günəş Elektrik Stansiyasının enerjisistemə qoşulması və Səngəçal terminalının elektrikləşdirilməsi üçün Cəbrayılda 330, Səngəçalda isə 220 kV-luq yarımstansiyaların tikintisi yekunlaşıb. Azərbaycanda bərpaolunan enerji mənbələrinin dinamik inkişafı üçün Batareya Enerji Saxlanc sistemlərinin yaradılması sürətlə davam edir. MDB məkanında gücünə və tutumuna görə ən böyük Batareya Saxlanc sistemləri olan bu enerji obyektləri “Abşeron” və “Ağdaş” yarımstansiyalarının ərazilərində qurulur. Ölkədə yeni yaradılan 2 QVt bərpaolunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyasını asanlaşdırmaq və enerji sisteminin dayanıqlılığını gücləndirmək məqsədilə Geniş Ərazi Monitorinq və Geniş Ərazi İdarəetmə sistemləri tətbiq edilir.

## Xocalıda mebel istehsalı müəssisəsi






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xocalı rayonunun Ballıca kəndində “Accurate Az” MMC-nin ofis mebelləri və mebel aksesuarlarının istehsalı müəssisəsinin açılışında iştirak edib.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov və “Accurate Az” MMC-nin təsisçisi İlkin Abuşov dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdilər.

Bildirildi ki, müəssisə Türkiyə, İsveçrə, Almaniya, İtaliya, Çin və Yaponiyanın qabaqcıl texnologiya və avadanlıqları ilə təchiz olunub. Burada ildə 20 çeşiddə 240 min ədəd ofis mebeli və 4 milyon ədəd mebel aksesuarı istehsal ediləcək. Məhsulların 60 faizi ixraca, 40 faizi daxili bazara yönəldiləcək. Xammaldan hazır məhsula qədər ofis mebeli istehsalının bütün mərhələləri müəssisədə həyata keçiriləcək. Layihənin ümumi dəyəri 20 milyon manat təşkil edir ki, bunun reallaşdırılması üçün İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 7 milyon manat güzəştli kredit verilib. Müəssisə, həmçinin işğaldan azad edilmiş ərazilərdə sahibkarlar üçün tətbiq olunan güzəşt və stimullardan yararlanıb.

Müəssisənin fəaliyyətə başlaması Qarabağda mebel istehsalı sahəsinin formalaşmasına, yerli istehsalın genişlənməsi və ixrac potensialının artırılmasına, həmçinin işğaldan azad olunmuş ərazilərdə əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə töhfə verəcək. Hazırda burada 80 nəfər üçün daimi iş yeri yaradılıb, növbəti mərhələlərdə isə 450 daimi iş yerinin yaradılması planlaşdırılır.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə dayanıqlı məskunlaşmanın, özəl təşəbbüslərin stimullaşdırılması, investisiyaların cəlbi və əlverişli biznes mühitinin formalaşdırılması dövlətin əsas strateji hədəflərindən biri kimi müəyyənləşdirilib. Bu məqsədlə həmin ərazilərdə fəaliyyət göstərən hüquqi və fiziki şəxslər 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətinə mənfəət, gəlir, əmlak, torpaq və sadələşdirilmiş vergilərdən azaddırlar. Həmçinin bu ərazilərdə rezidentlər tərəfindən iqtisadi fəaliyyət sahələri üzrə idxal olunan texnika, texnoloji avadanlıq və qurğular, xammal və materialların idxalı 2023-cü il yanvarın 1-dən 10 il müddətinə ƏDV və gömrük rüsumundan azaddır. Bütün bu tədbirlər sahibkarlığın, sənaye və iqtisadiyyatın inkişafını, həmçinin əhalinin məşğulluğunun artırılmasını təmin edir.

## Ağdamda metal elektrik dirəklərinin istehsalı müəssisəsinin açılışı





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Ağdam Sənaye Parkında “Construction” MMC-nin metal elektrik dirəklərinin istehsalı müəssisəsinin açılışında iştirak edib.**

“Construction” MMC-nin təsisçisi Nurlan Abbasov dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, Sənaye Parkının 1 hektarlıq ərazisində yerləşən müəssisədə istehsal Çin texnologiyası əsasında qurulub. Zavodun metal elektrik dirəkləri üzrə illik istehsal gücü 7 min 200 ton təşkil edir. Məhsullar həm daxili bazarın tələbatını ödəyəcək, həm də ixrac ediləcək. İnvestisiya həcmi 2,96 milyon manat olan müəssisədə 32 daimi iş yeri yaradılıb. Qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 1,2 milyon manat zəmanətli kredit ayrılıb. Bununla yanaşı, müəssisə sənaye parkının rezidentlərinə verilən bütün vergi və gömrük güzəştlərindən yararlanıb. Həmçinin texnika, texnoloji avadanlıq və qurğuların idxalı zamanı təxminən 443 min manat dəyərində ƏDV və gömrük rüsumlarına güzəşt əldə olunub.

Qeyd edək ki, dövlətimizin başçısının 2021-ci ildə imzaladığı Fərmana əsasən, 190 hektar ərazidə yaradılan Ağdam Sənaye Parkının məqsədi işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişafı, sahibkarlığın dəstəklənməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır. Sənaye Parkının prioritet istiqamətləri tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət, süd, yem, gübrə istehsalının və emalının, xidmət sahələrinin, soyuducu kameraların təşkilidir.

Sahibkarlıq fəaliyyətinin inkişafı üçün burada dövlət tərəfindən əlverişli investisiya mühiti yaradılıb. Parkda ümumi investisiyalarının həcmi 312 milyon manatdan çox olan 32 sahibkarlıq subyektinə rezidentlik, 5 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Artıq investorlar tərəfindən Sənaye Parkına 142 milyon manat sərmayə yatırılıb, 970-ə yaxın daimi iş yeri yaradılıb. İşlə təmin edilənlərin çoxu Ağdam və ətraf rayonların sakinləridir. Sənaye Parkının rezidentləri tərəfindən istehsal olunmuş 945 milyon manat dəyərində məhsul satışı həyata keçirilib ki, bunun da 39,5 milyon manatlıq hissəsi ixrac edilib.

## “Saloğlu Qarabağ” MMC-nin təməli qoyulub




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Ağdam Sənaye Parkında “Saloğlu Qarabağ” MMC-nin istehsal müəssisəsinin təməlini qoyub.**

“Saloğlu Qarabağ” MMC-nin təsisçisi Tacəddin Mustafayev dövlətimizin başçısına yeni yaradılacaq müəssisə haqqında məlumat verdi.

Bildirildi ki, müəssisə Ağdam Sənaye Parkında 1 hektar ərazidə yaradılacaq. Burada mebel, o cümlədən müxtəlif çeşiddə qonaq və yataq otağı dəstləri, yumşaq və metal mebel aksesuarlarının istehsalı üzrə zavodun qurulması nəzərdə tutulur. İstehsal prosesində Türkiyə, Almaniya və Çin texnologiyalarından istifadə olunacaq. Zavodun istehsal gücü illik 4 min dəst mebel və 6 min ədəd metal mebel aksesuarı olacaq. Məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, ixrac da ediləcək. İnvestisiya dəyəri 8 milyon manat olan müəssisənin qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən güzəştli kredit ayrılması nəzərdə tutulub. Müəssisə sənaye parkının rezidentlərinə verilən bütün vergi və gömrük güzəştlərindən yararlanacaq. Burada 50 nəfərlik daimi iş yerinin yaradılması planlaşdırılır.

# Ağdam şəhərində “Hilton Garden Inn Agdam” hoteli istifadəyə verilib










**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Ağdam şəhərində “Hilton Garden Inn Agdam” hotelinin açılışında iştirak edib.**

Dövlətimizin başçısına burada yaradılmış şərait barədə məlumat verildi.

Bildirildi ki, ümumi ərazisi 2 hektardan çox olan mehmanxana 2, 6 və 7 mərtəbəli olmaqla, 3 blokdan ibarətdir. 287 yerlik hotel binasında müxtəlif siniflərə aid ümumilikdə 127 otaq var. Burada, həmçinin restoran, ictimai-iaşə zonası, iclas, tədbir və ziyafət zalları, qapalı hovuz, idman zalı yaradılıb. Hotelin ərazisində də geniş abadlıq işləri görülüb. Burada 120 nəfər daimi işlə təmin olunub. Yeni hotel Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi, Ağdam Muğam Mərkəzi, Ağdam Sənaye Parkı və digər sosial infrastruktur obyektlərinin yaxınlığında yerləşir.

Qeyd edək ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2022-ci ildə Ağdam şəhərində mehmanxana kompleksinin təməlqoyma mərasimində iştirak ediblər. Bu ilin fevralında isə kompleksdə görülən tikinti işləri ilə tanış olublar.

İşğaldan azad edilmiş ərazilərdə görülən bərpa və yenidənqurma işləri çərçivəsində bu bölgədə turizm infrastrukturunun formalaşdırılması əsas istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Bu məqsədlə müasir tələblərə cavab verən hotel və mehmanxana komplekslərinin tikintisi həyata keçirilir, turizm potensialının reallaşdırılması üçün zəruri şərait yaradılır. Bütün bu işlər “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”na uyğun icra olunur. Bu hotellər memarlığına görə ərazinin təbii landşaftına uyğun layihələndirilir, ekoloji standartlara və ən müasir xidmət prinsiplərinə əsaslanır. Turizm obyektləri turistlərin rahat yerləşməsi, istirahəti üçün geniş imkanlar yaradır. Hotellərin tikintisi, həmçinin bu bölgələrdə iqtisadi fəallığın artmasına, yeni iş yerlərinin yaradılmasına və sahibkarlığın inkişafına təkan verir. Bütün bu işlər Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ölkənin turizm potensialında mühüm yer tutmasına da zəmin yaradacaq.

***AZƏRTAC***

# Dayağı – Xalq, amalı – Müstəqillik, hesabatı – Zəfər!



**(əvvəli 1-ci səhifədə)**

Bu gün xalqımız işğaldan azad olunmuş torpaqlarımızın dirçəlişi və “Böyük Qayıdış” dövrünü yaşayır. Sürətlə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri, müasir infrastrukturun yaradılması, şəhər və kəndlərin yeni simasının formalaşması Azərbaycan dövlətinin gücünü və iradəsini bütün dünyaya nümayiş etdirir. Qeyd etdiklərimiz fonunda yenə ön planda dayanan, gözlərimiz önündə canlanan İlham Əliyev obrazı var. Prezident İlham Əliyev doğma yurdu xilas etməyin, el-obaya sahib çıxmağın ən yüksək örnəyini formalaşdırıb. Ötən bir ilin bununla bağlı yaşantıları isə saysız-hesabsızdır.

İlham Əliyevin çıxış və müsahibələrində tarixə istinad, milli yaddaş və identiklik mövzuları mühüm yer tutur. Bunun xarici siyasətdə arqument bazası rolunu oynadığından xəbərdarıq. Amma ölkəmizin liderinin ayrı-ayrı çıxışlarının daxilə hesablanmış aktuallıq çəkisi xüsusi qeyd edilməlidir. Bu baxımdan dövlətimizin başçısının noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyi ilə bağlı yığıncaqdakı nitqi bir çox məqamları ilə diqqət çəkir. Ən başlıcası isə onun Azərbaycan dilinin saflığının qorunmasının vacibliyinə dair səsləndirdiyi mesajlardır. Prezident İlham Əliyev ana dilimizin milli yaddaşımızın qorunmasına yönələn identiklik cəhətinə ali qiymətini verdi ki, bu amil həm də dövlətə və xalqa dəyərdir. Xalq o zaman dövlətinə sahibdir ki, onun heç bir kənar təsirlərə məruz qalmayan ahəngdar dili, bu yaşatdığı və yeni nəsillərə ötürdüyü ənənə var.

Şübhəsiz, Prezident İlham Əliyev şəxsiyyətini bir yazı ilə açıb göstərmək olmaz. Onun liderliyinin bütün təfərrüatlarını vurğulamaq üçün cild-cild kitablara, romanlara, hətta çoxsaylı bədii və sənədli filmlərə ehtiyac duyulur. Bu yazı isə daha çox vətəndaşlıq hisslərindən doğan vəfa borcudur. Liderin doğum gününün əvvəldə haqqında söz açdığımız əlamətdarlığını vurğulayan vəfa borcu.

“Xalq qəzeti”nin kollektivi hesabatı xalq və dövlət olan Prezident İlham Əliyevi doğum günü münasibətilə təbrik edir, ona möhkəm cansağlığı, müstəqil, suveren Azərbaycanı dünyada yüksəldən tarixi missiyasında yeni-yeni uğurlar və müvəffəqiyyətlər arzulayır.

***Əflatun AMAŞOV,***
***“Xalq” qəzetinin baş redaktoru***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Qazaxıstanda Sizi görkəmli, müasir dövlət xadimi, qlobal miqyaslı təcrübəli və səriştəli siyasətçi kimi tanıyırlar və hörmət edirlər.

Sizin çoxillik səmərəli ali dövləti fəaliyyətiniz haqlı olaraq Azərbaycanın tarixi nailiyyətləri, suverenliyinin möhkəmlənməsi, beynəlxalq nüfuzunun artması və dinamik sosial-iqtisadi inkişafı dövrü ilə əlaqələndirilir.

Sizin güclü və müdrik liderliyinizlə qardaş Azərbaycan strateji kursunuzu qətiyyətlə davam etdirərək, bundan sonra da inkişaf və tərəqqi yolunda inamla irəliləyəcəkdir.

Qazaxıstan-Azərbaycan strateji tərəfdaşlığının və müttəfiqliyinin gücləndirilməsinə verdiyiniz nəhəng şəxsi töhfənizi yüksək dəyərləndirir, əsrlər boyu davam edən dostluq və qarşılıqlı dəstək ruhunda onların hərtərəfli möhkəmləndirilməsinə xüsusi əhəmiyyət verirəm.

Əminəm ki, biz birgə səylərimizlə çoxşaxəli dövlətlərarası əlaqələrin bundan sonra da inkişafına yeni təkan verəcək, Qazaxıstan ilə Azərbaycan arasında münasibətləri keyfiyyətcə yeni səviyyəyə qaldıracağıq.

Hörmətli İlham Heydər oğlu, Sizə tükənməz enerji, ailə səadəti və ali dövləti fəaliyyətinizdə yeni uğurlar, qardaş Azərbaycan xalqına isə rifah və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***Kasım-Jomart TOKAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti***

*

**Hörmətli cənab Prezident!**

Zati-alinizin doğum günü münasibətilə ən səmimi təbriklərimi və ən xoş arzularımı Sizə çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik arzularımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***II ABDULLAH,***
***İordaniyanın Kralı***

*

**Zati-aliləri!**

Böyük məmnuniyyətlə xalqımızın adından və öz adımdan Sizə doğum gününüz münasibətilə ən səmimi təbriklərimizi çatdırıram. Uca Allah Sizə möhkəm cansağlığı və çoxlu belə xoş günlər nəsib etsin.

Başa çatmaqda olan ilə nəzər saldıqda, ikitərəfli münasibətlərimizin müsbət inkişafından böyük məmnunluq duyuram. Bu münasibətlər bu ilin fevral və may aylarında ikitərəfli görüşlər keçirmək, həmçinin iyul ayında Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə toplantısında, noyabr ayında Bakıda şanlı Zəfər Gününə həsr olunmuş paradda iştirak etmək məqsədilə gözəl ölkənizə etdiyim səfərlərlə daha da möhkəmlənmişdir.

Azərbaycana etdiyim hər səfərim zamanı ölkənizin gözəlliyinə və zəngin təbiətinə daha çox heyran oldum, dost və qonaqpərvər qardaş xalqınıza olan məhəbbətim daha da artdı.

İqtisadi sahədə əməkdaşlığımız da uğurla inkişaf edir və hazırda Azərbaycanın Pakistana 2 milyard dollar məbləğində investisiya yatırması ilə bağlı şərtləri yekunlaşdırırıq. Bu layihə xalqlarımızın həyatını dəyişdirəcək və eyni zamanda qarşılıqlı faydalı iqtisadi əməkdaşlığı təmin edəcəkdir.

Zati-aliləri, mən Bakıda olarkən “ASAN xidmət” mərkəzinin fəaliyyəti ilə tanış olmağımı xatırlatmaq istəyirəm. Həmin vaxtdan bəri ölkələrimiz dövlət xidmətlərinin göstərilməsində innovativ və vətəndaşlara yönəlik həllərin təqdim edilməsi, şəffaflığın, səmərəliliyin və institusional bütövlüyün təmin edilməsi məqsədilə İslamabadda “Pakistan Asan Xidmət” mərkəzinin yaradılması üzərində birgə çalışırlar. Aylarla davam edən işlərdən sonra “Pakistan Asan Xidmət” mərkəzi 2026-cı il yanvarın 10-dək hazır olacaq və açılış mərasimi keçiriləcəkdır. Yeni yaradılmış “Pakistan Asan Xidmət” mərkəzi şübhəsiz ki, xalqlarımızın həyatın bütün sahələri üzrə, o cümlədən səmərəli və müasir dövlət xidmətlərinin göstərilməsindən faydalandıqlarını dünyaya nümayiş etdirəcək.

Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı rifah və tərəqqi diləyirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Məhəmməd Şahbaz ŞƏRİF,***
***Pakistan İslam Respublikasının Baş naziri***

*

**Zati-aliləri!**

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri adından Sizə doğum gününüz münasibətilə ən səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaqdan şərəf duyuruq.

Uzaqgörən liderliyiniz, Azərbaycanın inkişafına sarsılmaz sadiqliyiniz və beynəlxalq arenada prinsipial mövqeyiniz dünyada Sizə dərin hörmət və rəğbət qazandırıb. Sizin rəhbərliyinizlə Azərbaycan suverenliyini möhkəmləndirib, inklüziv iqtisadi artımı təmin edib, dialoq, çoxtərəfli əməkdaşlıq və regional əlaqələrin təşviqində etibarlı tərəfdaş kimi tanınıb.

Sülhə, sabitliyə və davamlı inkişafa sadiqliyinizi, eləcə də Azərbaycanın qlobal gündəmlərə, xüsusən də enerji keçidi, iqlim tədbirlərinə və mədəniyyətlərarası dialoqa verdiyi konstruktiv töhfələri yüksək qiymətləndiririk. Bu işlər Nizami Gəncəvinin humanizmi və müdrikliyindən ilhamlanan Mərkəzimizin missiyası ilə tam şəkildə uyğundur.

Bu əlamətdar gündə Sizə cansağlığı, davamlı uğurlar və firavanlıq arzulayırıq. Azərbaycan xalqına xidmət etməyə, qlobal sülhə və əməkdaşlığa töhfə verməyə davam edəcəyiniz qarşıdakı illərdə Sizə güc-qüvvət, tükənməz enerji diləyirik.

2026-cı ilin mart ayında XIII Qlobal Bakı Forumunda Sizinlə görüşməyi səbirsizliklə gözləyirik.

Zati-aliləri, ən yüksək ehtiramımızı qəbul etməyinizi xahiş edirik.

***Vayra VİKE-FREYBERQA,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti***

***İsmail SERAGELDİN,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti***

***Mariya Fernanda ESPİNOZA,***
***BMT Baş Assambleyasının 73-cü sessiyasının sədri, 2017-2018-ci illərdə Ekvadorun xarici işlər naziri***

***Tarya HALONEN,***
***2000-2012-ci illərdə Finlandiyanın Prezidenti***

***Boris TADİÇ,***
***2004-2012-ci illərdə Serbiyanın Prezidenti***

***Rosen PLEVNELİYEV,***
***2012-2017-ci illərdə Bolqarıstanın Prezidenti***

***İv LETERME,***
***2008, 2009-2011-ci illərdə Belçika Krallığının Baş naziri***

***Əmr MUSA,***
***2001-2011-ci illərdə Ərəb Dövlətləri Liqasının Baş katibi***

***İvo YOSİPOVİÇ,***
***2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti***

***Zlatko LAQUMCİYA,***
***2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş naziri***

***Petar STOYANOV,***
***1997-2002-ci illərdə Bolqarıstanın Prezidenti***

***Tzipi LİVNİ,***
***2006-2009-cu illərdə İsrailin xarici işlər naziri***

***Jan BADERŞNEYDER,***
***“Fortescue Ltd” şirkətinin Direktorlar Şurasının üzvü, “ExxonMobil” şirkətinin sabiq vitse-prezidenti***

***Filip VUYANOVİÇ,***
***2003-2018-ci illərdə Monteneqronun Prezidenti***

***Eka TKEŞELAŞVİLİ,***
***2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini***

***David PAN,***
***Çinin Tsinxua Universiteti Şvarzman kollecinin baş dekanı***

***Suzan ELLİOT,***
***Amerika Xarici Siyasət üzrə Milli Komitəsinin prezidenti və baş icraçı direktoru***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri, hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi böyük sevinc hissi ilə çatdırıram. Sizin fədakarlığınıza birbaşa şahid olan dost və həmkar kimi deyə bilərəm ki, liderliyə gətirdiyiniz səmimiyyət və güc məni həqiqətən ruhlandırır.

Sizin uzaqgörən rəhbərliyiniz Azərbaycanı rifahın və qlobal nüfuzun yeni zirvələrinə yüksəltmişdir, eyni zamanda sülhə, mədəni irsə və iqtisadi inkişafa sadiqliyiniz saysız-hesabsız insanın həyatına müsbət təsir göstərmişdir.

Beynəlxalq forumlar çərçivəsində və ikitərəfli görüşlərimiz, eləcə də Bosniya və Herseqovina ilə Azərbaycan xalqları arasında getdikcə möhkəmlənən əlaqələr məndə gələcəkdə dostluq və əməkdaşlığın daha da dərinləşəcəyi ilə bağlı nikbinlik hissi yaradır.

Bu əziz gündə Sizə və yaxınlarınıza möhkəm cansağlığı, xoşbəxtlik və Azərbaycanı daha parlaq gələcəyə aparan fəaliyyətinizdə uğurlar arzulayıram.

Dərin hörmətlə və ehtiramla,

*đ lk TSVİYANOVİÇ,*
*Bosniya və Herseqovinanın*
*Rəyasət Heyətinin üzvü*

*

**Zati-aliləri!**

Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın – GUAM-ın Beynəlxalq Katibliyi adından və şəxsən öz adımdan Sizə doğum gününüz münasibətilə ən səmimi təbriklərimizi çatdırıram.

Eyni zamanda Azərbaycanın inkişafında, regional və beynəlxalq mövqeyinin, rolunun artırılmasında əldə etdiyiniz mühüm nailiyyətlər münasibətilə də Sizi təbrik edirəm. Azərbaycan Respublikası davamlı şəkildə inkişaf edərək güclü, müasir bir ölkəyə, regional və qlobal məsələlərdə getdikcə daha təsirli aktora çevrilib.

Vətən müharibəsində qazanılan şanlı Qələbədən və beynəlxalq səviyyədə tanınmış sərhədlər daxilində ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından sonra ədalətli və davamlı sülhün bərqərar olması, regionda inklüziv əməkdaşlığın inkişafı üçün göstərdiyiniz səylərdə Sizə uğurlar arzulayırıq.

Azad edilmiş torpaqların bərpası, yenidən qurulması və ölkənin iqtisadiyyatına inteqrasiyası, eləcə də iqtisadiyyatın şaxələndirilməsi və modernləşdirilməsində əldə edilən irəliləyişlərə heyranıq.

Çox mürəkkəb və çətin xarici mühitdə liderliyinizi və beynəlxalq məsələlərdə prinsipial, ardıcıl mövqeyinizi yüksək qiymətləndiririk.

Cənab Prezident, regional təşkilat olaraq, müxtəlif layihələr həyata keçirməklə sülhün, sabitliyin və həmrəyliyin təşviqi üçün təşəbbüslərinizi dəstəkləməyə hazırıq. Həmçinin GUAM-ın üzv dövlətləri arasında bölüşmək üçün Azərbaycanın təcrübəsini öyrənməkdə maraqlıyıq. Biz Azərbaycanın regional əməkdaşlığa verdiyi töhfəni yüksək qiymətləndiririk və bunun GUAM çərçivəsində daha da artırılmasını səbirsizliklə gözləyirik.

Zati-aliləri, Sizi doğum gününüz münasibətilə bir daha səmimi-qəlbdən təbrik edirəm. Güclü, müasir, demokratik Azərbaycanın daha da inkişafı ilə bağlı bütün ideya və təşəbbüslərinizi həyata keçirmək üçün Sizə möhkəm cansağlığı və tükənməz enerji arzulayıram.

**Hörmətlə,**

*Altay ƏFƏNDİYEV,*
*GUAM-ın Baş katibi*

*

**Zati-aliləri, hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə Sizi Beynəlxalq Cüdo Federasiyası adından və şəxsən öz adımdan təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik, uğurlar arzulayıram. Qarşıdan gələn ildə Sizə yeni nailiyyətlər və yaxınlarınızla birlikdə xoş günlər diləyirəm.

Sizin gözəl nailiyyətləriniz, ümumilikdə idmanın və xüsusən də cüdonun inkişafına verdiyiniz dəyərli töhfələr liderliyinizi müəyyən edən sədaqət, dürüstlük, uzaqgörənlik kimi yüksək keyfiyyətlərdən xəbər verir. Dəstəklədiyiniz dəyərlər və uzunmüddətli perspektivə hesablanmış uğurlu fəaliyyətiniz idmanın, o cümlədən cüdonun Azərbaycan Respublikasında və beynəlxalq səviyyədə cəmiyyətə müsbət təsirini gücləndirir. Bütün bunlar milli və qlobal səviyyədə idman mənzərəsini zənginləşdirməyə davam edir və mükəmməlliyə, inkişafa doğru irəliləyənlər üçün ilham mənbəyi olaraq qalır.

Beynəlxalq Cüdo Federasiyası ilə səmərəli əməkdaşlığınızı yüksək qiymətləndiririk və bunu davam etdirməyi səbirsizliklə gözləyirik.

Doğum gününüz mübarək!

Dərin hörmətlə və ehtiramla,

*Marius VİZER,*
*Beynəlxalq Cüdo Federasiyasının prezidenti*

*

**Hörmətli cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizə uzun ömür, cansağlığı, xoşbəxtlik və ölkənizin rifahı naminə fəaliyyətinizdə davamlı uğurlar arzulayıram.

bp olaraq, Azərbaycanda dünya miqyaslı enerji layihələrinin operatoru olmaqdan, Azərbaycan Hökuməti və SOCAR ilə qurduğumuz müstəsna münasibətlərdən qürur duyur və bu səmərəli tərəfdaşlığımızın gələcək illərdə də davam edəcəyinə ümid edirik. Bu strateji enerji layihələrinin həyata keçirilməsi Sizin liderliyiniz və daimi dəstəyiniz sayəsində mümkün olmuşdur.

Bu il 30 ildən artıq davam edən tərəfdaşlığımızda daha bir mühüm mərhələni qeyd edirik. İyun ayında biz neft və qazın kəşfiyyatı və hasilatını gücləndirəcək, eyni zamanda Günəş enerjisi və elektrikləşdirmə layihələrinin irəliləməsinə töhfə verəcək dörd əhəmiyyətli saziş imzaladıq. Qarşıdan gələn illər ərzində bu layihələrin də uğurla reallaşmasına ümid edirik.

Bu xoş fürsətdən istifadə edərək, Sizi, ailənizi və bütün Azərbaycan xalqını Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirəm. Yeni ildə Sizə, yaxınlarınıza və bütün Azərbaycan xalqına firavanlıq, sülh və tərəqqi arzulayıram.

**Hörmətlə,**

*Cio KRİSTOFOLİ,*
*bp-nin Azərbaycan, Gürcüstan və*
*Türkiyə üzrə regional prezidenti*

*

**Hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə Sizi təbrik edirəm.

Sizin səyləriniz sayəsində Azərbaycan Respublikası dövlətçiliyinin möhkəmləndirilməsində və əhalisinin sosial-iqtisadi rifahının yaxşılaşdırılmasında nəzərəçarpan nəticələr əldə edib.

Ölkələrimizin xalqlarının mənafeyi naminə ikitərəfli əlaqələrin, həmçinin "Yedinaya Rossiya" Ümumrusiya Siyasi Partiyası və Yeni Azərbaycan Partiyası arasında əməkdaşlığın daha da dərinləşməsinə ümid edirəm.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, xoşbəxtlik diləyir və ən xoş arzularımı çatdırıram.

*Dmitri MEDVEDEV,*
*Rusiya Federasiyası*
*Təhlükəsizlik Şurası sədrinin müavini*

*

**Çox hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm. Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, rifah və bütün planlarınızın həyata keçməsində uğurlar arzulayıram.

İqtisadi cəhətdən inkişaf edən Azərbaycan dövlətinin firavanlığına və xalqınızın rifahının yaxşılaşdırılmasına yönəlmiş fəaliyyətiniz Sizə təkcə doğma ölkənizdə deyil, həm də onun hüdudlarından kənarda da layiqli hörmət qazandırıb.

Azərbaycan Respublikası həmişə Rusiya Federasiyası ilə əməkdaşlığın bütün sahələrində, o cümlədən regionlararası səviyyədə strateji tərəfdaş olub və olmaqda davam edir. Azərbaycan Respublikası ilə Həştərxan vilayəti arasında qurulmuş dostluq əlaqələrini yüksək qiymətləndirir, bölgəmizlə çoxşaxəli, qarşılıqlı faydalı əlaqələrin gücləndirilməsinə göstərdiyiniz dəstəyə görə Sizə səmimi-qəlbdən təşəkkür edirəm.

**Dərin hörmətlə,**

*İqor BABUŞKİN,*
*Rusiya Federasiyasının*
*Həştərxan vilayətinin qubernatoru*

*

**Çox hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin rəhbərliyinizlə Azərbaycan uzun illərdir ki, qlobal aləmdə mövqelərini inamla möhkəmləndirir və mürəkkəb beynəlxalq gündəmə baxmayaraq, nəzərəçarpan uğurlar əldə edir.

Rusiya ilə Azərbaycan əsas regional məsələlər üzrə maraqlar balansını və qarşılıqlı anlaşmanı tapmağa çalışaraq əməkdaşlığı davamlı olaraq inkişaf etdirirlər.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, tükənməz enerji, firavanlıq diləyir, qardaş Azərbaycan xalqının və ölkələrimizin rifahı naminə yeni böyük nailiyyətlər arzulayıram.

**Hörmətlə,**

*İlyas UMAXANOV,*
*Rusiya Federasiyasının senatoru*

*

**Hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

Sizin adınız Azərbaycan Respublikasının müasir tarixi, dövlətçiliyinin inkişafı, siyasi və iqtisadi güc qazanması və ölkənin artan beynəlxalq nüfuzu ilə ayrılmaz şəkildə bağlıdır.

Sizin rəhbərliyinizlə Azərbaycan genişmiqyaslı infrastruktur layihələri həyata keçirir, milli maraqlarını inamla müdafiə edir, regional sabitliyin və təhlükəsizliyin təmin edilməsinə əhəmiyyətli töhfələr verir. Respublikanın milyonlarla sakini və bir çox xarici tərəfdaş Sizin şəxsi keyfiyyətlərinizi, strateji düşüncənizi, müdrikliyinizi yüksək qiymətləndirir.

Hörmətli İlham Heydər oğlu, Sizə Azərbaycan Respublikasının və onun vətəndaşlarının rifahı naminə ali dövləti fəaliyyətinizdə bundan sonra da uğurlar, eləcə də möhkəm cansağlığı, tükənməz enerji və firavanlıq arzulayıram.

**Hörmətlə,**

*Mixail QUTSERİYEV,*
*Rusiyanın "SAFMAR" Qrupu"*
*Səhmdar Cəmiyyətinin prezidenti*

*

**Möhtərəm cənab Prezident,**
**Müzəffər Ali Baş Komandan!**

Zati-alinizə doğum gününüz münasibətilə səmimi təbriklərimi çatdırmaqdan böyük şərəf duyuram.

Xaricdə yaşamağımıza baxmayaraq, Sizin milli dövlətçilik düşüncəmizin daha da dərinləşməsi və suverenliyimizin daha da möhkəmlənməsinə bəxş etdiyiniz inam, qürur və güclü Azərbaycan ideyası bizim Vətənlə sarsılmaz bağlarımızı daim gücləndirib və ona xidmət etməyə yeni stimul verib. Sizin qətiyyətli siyasi iradəniz və liderlik nümunəniz bizə milli birliyimizin, yüksək vətənpərvərlik ruhumuzun və dövlətimizin inkişaf perspektivlərinə inamla baxmaq gücü verib. Bu şərəfli və tarixi missiyanı həyata keçirərkən bizim – Vətənə bağlı insanların sevgisi, etimadı və dəstəyi hər zaman Sizinlədir.

Bu il Siz bizə ata vəsiyyəti, dəmir iradə və qətiyyət ilə gerçəkləşən tarixi Zəfərimizin 5 illiyini böyük qürur, sonsuz iftixar və kövrək sevinc hissi ilə yaşatdınız. Arzu edirəm ki, şərəfli liderlik yolunuzun bütün mərhələlərində xalqın sevgisi Sizin üçün hər zaman mənəvi dayaq olsun.

Müzəffər Sərkərdəmiz, Sizi həm öz adımdan, həm də daim qayğınızı əsirgəmədiyiniz ailəmiz adından bir daha təbrik edir, Sizə uzun ömür, möhkəm cansağlığı, fədakar dövlətçilik fəaliyyətinizdə uğurlar arzulayıram.

**Dərin hörmətlə,**

*Nuran ABDULLAYEV,*
*Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri, Almaniyanın Troisdorf şəhərinin Radiologiya, Nuklear Tibb və Neyroradiologiya Klinikasının rəhbəri, tibb elmləri doktoru, professor*

*

**Hörmətli İlham Heydər oğlu!**

Sizi doğum gününüz münasibətilə "VTB Bank"ın İdarə Heyəti və kollektivi adından səmimi-qəlbdən təbrik edirəm.

Sizin rəhbərliyinizlə Azərbaycan əsas milli inkişaf məsələlərinin həllində davamlı dinamika nümayiş etdirib və beynəlxalq aləmdə əhəmiyyətli uğurlar qazanıb, nüfuzlu regional lider kimi mövqelərini möhkəmləndirib.

Rusiya və Azərbaycan xalqları arasında əsrlər boyu davam edən tarixi işgüzar, mədəni əlaqələr mehriban qonşuluq münasibətlərimizin sabitliyinin və ikitərəfli strateji tərəfdaşlığımıza sadiqliyin əsasıdır.

VTB Qrupu 15 ildən çoxdur ki, Azərbaycanda uğurla fəaliyyət göstərir. Dövlətlərimiz üçün qarşılıqlı maraq doğuran məsələlərdə dialoqun inkişaf etdirilməsinə və əməkdaşlığın möhkəmləndirilməsinə görə Sizə minnətdarıq. Azərbaycanlı tərəfdaşlarımızla münasibətlərin mövcud səviyyəsini və ruhunu yüksək qiymətləndiririk.

Hörmətli İlham Heydər oğlu, icazə verin, bu əlamətdar gündə Sizə, ailənizə və bütün Azərbaycan xalqına möhkəm cansağlığı, rifah, sülh və firavanlıq arzulayım.

**Dərin hörmətlə,**

*Andrey KOSTİN,*
*Rusiyanın "VTB Bank" Publik Səhmdar*
*Cəmiyyətinin prezidenti, İdarə Heyətinin sədri*

*

**Hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi, Zati-alinizə cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə uğurlar arzularımı qəbul etməyinizi xahiş edirəm.

Mən, həmçinin Azərbaycan xalqına davamlı firavanlıq və rifah arzulayıram.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımı ifadə edirəm.

**Səmimiyyətlə,**

**Cuzeppe KANİLİA,**
**İtaliyada fəaliyyət göstərən**
**Napoli-Bakı Assosiasiyasının sədri**

*

**Hörmətli cənab Prezident!**

Sizə doğum gününüz münasibətilə səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram. Zati-alinizə və yaxınlarınıza möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik arzulayıram.

Əminliyimi bildirirəm ki, Sizin müdrik rəhbərliyinizlə ölkəniz daha da inkişaf edəcək, xalqınız ətrafınızda daha sıx birləşəcək və dünyada sülhün, dostluğun dəstəklənməsi, xüsusilə də Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi, mədəni və idman sahələrində əlaqələrin genişlənməsi üçün bundan sonra da səylərinizi əsirgəməyəcəksiniz.

Sizə Azərbaycanın tərəqqisi və xalqın rifahı naminə məsuliyyətli fəaliyyətinizdə davamlı uğurlar, tükənməz enerji arzulayıram.

**Hörmətlə,**

*Tetsuo SATO,*
*Yaponiyada fəaliyyət göstərən*
*Yerli İcmaların Dirçəliş Fondunun sədri*

*

**Hörmətli cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik. Sizə möhkəm cansağlığı, Azərbaycanın daha da inkişafı naminə fəaliyyətinizdə davamlı uğurlar arzulayırıq.

Son beş il ərzində regionda yaranan yeni reallıqlar, xüsusilə də Azərbaycanın suverenliyinin, ərazi bütövlüyünün təmin olunması Sizin qətiyyətli siyasətinizin və uzaqgörən liderliyinizin nəticəsidir.

Müzəffər Ali Baş Komandan kimi Sizin rəhbərliyinizlə qazanılmış şanlı Zəfər Azərbaycan tarixinin ən parlaq səhifələrindən biri kimi xalqın milli qürurunu, birliyini, gücünü bütün dünyaya nümayiş etdirmişdir.

Fürsətdən istifadə edərək Sizi birliyin və həmrəyliyin rəmzi olan

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə də təbrik edirik. Sizin uğurlu siyasətiniz sayəsində həm ölkə daxilində, həm də bütün dünyada azərbaycanlılar arasında birliyin möhkəmlənməsi xüsusi önəm kəsb edir.

Sizin rəhbərliyinizlə Azərbaycanın gələcəyinin daha da parlaq olacağına inanırıq. Sizə bir daha təbriklərimizi çatdırır, dövlətə və xalqa xidmət işində yeni-yeni nailiyyətlər arzulayırıq.

**Dərin hörmətlə,**

*Ədalət TURAN,*
*Türkiyə Azərbaycan*
*Dərnəkləri Federasiyasının sədri*

*

**Hörmətli cənab Prezident,**
**Müzəffər Ali Baş Komandan!**

Kanadanın Saskaçevan əyalətində yaşayan azərbaycanlılar adından Sizə doğum gününüz münasibətilə səmimi təbriklərimizi çatdırır, dərin hörmət və ehtiramımızı bildiririk.

Sizin qətiyyətli və uzaqgörən rəhbərliyinizlə Azərbaycan böyük nailiyyətlərə, tarixi Zəfərə imza atmış, ölkəmizin suverenliyi tam bərpa edilmiş və beynəlxalq aləmdə güclü, nüfuzlu bir dövlət kimi mövqeyi möhkəmlənmişdir.

2025-ci ilin Azərbaycanda "Konstitusiya və Suverenlik İli" kimi qeyd olunması dövlətçiliyimizin möhkəmliyinin və milli iradəmizin təntənəsidir. Biz, Vətəndən uzaqda yaşayan azərbaycanlılar bundan böyük qürur və sevinc hissi duyuruq.

Sizin həyata keçirdiyiniz siyasət dünya azərbaycanlıları arasında birlik və həmrəylik hissini daha da gücləndirmişdir.

Gənclərin milli kimliyinin, ana dilinin və Vətən sevgisinin qorunması Saskaçevan əyalətində fəaliyyət göstərən icmamızın əsas prioritetlərindəndir.

Bu istiqamətdə gördüyümüz işlərdə Sizin müəyyən etdiyiniz dövlətçilik yolu bizim üçün əsas dayaqdır.

Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də səmimi-qəlbdən təbrik edir, Zati-alinizə möhkəm cansağlığı, tükənməz enerji və ölkəmizi daha da böyük uğurlara aparan fəaliyyətinizdə davamlı nailiyyətlər arzulayırıq.

**Dərin hörmətlə,**

*Ruhid MİRZƏYEV,*
*Kanadanın Saskaçevan əyalətində fəaliyyət*
*göstərən Azərbaycan Birliyinin rəhbəri*

*

**Möhtərəm cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik. Sizə cansağlığı, uzun ömür, xoşbəxtlik, tükənməz enerji arzulayırıq.

Azərbaycanın daha da inkişafı, güclənməsi və beynəlxalq arenada nüfuzunun artması ilə bağlı fəaliyyətinizdə Sizə yeni-yeni müvəffəqiyyətlər diləyirik.

Siz Ulu Öndərimiz Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək, ölkəmizin hər sahədə inkişaf etməsi üçün əzmlə çalışaraq xalqımıza verdiyiniz bütün vədləri yerinə yetirmisiniz. Vətənimizin dilbər guşəsi olan Qarabağı işğaldan azad edərək xalqımıza böyük sevinc bəxş etmiş, ata vəsiyyətini həyata keçirmisiniz. Siz müdrik və qətiyyətli siyasət apararaq, bütün çətinliklərə cəsarətlə sinə gərərək haqq səsimizi dünyaya çatdırmısınız, Azərbaycanı qalib, qüdrətli dövlət kimi tanıtmısınız. Sizin rəhbərliyinizlə Azərbaycanın gələcəkdə daha böyük uğurlar qazanacağına, xalqımızın daha xoşbəxt həyat yaşayacağına əminik.

Möhtərəm Prezidentimiz, Sizi, həmçinin Ümummilli Liderimiz Heydər Əliyevin xalqımıza ərməğan etdiyi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edirik. Hər zaman Sizin və dövlətimizin ətrafında sıx birləşərək Vətənimizə xidmət etməyə hazır olduğumuzu bildiririk.

**Dərin hörmət və ehtiramla,**
**Var olun, cənab Prezident!**

*Xuraman AĞAYEVA,*
*İstanbul Azərbaycan Dostluq Dərnəyinin sədri*

*

**Hörmətli cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə İrlandiyada fəaliyyət göstərən "Əşrəf və Anna" musiqi məktəbinin kollektivi adından səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Sizin müdrik rəhbərliyiniz, qətiyyətli siyasi iradəniz və Vətənə sonsuz sevginiz sayəsində Azərbaycan dövləti beynəlxalq aləmdə öz layiqli yerini daha da möhkəmləndirmiş, tarixi zəfərlərə imza atmışdır. Bu nailiyyətlər hər bir azərbaycanlı üçün sonsuz qürur mənbəyidir.

Xaricdə yaşayan azərbaycanlıların milli-mədəni dəyərlərinin qorunmasına və dünya azərbaycanlılarının birliyinə göstərdiyiniz xüsusi diqqət və qayğı bizim üçün böyük stimul və mənəvi dayaqdır. Biz də öz növbəmizdə Azərbaycan mədəniyyətini, incəsənətini və milli kimliyimizi İrlandiyada layiqincə təmsil etməyə çalışırıq.

Zati-alinizə dərin hörmət və ehtiramımı bildirirəm.

Uca Tanrı Sizi və ailənizi qorusun!

**Dərin hörmətlə,**

*Əşrəf TAĞIYEV,*
*İrlandiyada fəaliyyət göstərən "Əşrəf və Anna"*
*musiqi məktəbinin direktoru,*
*Azərbaycanın İrlandiyadakı mədəniyyət elçisi*

*

**Hörmətli cənab Prezident!**

Kanadada fəaliyyət göstərən Recayna Azərbaycan Mədəniyyət Assosiasiyası adından Sizə doğum gününüz münasibətilə səmimi təbriklərimizi, ən xoş arzularımızı çatdırırıq.

Bu gün biz Azərbaycan Respublikasının Sizin rəhbərliyinizlə beynəlxalq arenada söz sahibi olan, milli maraqlarını qətiyyətlə qoruyan, xalqını ətrafında sıx birləşdirən nüfuzlu və qüdrətli bir dövlət olmasından qürur duyuruq.

Əminik ki, əldə edilən uğurlar hər bir vətənpərvər azərbaycanlını sevindirir.

Sizin həyata keçirdiyiniz uğurlu siyasət sayəsində Azərbaycanın inkişaf yolunda daha sürətlə irəliləyəcəyinə əminik.

Biz - Vətəndən kənarda yaşayan azərbaycanlılar milli kimliyimizi qorumağı, Azərbaycan mədəniyyətini təbliğ etməyi, tariximiz və həqiqətlərimizi dünya ictimaiyyətinə çatdırmağı ən şərəfli borcumuz hesab edirik.

Sizi, həmçinin 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də ürəkdən təbrik edirik. 2026-cı ildə Sizə və ölkəmizə daha böyük nailiyyətlər, dövlətimizə tərəqqi, xalqımıza isə əmin-amanlıq və rifah arzulayırıq. Sizə dərin ehtiramımızı bildiririk.

**Hörmətlə,**

*Kanadada fəaliyyət göstərən Recayna*
*Azərbaycan Mədəniyyət Assosiasiyası*

*

**Çox hörmətli cənab Prezident!**

Maksim Tank adına Belarus Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin kollektivi Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir.

Sizin qətiyyətli addımlarınız, müdrik siyasətiniz sayəsində Qarabağ problemi birdəfəlik həll olundu, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin edildi.

Biz Sizinlə - dünya siyasi arenasında ən hörmətli və nüfuzlu liderlərdən biri olan Prezidentimizlə fəxr edirik. Bu, eyni zamanda, hər birimizin üzərinə daha böyük məsuliyyət qoyur – fəaliyyətimizlə Azərbaycanın adını xaricdə hər zaman uca tutmaq və onun nüfuzunun daha da artmasına töhfə vermək.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbriklərimizi çatdırırıq.

Sizə möhkəm cansağlığı, fəaliyyətinizdə uğurlar, yeni-yeni qələbələr arzulayırıq. İnanırıq ki, Siz öz uzaqgörənliyiniz, zəngin təcrübənizlə Azərbaycanı daim zirvələrə ucaldacaqsınız.

**Dərin hörmətlə,**

*Fuad İBRAHİMOV,*
*Maksim Tank adına Belarus*
*Dövlət Pedaqoji Universitetinin*
*nəzdində fəaliyyət göstərən*
*Azərbaycan Dili və Mədəniyyəti*
*Mərkəzinin rəhbəri*

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri cənab Prezident!**
**Əziz dost!**

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Fürsətdən istifadə edərək, Slovakiya Respublikası ilə Azərbaycan Respublikası arasında ikitərəfli münasibətlərin möhkəmləndirilməsində şəxsi xidmətlərinizə görə Sizə səmimi minnətdarlığımı bildirirəm.

Məmnuniyyətlə qeyd edirəm ki, münasibətlərimiz ən yüksək səviyyədədir və bunu Slovakiyaya bu yaxınlarda etdiyiniz ilk rəsmi səfər də əyani şəkildə nümayiş etdirdi. Bu səfər qarşılıqlı anlaşmamızın dərinləşməsinə əhəmiyyətli dərəcədə töhfə vermiş və ortaq maraq doğuran müxtəlif sahələrdə gələcək əməkdaşlıq üçün yeni imkanlar açmışdır.

Eyni zamanda, Azərbaycan Respublikasına rəsmi səfər etməyim üçün xoş dəvətinizə görə Sizə ürəkdən təşəkkür etmək istəyirəm, bu dəvəti məmnuniyyətlə qəbul etdim. Gələn il gözəl ölkənizə yenidən səfər etmək şərəfinə nail olacağımı, bu dəfə rəsmi olaraq səfər edəcəyimi və əməkdaşlığımızın daha da dərinləşdirilməsi ilə bağlı dialoqumuzu davam etdirəcəyimizi səbirsizliklə gözləyirəm.

Zati-aliləri cənab Prezident, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, bol enerji arzulayıram. Qoy ailənizlə, xüsusən də doqquz nəvənizlə birlikdə sevinc dolu anlar yaşayasınız, onlar Sizə, şübhəsiz ki, əvəzsiz sevincli anlar bəxş edirlər. Ölkənizə xidmət etməkdə və Azərbaycan xalqına sülh və firavanlıq gətirməkdə Sizə davamlı uğurlar arzulayıram.

Növbəti görüşümüzü səbirsizliklə gözləyirəm. Sizə dərin hörmət və ehtiramımı ifadə edirəm. 2026-cı ildə Sizə ən xoş arzularımı çatdırıram.

***Peter PELLEQRİNİ,***
***Slovakiya Respublikasının Prezidenti***

*

**Möhtərəm cənab Prezident!**

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimizi, xoş arzularımızı çatdırmaqdan məmnunluq duyuram. Sizin rəhbərliyinizlə Azərbaycan Respublikasındakı inkişaf proseslərini, ölkənin nailiyyətlərini diqqətlə izləyirik. Azərbaycanın yüksəlişi, bütün sahələrdə əldə etdiyi uğurlar bizim üçün qürur mənbəyidir.

Sizin qətiyyətli liderliyinizlə 44 günlük Vətən müharibəsində qazanılan və bu il beşinci ildönümü qeyd edilən Zəfər təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının bayramıdır. Sizin regionda sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətində göstərdiyiniz səylər təqdirəlayiqdir.

Fürsətdən istifadə edərək Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə də təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqının firavanlığı naminə fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

**Hörmətlə,**

***Səttar KAYA,***
***Ankara-Bakı Tanıtma və Həmrəylik Dərnəyinin sədri***

*

**Hörmətli cənab Prezident!**

İcazə verin, Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edim və Sizə möhkəm cansağlığı, xoşbəxtlik, doğma Azərbaycanımızın gələcəyi naminə davamlı uğurlar arzulayım.

Sizin rəhbərliyinizlə Azərbaycan siyasi, iqtisadi və digər sahələrdə inkişaf edərək misli görünməmiş bir yol qət etmişdir. Siz Azərbaycanı tarixində heç vaxt olmadığı qədər güclü dövlətə çevirmisiniz, regional lider kimi ölkənin nüfuzunu beynəlxalq aləmdə yüksəltmisiniz.

Sizin təşəbbüslərinizlə Azərbaycanda və regionda gedən nəhəng quruculuq işləri bizə ölkənin gələcəyinə inamla baxmağa imkan yaradır və ən mühüm nailiyyətlərinizin hələ qabaqda olduğunu deməyə əsas verir.

Cənab Prezident, Sizi, həmçinin qarşıdan gələn Yeni il münasibətilə təbrik edirəm, Sizə və yaxınlarınıza xoşbəxtlik və firavanlıq arzulayıram.

**Dərin hörmətlə,**

***Natiq AĞAMİROV,***
***Avropa Azərbaycanlıları Konqresinin fəxri prezidenti, professor***

*

**Hörmətli İlham Heydər oğlu!**

Şimali Osetiya regional milli-mədəni ictimai təşkilatı olan Azərbaycanlılar Konqresi adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, ailə səadəti, uğurlar, tükənməz enerji, Vətənimiz Azərbaycanın rifahı naminə həyata keçirdiyiniz bütün fəaliyyətinizdə yeni nailiyyətlər diləyirik.

Siz keçmişin ən yaxşı təcrübəsini özündə birləşdirən, eyni zamanda, tarixi perspektivə malik gələcək ideyalara sahib dövlət xadimisiniz.

Sizin yaradıcı və çoxşaxəli fəaliyyətiniz Azərbaycanı güclü dövlətə çevirib, onun müstəqilliyini möhkəmləndirib, apardığınız konstruktiv siyasət beynəlxalq aləmdə Sizə böyük nüfuz qazandırıb.

Hörmətli İlham Heydər oğlu, bu gün bütün dünya azərbaycanlıları, o cümlədən Şimali Osetiya–Alaniya Respublikasında yaşayan soydaşlarımız Sizinlə qürur duyurlar.

Allahdan Sizə möhkəm cansağlığı, uzun ömür diləyirik.

**Hörmətlə,**

***Şahin MƏMMƏDOV,***
***Rusiyanın Şimali Osetiya-Alaniya Respublikasında Azərbaycanlılar Konqresinin fəxri prezidenti,***
***Murtuz GÜLMƏMMƏDOV,***
***Konqresin sədri***

# Binəqədi Prokurorluğunun binası istifadəyə verilib




**Dekabrın 23-də Binəqədi Rayon Prokurorluğunun yeni inzibati binasının açılış mərasimi keçirilib.**

Bina prokurorluq əməkdaşlarının peşəkar fəaliyyətinin daha səmərəli təşkili, iş proseslərinin effektivliyinin artırılması və vətəndaşlara göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə müasir standartlara tam cavab verən infrastrukturla təmin olunub.

Baş prokuror Kamran Əliyev bildirib ki, müasir və çevik prokurorluq sisteminin formalaşdırılması Azərbaycanın hüquqi dövlət quruculuğunun əsas prioritetlərindən biridir. Bu istiqamətdə atılan ardıcıl və məqsədyönlü addımlar ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə əsası qoyulan dövlətçilik strategiyasının mühüm tərkib hissəsini təşkil edib. Məhz həmin yol hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Baş prokuror vurğulayıb ki, ölkə başçısının və onun yaxın silahdaşı Birinci vitse-prezident Mehriban Əliyevanın daim göstərdiyi diqqət və qayğı nəticəsində prokurorluq orqanlarının fəaliyyətinin müasir dövrün tələblərinə uyğun təşkili, maddi-texniki bazanın gücləndirilməsi, o cümlədən əməkdaşlar üçün yaradılan hərtərəfli iş şəraiti peşəkarlığın, iş potensialının və səmərəliliyin artırılmasında, habelə vətəndaş məmnunluğunun təmin olunmasında mühüm irəliləyişlərə səbəb olacaq.

Mərasimdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev və Binəqədi rayon prokuroru Fuad Məmmədov çıxış ediblər.

***XQ***

# Rəqəmsal mühitdə uşaqların beynəlxalq müdafiəsi






**Dekabrın 23-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Rəqəmsal mühitdə uşaqların müdafiəsi: Müasir alətlər və beynəlxalq əməkdaşlıq" mövzusunda beynəlxalq konfrans keçirilib.**

Komitə sədri Bahar Muradova Azərbaycan üçün informasiya təhlükəsizliyinin və kibermüdafiənin milli təhlükəsizliyin ayrılmaz hissəsi olduğunu bildirib. O qeyd edib ki, beynəlxalq öhdəliklər milli siyasətdə ardıcıl şəkildə həyata keçirilir və bu çərçivədə rəqəmsal mühiti uşaqların təhlükəsiz inkişafı üçün müsbət və faydalı bir mühitə çevirmək mümkündür. Ölkəmizdə "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası" qəbul olunub və süni intellektin etik və təhlükəsiz tətbiqi əsas prioritet kimi müəyyən edilib.

Bildirilib ki, süni texnologiyaların, rəqəmsal idarəetmə həllərinin və innovativ tətbiqlərin geniş tətbiqi üçün əlverişli şərait yaradılıb. 2018-ci ildə qəbul olunmuş "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Qanun uşaqların yaşına uyğun informasiya əldə etmək hüququnu və onların fiziki və psixoloji inkişafına zərər verə biləcək məzmundan qorunmasını təmin edir. Qanunun icrası çərçivəsində dövlət qurumları arasında koordinasiya mexanizmləri yaradılıb və ekspert qurumları ilə yaş kateqoriyaları üzrə təsnifat sistemi tətbiq olunub.

Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev uşaqların tamamilə fərqli rəqəmsal dünyada böyüdüklərini, internetə çıxış imkanlarının və sürətinin artdığını, rəqəmsal mühitin həm imkanlar, həm də risklər yaratdığını bildirib.

Türkiyənin ailə və sosial xidmətlər naziri Mahinur Özdemir, İran İslam Respublikasının Prezidentinin qızı Zəhra Pezeşkian, Mərakeş Krallığının həmrəylik, sosial inteqrasiya və ailə naziri Naima Ben Yahia, Şimali Kipr Türk Respublikasının əmək və sosial müdafiə naziri Oğuzhan Hasipoğlu, Qətər Dövlətinin sosial İnkişaf və Ailə Nazirliyinin ailə məsələləri üzrə köməkçi katibi Sheikha Shaika bint Jassim Al Thani müzakirə edilən mövzu ilə bağlı ölkələrindəki durumdan danışıblar, mülahizələrini söyləyiblər.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva, BMT-nin Uşaq Hüquqları Komitəsinin sədri Sofiya Kiladze dövlətlər və beynəlxalq əməkdaşlıq olmadan davamlı nəticələrin mümkün olmadığını vurğulayıb. ICESCO-nun Baş direktorunun müşaviri Amira El Fadil qlobal internet istifadəçilərinin üçdəbirinin uşaq olduğunu, sosial media alqoritmləri və süni intellektin riskləri artırdığını, uşaqların hüquqlarının və rifahının qorunmasının vacibliyini qeyd edib.

Konfrans "Rəqəmsal mühitdə təhlükələr: Həll yolları və müasir yanaşmalar" mövzusunda panel sessiyasında təqdim edilən məruzələrlə davam edib.

Sonda "Rəqəmsal mühitdə uşaqların müdafiəsi: müasir alətlər və beynəlxalq əməkdaşlıq" mövzusunda keçirilən beynəlxalq konfransın yekun bəyannaməsi qəbul edilib. Sənəddə uşaqların kiberzorakılıq, onlayn istismar və zərərli məzmuna qarşı müdafiəsi, ailənin və valideynlərin rolunun gücləndirilməsi, müasir texnologiyalardan məsuliyyətli istifadə, rəqəmsal təhsil və maarifləndirmə, uşaqların qərarvermə prosesində iştirakının təmin olunması və beynəlxalq təcrübə mübadiləsinin vacibliyi əksini tapıb.

***XQ***

# "Mənim dənizlərim, mənim okeanlarım" ekoloji həssaslığa çağırır







**Dekabrın 23-də Bakıda keçirilən "Rəqəmsal mühitdə uşaqların müdafiəsi: müasir alətlər və beynəlxalq əməkdaşlıq" konfransının iştirakçıları Heydər Əliyev Mərkəzində olublar.**

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva qonaqlarla birgə su ehtiyatlarının qorunmasına çağırış edən "Mənim dənizlərim, mənim okeanlarım" sərgisini ziyarət edib.

Qeyd edək ki, Heydər Əliyev Fondu və IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təşəbbüsü ilə təşkil edilən ekspozisiyada müasir rəssamların çirklənmə və həddindən artıq balıq ovundan tutmuş, bioloji müxtəlifliyin itirilməsinə qədər bir sıra qlobal problemləri əks etdirən əsərləri təqdim edilir. Əsərlərdə su həyatın, yenilənmənin və təsəvvürün mənbəyi kimi təsvir olunur.

Rəssam və heykəltaraşlar, multimedia və çoxsahəli sənətçilər su, iqlim dəyişikliyi, davamlılıq və dəniz biomüxtəlifliyi mövzularına müraciət edərək, bədii işləri vasitəsilə dənizlərimizin, okeanlarımızın və ortaq gələcəyimizin qorunmasına çağırış edirlər.





Sonra Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın İran nümayəndə heyətinin rəhbəri, İran İslam Respublikası Prezidentinin qızı Zəhra Pezeşkianla ikitərəfli görüşü olub.

Tədbir çərçivəsində qonaqlar tərəfindən Leyla Əliyevaya hədiyyə təqdim olunub. Həmçinin Leyla Əliyeva da qonaqlara hədiyyələr təqdim edib.

***XQ***

# İlham Əliyev missiyası



**Azərbaycanda müstəqil dövlətçilik uğrunda mübarizə ideyası müxtəlif mərhələlərdən keçərək zaman-zaman inkişaf etmiş, nəhayət, XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin timsalında gerçəkləşdirilmişdir. Xüsusən, Azərbaycan XVIII əsrdə xanlıqlara parçalandıqdan sonra ayrı-ayrılıqda fəaliyyət göstərməklə mövcudluğunu itirmək qorxusu vahid milli dövlət ideyasını qüvvətləndirmişdir. XIX əsrdə çar Rusiyasının Azərbaycanı işğal etməsi ilə, müəyyən müqavimət hərəkatı olsa da, müstəqil dövlətçilik ideyası bir qədər arxa plana keçirilmişdir.**

Nəhayət, Mirzə Fətəli Axundzadənin dram əsərlərinin və Həsən bəy Zərdabinin "Əkinçi" qəzetinin oyatdığı milli-mənəvi özünüdərk prosesləri ilə milli oyanış və azadlıq ideyaları yenidən ziyalı fikrinin gündəminə daxil olmuşdur. Lakin XX əsrin əvvəllərində müstəqil dövlətçiliyin formaları ətrafında fikir müxtəlifliyi olsa da, konfederativ, sosialist, demokratik respublika dövlət quruluşları ideyaları müzakirə mövzusuna çevrilsə də, nəhayət, Azərbaycan Xalq Cümhuriyyətinin timsalında müstəqil demokratik respublika ideyası qalib gəlmişdir. Təəssüf ki, 1917-ci ildə Rusiyadakı sosialist inqilabının qələbəsi ilə bolşevizm ideyası genişlənmiş, özünü fəhlə-kəndli hökuməti adlandıran sosialistlər aşağı kütlənin dəstəyini qazanaraq, XI qızıl ordunun köməyi ilə ölkəmizdə hakimiyyəti zəbt etmişlər. Beləliklə, Azərbaycanda 1920-1991-ci illərdə sovet hakimiyyəti ömür sürə bilmişdir.

XX əsrin yetmişinci illərindən etibarən Azərbaycanda yenidən milli azadlıq və müstəqil dövlətçilik ideyaları meydana çıxmış və tədricən genişlənmişdir. Müstəqil dövlətçilik tarixinin nadir hadisəsi kimi bu dəfə milli ziyalıların dövlət müstəqilliyi uğrunda apardığı mübarizə müxtəlif vasitələrlə sovet Azərbaycanının rəhbəri, görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən dəstəklənmişdir. Daha doğrusu, təcrübəli dövlət xadimi Heydər Əliyev özü də milli azadlıq ideyalarını vətənpərvər ziyalıların mübarizəsinə şərait yaratmaqla həyata keçirmişdir. Məhz Heydər Əliyevin açdığı imkanlar hesabına XX əsrin yetmiş-səksəninci illərində Azərbaycanda vətənpərvərlik hərəkatı geniş miqyas almış, azərbaycançılıq təliminə çevrilmişdir. Ümummilli lider Heydər Əliyevin dövlət rəhbəri kimi həyata keçirdiyi məqsədyönlü tədbirlər, atdığı düşünülmüş addımlar respublikada milli düşüncəni dərinləşdirmiş, vətənpərvərlik ideyalarını azərbaycançılıq hərəkatı səviyyəsinə çatdırmışdır.

Azərbaycan dilinin dövlət dili kimi 1978-ci ildə Sovet Azərbaycanının Konstitusiyasında öz əksini tapması görkəmli dövlət xadimi Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı mühüm xidmətlərindən biridir. Çətin siyasi-ideoloji sistem daxilində milli ideyaların daşıyıcısı olan vətəndaş ziyalıların nəinki fəaliyyətinin dəstəklənməsi, hətta toxunulmazlığının təmin edilməsi işini sovet rəhbərləri arasında yalnız Heydər Əliyev həyata keçirməyi bacarmışdır. Ümummilli ideyaların əsas hərəkətverici vasitəsi olan elm, ədəbiyyat və incəsənətin inkişaf etdirilməsi Heydər Əliyevin azərbaycançılıq konsepsiyasının ana maddələridir. Eyni zamanda, azərbaycançılıq uğrunda mübarizədə millilik anlayışı ilə millətçilik psixologiyasını bir-birindən ayıraraq, lideri olduğu doğma xalqını sağlam vətənpərvərlik və müstəqil dövlətçilik ruhunda istiqamətləndirməsi də Heydər Əliyev dövlətçilik təliminin üstünlüyünün əyani təzahürüdür. Beləliklə, Heydər Əliyev Azərbaycan xalqını hələ sovet hakimiyyəti illərində müstəqil dövlətçilik uğrunda mübarizəyə hazırlamışdır. Milli dövlətçilik şüurunun inkişaf etdirilməsi baxımından keçmiş sovet respublikaları arasında Azərbaycan ən qabaqda olan bir respublika idi. Bir çox müttəfiq respublikalarda millilik deyil, radikal millətçilik baxışları ilə önə çıxmış qüvvələr son nəticədə separatçı adı ilə damğalandıqları halda, Azərbaycanda vətənpərvərlik, milli-mənəvi özünüdərk ideyaları ilə yetişmiş xalq dövlət müstəqilliyi uğrunda mübarizədə birləşə bilmişdir.

SSRİ-nin süqutundan sonra yeni müstəqil dövlətlərin qurulduğu illərdə hansı dövlət quruluşunun seçilməsi nəticəsində yenə də müxtəlif baxışların ideoloqları meydana çıxmış, onlardan hərəsi daxildən və xarici ölkələrdən dəstək tapa bilmişlər. Müstəqilliyin ilk illərində separatçılığın, radikal dinçiliyin, utopik turançılığın ideoloqlarından hərəsinin bir tərəfdən Azərbaycanı bölməyə, müxtəlif qüvvələrin vassalına çevirməyə doğru atdıqları addımların yaratdığı təhlükələr yaxın tarixi keçmişin acınacaqlı səhifələridir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin yenidən siyasi hakimiyyətə gəlməsi ilə ölkəmizi parçalamağa çalışan, dövlət müstəqilliyini itirməyə aparan bütün radikal və separatçı qüvvələrə birdəfəlik son qoyulmuşdur. Ona görə də Azərbaycan xalqı ölkəmizdə bazar iqtisadiyyatına əsaslanan hüquqi-demokratik dövlət quruluşunun bərqərar olması üçün görkəmli dövlət xadimi Heydər Əliyevə əbədi minnətdardır. Ulu öndər 1993-2003-cü illərdə Azərbaycanda müstəqil dövlətin siyasi-hüquqi və iqtisadi-mədəni təməllərini yaratmış, demokratik dövlət quruluşunu müəyyən etmiş, azərbaycançılıq ideologiyasını formalaşdırmışdır. Bütün bunlar Azərbaycanın dövlətçilik tarixinin Heydər Əliyev salnaməsinin pozulmaz səhifələri kimi əbədi yaşayacaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizin tarixində və taleyində, bu günündə və sabahında müstəsna dərəcədə böyük xidmətləri vardır. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, İlham Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə ölkəmizdə siyasi varislik təmin olunmuş və beləliklə, heç bir separatçı qüvvəyə və ya demokratiya adı ilə xalqın və dövlətin üzərində eksperimentlər aparanlara nöqtə boyda olsa da, yer qalmamışdır.

İkincisi, Ulu öndərin Azərbaycan xalqına ünvanladığı tarixi müraciətdə deyildiyi kimi, görkəmli dövlət xadimi Heydər Əliyevin başladığı bütün işlər Prezident İlham Əliyev tərəfindən ən yüksək səviyyədə başa çatdırılmış və tamamlanmışdır. Bu, Azərbaycan xalqına və müstəqil Azərbaycan dövlətinə böyük fayda vermiş, ölkəni inamla irəliyə doğru aparmağa xidmət etmişdir. Böyük sərmayələr yatırılmış Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz layihələri kimi transmilli proqramların uğurla davam etdirilməsi iqtisadi böhrandan yenicə çıxmış ölkəmizi hər hansı bir yeni layihəyə sıfırdan sərmayə qoymaq riskindən xilas etmişdir. Prezident İlham Əliyevin apardığı düşünülmüş siyasi varislik siyasəti xalqımıza və dövlətimizə inkişaf edərək möhkəmlənmək üçün vaxt və maliyyə imkanları qazandırmışdır. Başqa respublikalarda hər gələn yeni iqtidarın özündən əvvəlki rəhbərliyin apardığı işlərin üstündən xətt çəkib, yenidən fəaliyyətə başlamaq oyunları Azərbaycanda keçərli olmamışdır. Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik strategiyası möhkəm və etibarlı bünövrə olaraq qəbul edilmişdir.

Yeni epoxanın yeni lideri İlham Əliyev Heydər Əliyevin müstəqil dövlətçilik təlimini müasir dünyanın yeni çağırışları və ölkədaxili inkişafın özünəməxsus dinamikası əsasında daha da zənginləşdirərək inkişaf etdirmiş, yeni mərhələ səviyyəsinə çatdırmışdır. Bu mənada Prezident İlham Əliyev, sadəcə, davamçı deyildir, əksinə, möhkəm siyasi-ideoloji təməllərə, saslanan möhtəşəm başlanğıcdır. İlham Əliyev özünəqədərki siyasi-tarixi prosesləri tamamlamaqla yeni tarixi dövrə meydan açmışdır. Hətta Prezident İlham Əliyevin siyasətində yeni tarixi dövr anlayışı da müxtəlif mərhələləri əhatə edir. Fikrimizcə, Prezident İlham Əliyevin 2003-cü ildən başlanan yeni tarixi dövr epoxasını ən azı iki mühüm mərhələyə ayırmaq olar. Birinci mərhələ Azərbaycan Respublikasının Qarabağın işğalı altında olduğu illəri əhatə edir. Bu tarixi dövrün öz məqsədləri, idealları və çağırışları vardır. Prezident İlham Əliyev 2003-2020-ci illərdə daha çox qazanılmış atəşkəs fürsətindən ağıllı surətdə istifadə etməklə respublikamızda ordu quruculuğunu bacardıqca inkişaf etdirmiş, iqtisadiyyatın bütün sahələrində ciddi dönüşə nail olmuşdur.

II Qarabağ müharibəsi ərəfəsində Azərbaycanda ordu quruculuğunun inkişaf səviyyəsi dünyanın inkişaf etmiş ordularının səviyyəsinə qaldırılmışdır. Azərbaycan Respublikasının sosialyönlü və hərbi ağırlıqlı formatında qəbul olunan dövlət büdcəsi Ermənistanın büdcəsi ilə müqayisə edilməyəcək qədər bir neçə dəfə artmışdır. Ölkəmizin, sadəcə, hərbi xərclər ayrılmış büdcə vəsaiti Ermənistanın bütün sahələr üzrə büdcəsindən çox olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev beynəlxalq aləmdə də Qarabağ məsələsində ölkəmizin haqlı olduğunu isbat etmişdir. Vaxtilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin keçdiyi "coğrafiya dərsi"nin üzərinə İlham Əliyev "tarix dərsi"ni də əlavə etməklə qəti şəkildə "Qarabağ Azərbaycandır!" devizini bütün dünyada dillər əzbərinə çevirmişdir. Bütün bunlar İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun qələbə qazanacağına böyük inam yaratmışdır. Müzəffər Ali Baş Komandanın ali missiyası ona Ulu öndər tərəfindən əmanət olunmuş müstəqil Azərbaycanın işğal edilmiş torpaqlarını hansı yol ilə olursa olsun, geri qaytarmaq və ölkəmizin ərazi bütövlüyünü təmin etməkdən ibarət idi.

Müzəffər Ali Baş Komandanın Dəmir Yumruğu ətrafında birləşən Azərbaycan xalqı və qəhrəman ordumuz Qarabağ ərazisində ədaləti bərpa etməklə, müharibəni tarixi Zəfərlə başa çatdırmaqla, üzərinə düşən Ali Missiyanın əsas maddəsini yerinə yetirmişdir. Müqəddəs "Ata vəsiyyətini" və Müzəffər Ali Baş Komandan funksiyasını yüksək səviyyədə yerinə yetirən Prezident İlham Əliyevin 1752-ci ildə Pənahəli xanın saldığı tarixi Şuşa şəhərində qaldırdığı üçrəngli Azərbaycan bayrağı Qarabağda Zəfər müjdəsinin rəmzinə çevrilmişdir. İkinci Qarabağ – Vətən müharibəsi Müzəffər Ali Baş Komandanın sərkərdəlik və diplomatiya məharətini bütün dünyaya bəyan etmiş oldu. Ali Baş Komandan olaraq döyüş meydanında və ölkə rəhbəri kimi informasiya cəbhəsində göstərdiyi misilsiz məharət İlham Əliyevi Qalib xalqın Qalib lideri miqyasında bütün dünyaya tanıtmışdır. Son yarım əsrdən artıq bir müddətdə dünyada gedən müharibələrin hələlik heç birinin zəfərlə başa çatmadığını nəzərə alsaq, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan olaraq İlham Əliyev dünya ölkələrinin rəhbərləri arasında ədalətli müharibənin qalibi olaraq dünya rekordu qazanmışdır.

Bundan sonra 2023-cü ilin sentyabr ayında aparılmış bir günlük hərbi əməliyyat nəticəsində torpaqlarımızın bütövlükdə separatçı qüvvələrdən tamamilə təmizlənməsi ilə Azərbaycanın çoxəsrlik tarixi ərzində ilk dəfə olaraq Azərbaycanın ərazi bütövlüyü təmin olunmuşdur. Bu yüksək Ali Missiyanın yerinə yetirilməsi də Müzəffər Ali Komandanın – İlham Əliyevin tarixi zəfəridir. Beləliklə, Prezident İlham Əliyev Azərbaycanın əsas problemi olan Qarabağın işğaldan azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün təmin olunması kimi tarixi missiyaları şərəflə yerinə yetirmişdir. Bu, Azərbaycan xalqı qarşısında misilsiz tarixi xidmətdir. Bu, əslində, sözün böyük mənasında İlham Əliyevin Qarabağda yazdığı Zəfər tarixidir. Hazırda böyük sürətlə davam etdirilən Böyük Qayıdış hərəkatı da Azərbaycanın yeni tarixinin misilsiz hadisəsidir.

Müzəffər Ali Baş Komandan olaraq Qarabağda işğaldan azad etdiyi torpaqlara Prezident İlham Əliyev həyat nəfəsi bəxş edir. Böyük Qayıdış və məskunlaşma hərəkatı da Prezident İlham Əliyevin adı ilə bağlı olan zəfərlərdir. Prezident İlham Əliyev Böyük Qayıdış hərəkatının yaradıcısı və rəhbəri kimi də əsl liderlik nümunəsi göstərməkdə davam edir. Bu ali missiyanı da Azərbaycan Respublikasının Prezidenti uğurla həyata keçirməyin əsl nümunəsini göstərir. Prezident İlham Əliyevin 2025-ci ili Konstitusiya və Suverenlik İli elan etməsinin və uğurla başa vurmasının əsas səbəblərindən biri ölkəmizin ərazi bütövlüyünün artıq təmin olunması ilə əlaqədardır. Bu mənada Konstitusiya və Suverenlik İli Qalib xalqın Qalib lideri İlham Əliyevin apardığı uğurlu siyasətin, qazandığı böyük qələbələrin, həyata keçirdiyi şərəfli missiyaların təntənəsi deməkdir. Prezident İlham Əliyev bu təntənəni, bütövlük duyğusunu doğma xalqına yaşatmaqla xoşbəxt lider missiyasına da imza atmışdır. Nəhayət, 8 avqust 2025-ci il tarixdə Amerika Birləşmiş Ştatlarında, Vaşinqtonda, Ağ Evdə Prezident Donald Trampın şəxsən iştirakı ilə Azərbaycan-Ermənistan münaqişəsinə son qoyulmasının elan olunması, sülh müqaviləsinin müddəalarının paraflanması kimi Ali Missiyanı da Prezident İlham Əliyev Qalib lider olaraq gerçəkləşdirmişdir. Beləliklə, Qarabağın işğaldan azad edilməsindən sonra Prezident İlham Əliyevin fəaliyyətində yeni tarixi dövrün yeni mərhələsi başlanmışdır.

Hazırda Ermənistanla aparılan danışıqlar, atılmaqda davam edən düşünülmüş addımlar Sülh müqaviləsinə imza atmaq missiyasını da İlham Əliyevin həyata keçirəcəyinə tam inam yaradır. Bu fonda Zəngəzur dəhlizinin açılması da əlçatmaz hadisə deyildir. Heç şübhə yoxdur ki, Qarabağda işğala son qoyaraq Zəfər bayrağı ucaldan, ölkəmizin ərazi bütövlüyünü təmin etməklə Azərbaycan bayrağını Azərbaycan Respublikasının bütün ərazisində dalğalandıran İlham Əliyev üzərində üçrəngli bayrağımız sancılmış Azərbaycan qatarını da Zəngəzur dəhlizi ilə Bakıdan – Zəngilana və Naxçıvana, oradan da qardaş Türkiyəyə və Avropaya yola salaraq "yaxşı yol" deyəcəkdir.

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev XXI əsrdə Azərbaycan xalqı üçün və geniş mənada beynəlxalq aləm, dünya xalqları üçün zəruri və faydalı olan bir çox çətin, məsuliyyətli, lakin şərəfli Ali Missiyaları uğurla həyata keçirmişdir.

Prezident İlham Əliyevin 3 noyabr 2025-ci il tarixdə Azərbaycan Milli Elmlər Akademiyasına tarixi səfəri zamanı etdiyi dərinməzmunlu proqram xarakterli nitqində Azərbaycan elminin və Milli Elmlər Akademiyasının, Azərbaycan ziyalılarının qarşısında ölkəmizin inkişaf etdirilməsində elmin dəstəyini daha da qüvvətləndirmək vəzifəsini yerinə yetirmək vəzifəsini qoymuşdur. Müstəqil Azərbaycanın inkişaf etmiş yeni tarixi mərhələsində Azərbaycan dilinin sözün əsl mənasında doğma ana dili və qüdrətli dövlət dili statusunda ucada tutulması Prezidentimizin arzusu, xalqımızın qüruru, ziyalıların, tədqiqatçıların vəzifəsidir. Azərbaycanın yeni tarixini Prezident İlham Əliyevin yaratdığı yeni tarixi reallıqlar əsasında yenidən yazmaq, Qalib xalqın Zəfər tarixini yaratmaq Milli Elmlər Akademiyasının borcu və öhdəliyidir. Süni intellektdən və rəqəmsal hesablamalardan baş çıxarmaq, ölkəmizin kibertəhlükələrdən qorunmasının təmin edilməsinə töhfə vermək hər bir elm adamı üçün müstəqil Azərbaycan dövlətinin ziyalı əsgəri vəzifəsini yerinə yetirmək deməkdir.

Prezident İlham Əliyev yeni tarixi dövrdə lideri olduğu doğma xalqını belə yüksək səviyyədə, bu mərtəbədə görmək üçün hazırlayır və istiqamətləndirir. Bunlar isə Azərbaycanda yaxın dövrün vəzifələri və uzaq gələcəyin hədəfləridir. Dünya liderləri içərisində xüsusi yeri, böyük nüfuzu, ad-sanı olan Prezident İlham Əliyev təkcə öz xalqına yox, bütövlükdə dünyaya sülh, ədalət, zəfər, əməkdaşlıq, həmrəylik bəxş etmək yollarında qətiyyətlə irəliyə doğru addımlayan xoşbəxt liderdir. O, bu gün doğma xalqı ilə bir olmağın, ədalətli dünya ilə həmrəy olmağın xoşbəxtliyini yaşayır. Qarşıda isə Azərbaycan xalqının və bəşəriyyətin daha xoşbəxt gələcəyi naminə yeni tarixi dövrün lideri İlham Əliyevi daha şərəfli və məsuliyyətli missiyalar gözləyir. Bütövlükdə Azərbaycan xalqı, o cümlədən də Azərbaycan ziyalıları, Milli Elmlər Akademiyasının kollektivi Prezident İlham Əliyevin dönmədən, qətiyyətlə həyata keçirdiyi tarixi missiyaların mahiyyətini və əhəmiyyətini dərindən başa düşərək yüksək qiymətləndirir, bu şərəfli yollarda Qalib xalqın Qalib liderinə daha böyük uğurlar arzulayır.

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın prezidenti, akademik***

# Xalqımızı tarixi arzularına qovuşduran Prezident

**Azərbaycanın dövlətçilik tarixi zəngin, ləyaqətli, qürurlu və şərəfli bir tarixdir. Ötən əsrdə iki dəfə müstəqillik əldə etmiş Azərbaycan müxtəlif hadisə və proseslərlə, taleyüklü problemlərlə üzləşsə də, istiqlalını və dövlətini qoruya bilib. Bugünkü reallıq odur ki, bir xalq və dövlət olaraq inkişafın zirvəsinə çatmağa müvəffəq olub, tariximizdə ən qüdrətli məqama çatmışıq. Arxada qalan tarixi faktlar və reallıqlar üzərində araşdırsaq görərik ki, bunu təmin edən əsas - həlledici amil məhz lider fenomenidir.**

Müasir, qüdrətli müstəqil Azərbaycan Heydər Əliyev ideyaları və onun siyasi varisi - layiqli davamçısı olan Prezident İlham Əliyevin siyasəti nəticəsində böyük uğurlara, inkişafa və qələbəyə nail olub. Son iki onilliyin tarixi mənzərəsi, siyasi, iqtisadi reallıqları göstərir ki, Prezident İlham Əliyevin timsalında lider fenomeni Azərbaycanı ən ali məqama yüksəldib, üçrəngli bayrağımızın ən yüksək zirvələrdə dalğalanmasını mümkün edib.

Prezident İlham Əliyev tarixi yaddaşımıza, milli kimliyimizə dönməyimizi təmin edən, bütün şəxsləri və müxtəlif qrupları bir "Dəmir yumruq" altında birləşdirərək, fərd kimi Azərbaycan vətəndaşını, xalq olaraq isə Azərbaycan xalqını dünyaya tanıtdı. Bununla da o, nəinki şəxsiyyət kimi tarixi yaddaşımıza öz möhürünü vurdu, həm də əbədi olaraq xalq sevgisinin dəyişməz ünvanına çevrildi.

Azərbaycan lideri İlham Əliyev şüarlarla deyil, xalqın etimadı ilə hakimiyyətə gəldi. Prezidentlik vəzifəsinin icrasına başladığı zaman müqəddəs bayrağımızı öpərək Azərbaycanın dövlət müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağına, xalqa ləyaqətlə xidmət edəcəyinə and içmiş Prezident öz andına sədaqətini əməlləri ilə sübut etdi. O, nəyi necə etməli olduğumuzu nəzəri ideyalarla yox, şəxsi nümunələri ilə göstərdi.

Dövlət atributlarımızın təbliği, üçrəngli bayrağımıza ümummilli ehtiram əxlaqının formalaşdırılması, dövlətçiliyimizin, milli, mənəvi, əxlaqi dəyərlərimizin qorunması Prezident İlham Əliyev tərəfindən yürüdülən milli siyasətin ən qabarıq istiqamətləri oldu. Azərbaycanın yeni iqtisadi inkişaf və tərəqqi yoluna çıxması, bölgənin ən yüksək iqtisadi potensialına malik olan ölkəsi kimi tanınması, etibarlı tərəfdaş kimi qəbul olunması və sözün əsl mənasında müstəqil dövlət kimi dünya birliyinə uğurlu inteqrasiyası məhz dövlətimizin başçısı İlham Əliyevin prezidentliyi dövründə və onun apardığı uğurlu xarici siyasət nəticəsində reallaşdı.

Şübhəsiz, Azərbaycanın güclü, qüdrətli və nüfuzlu dövlət kimi ardıcıl müvəffəqiyyətlər qazanması, sabitlik adası, inkişaf diyarı kimi strateji hədəflərinə çatması, beynəlxalq münasibətlər sistemində söz sahibinə çevrilməsini təmin edən əsas amil xalqın öz liderinə dəstək verməsi, liderin isə milli mənafelərə adekvat siyasət həyata keçirməsidir. Qətiyyətli lider – müdrik siyasətçi olan Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir".

Son iki onillikdə siyasi sistemi dəyişən sözləri və ifadələri ilk dəfə İlham Əliyevdən eşitdik. Sovet İttifaqının dağılmasından sonra müstəqillik əldə etmiş ölkələrə siyasi-publisistik leksikada "postsovet ölkələri" deyilirdi. Ətalət düşüncəsinin əlaməti kimi istifadə olunan bu ifadə insanları gələcəyə baxmağa yox, sanki sovet keçmişindən ayrılmamağa səsləyirdi. İlk dəfə İlham Əliyev məqsədyönlü şəkildə "postsovet ölkələri" deyimindən imtina etdi, əvəzində "müstəqil ölkə", "suveren dövlət" anlayışlarını dil düşüncəmizin üst qatına çıxardı.

Məram aydındır: ictimai-siyasi təfəkkürdən "postsovet" qalıqları təmizlənməli idi ki, insanlar keçmişdən asılılığa son verib sovet nostalgiyasından birdəfəlik qurtulsunlar və müstəqillik, suverenlik ideyalarına və davranışlarına köklənsinlər. Dövlət başçısının bütün sahələri əhatə edən uğurlu strateji fəaliyyətinin nəticələri ilə əlaqədar digər mühüm məqamlardan biri Azərbaycanın sabitlik adasına və təhlükəsizlik məkanına çevrilməsidir. Nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycandakı təhlükəsizlik mühitini çox yüksək qiymətləndirirlər.

Ölkəmizdə müxtəlif xalqların nümayəndələri sülh, əmin-amanlıq şəraitində mehriban birgəyaşayışa malikdir. Bununla yanaşı, siyasi dialoq prosesi, hakimiyyətlə müxalif partiyalar arasında təmasların yaradılması, fikir mübadilələrinin, müzakirələrin aparılması Azərbaycan Prezidentinin siyasi iradəsini əks etdirir. Bütün bunlar həm də siyasi birliyin və milli həmrəyliyin güclənməsinə əhəmiyyətli töhfələr verir. Biz bu gerçəkliyi Vətən müharibəsi zamanı gördük və hazırda da müşahidə edirik.

"Bu gün beynəlxalq münasibətlərdə "kim güclüdür, o da haqlıdır" prinsipi üstünlük təşkil edir"- fikrini öz çıxışlarında, bəyanatlarında dəfələrlə vurğulayan Prezident İlham Əliyev güclü siyasi iradəsi ilə güclü dövlət konsepsiyasını həyata keçirməklə iqtisadi, siyasi və hərbi güc yaratmağa nail oldu. Bu üç gücün vəhdəti Dağlıq Qarabağ münaqişəsini tarixə qovuşdurdu, bölgədə yeni reallıqlar yaratdı. 2020-ci ilin Vətən müharibəsindəki Qələbə məğrur Azərbaycan xalqının ikili standartlara əsaslanan ədalətsiz qlobal siyasət üzərində tarixi Qələbəsi oldu.

Bu Qələbə xalqımızı bir yumruq kimi birləşdirməyə və monolit gücə çevirməyə nail olmuş Prezident İlham Əliyev siyasətinin ən böyük təntənəsi oldu. Prezident İlham Əliyev bu gücə arxalanaraq 44 günlük müharibə dövründə həm də informasiya cəbhəsində xalqının, ölkəsinin maraqlarını qətiyyətlə müdafiə etdi. Xarici KİV çoxsaylı müsahibələrində praqmatik siyasətçi, hadisələri, prosesləri dəqiq qiymətləndirən, öz mövqeyini təkzibolunmaz arqumentlərlə əsaslandırmağı bacaran lider olduğunu nümayiş etdirdi.

Beləliklə, Prezident İlham Əliyev ata vəsiyyətini şərəflə yerinə yetirdi, xalqına, məcburi köçkünlərə verdiyi sözə sahib çıxdı, güclü Azərbaycan yaradaraq düşməni onunla hesablaşmağa vadar etdi. Azərbaycanın ərazi bütövlüyünü bərpa edən müdrik lider, böyük strateq, qalib sərkərdə kimi adını əbədi olaraq tarixə yazdırdı, 44 günlük Vətən müharibəsinin əsl qəhrəmanına çevrildi. Prezident, Ali Baş Komandan, sərkərdə, siyasi xadim kimi İlham Əliyevin şah əsəri azad Qarabağ, ərazi bütövlüyü təmin olunmuş Azərbaycandır. O, atası Heydər Əliyevin yarımçıq qalan işlərini davam etdirməklə yanaşı, onun vəsiyyətinə əməl edən ən xoşbəxt varisdir.

Tariximizə ən parlaq Qələbəni də o yazdı, torpaqlarımızı işğaldan azad edərək xalqın 30 illik həsrətinə son qoydu. Vətən müharibəsi Azərbaycan Prezidentinin həm də elə ali keyfiyyətlərini üzə çıxardı ki, dünya onu heyrətlə izlədi. Ölkəsinə qazandırdığı qalibiyyət Vətən, yurd, xalq, insan sevgisinin zirvə nöqtəsi idi. O, müharibə dövründə dünyaya təkcə qalib sərkərdə, Müzəffər Ali Baş Komandan, qətiyyətli siyasətçi, adil dövlət başçısı, mahir diplomat kimi görünmədi. Dünya, onu həm də hər zaman xalqını düşünən, onun qayğıları ilə yaşayan nümunəvi lider kimi tanıdı. O, ən həssas dönəmdə xalqının qarşısına çıxdı, ən sevincli xəbəri insanlara özü çatdırdı. O, 30 il torpaq həsrəti ilə yaşayan insanlarımızı yurdları ilə görüşə özü apardı.

Bu gün Prezident İlham Əliyev doğum gününü müdrik dövlət başçısı, bütün dünya azərbaycanlılarının Lideri və Vətənimizin ərazi bütövlüyünü təmin etmiş qalib sərkərdə kimi qeyd edir. Öz xalqının ən müqəddəs arzusunu - Qarabağın işğaldan azad olunmasını həyata keçirən və ölkəmizin ərazi bütövlüyünü təmin edən Prezident İlham Əliyevin adı Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Hər cümləsi xalqın yaddaşında iz buraxan, hər bəyanatı xalqın taleyində böyük dəyişikliklər yaradan prezident sözün əsl mənasında yeni bir Azərbaycan qurur.

Yenilməz, məğlubedilməz, durmadan güclənən və çiçəklənən, vətəndaşlarına qürur və fəxarət yaşadan bir Azərbaycan. Xalqımız hər bir azərbaycanlının Prezidenti olan, milli maraqlara əsaslanan çoxşaxəli fəaliyyəti nəticəsində söz ilə əməlin vəhdətini yaratmış Liderə – dövlət başçısı İlham Əliyevə tam güvənir, onun müstəqil Azərbaycanın gələcək tərəqqisi naminə zamanında qəbul etdiyi qərarların uğurlu icrası sayəsində ölkəmizin inkişafının davam edəcəyinə, xalqımızın firavanlığının və yüksək rifahının daimi olacağına inanır!

Xalq – Lider birliyi, güclü milli həmrəylik isə ölkəmizin bundan sonra da Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edəcəyini əminliklə söyləməyə imkan verir.

***Fəzail İBRAHİMLİ,***
***Milli Məclisin deputatı***

# Siyasətdə İlham Əliyev meyarı

**XX əsrdə xalqımız çoxsaylı siyasi, iqtisadi və sosial təlatümlər yaşadı. Xalq Şərqdə ilk respublika quruculuğu, ilk dəfə qadınlara səs hüququnun verilməsi kimi dünya miqyaslı uğurlar əldə etməklə yanaşı, həm də bolşevik işğalına və milli elitaya qarşı amansız repressiyalara məruz qaldı. İmperiya tərkibində olmasına baxmayaraq 70-ci illərdə Heydər Əliyevin hakimiyyətə gəlişi ilə sovet Azərbaycanı iqtisadi və mədəni inkişaf sahəsində milli intibah dövrünü yaşadı. 1991-ci ildə müstəqilliyimizin bərpa olunması torpaqlarımızın işğal olunması ilə nəticələndi. Yeni tariximizin ən ağır sınaq dövründə xalq yenidən ümidini Heydər Əliyevə bağladı.**



Xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan Heydər Əliyev günbəgün daha böyük itkilər və daha böyük sarsıntılar gətirən müharibəyə son qoymaqla ölkənin tarixi taleyində dönüş yaratdı, qısa bir zamanda ortaya qoyduğu uğurlu enerji strategiyası ilə ölkəmizi yeni bir yola – müstəqil Azərbaycanın şərəfli quruculuq yoluna çıxara bildi. Həmin dövrün hərbi - siyasi təlatümlərindən keçərək bu günün mənzərəsini yaratmaq o zaman mümkünsüz görünürdü. Müstəqil Azərbaycana 10 illik rəhbərliyi dövründə geniş miqyaslı siyasi-iqtisadi islahatları həyata keçirməklə Heydər Əliyev ölkədə iqtisadi tənəzzülə son qoydu, ölkəyə xarici sərmayələrin axını təmin edildi və Azərbaycan özünün yeni inkişaf yoluna qədəm qoydu. Bölgədə yaranmış hərbi-siyasi vəziyyət sabitləşdirildi, ölkəmizin qlobal siyasi və iqtisadi sistemlərə uğurlu inteqrasiyası təmin edildi. Yeni Azərbaycan dövlətinin müstəqilliyini əbədi və sarsılmaz etmək uğrunda son nəfəsinədək göstərdiyi fədakarlıq Heydər Əliyevi xalqın Ümummilli liderinə çevirdi.

2003-cü ildə Azərbaycan xalqı Heydər Əliyev kimi müdrik bir siyasətçinin yolunu davam etdirə biləcək şəxsin yalnız İlham Əliyev olduğuna inanaraq, məhz onu ölkənin prezidenti seçdi. Beləcə Heydər Əliyevin uğurlu dövlət quruculuğu ilə başa çatan XX əsr yeni və müasir Azərbaycanın qurulması ilə başlayan XXI əsrə keçdi. 2003-cü ildən başlayaraq təxminən 22 il ərzində İlham Əliyev tərəfindən aparılan məqsədyönlü siyasət Azərbaycanı bölgənin lider ölkəsinə çevirdi. O zamana qədər davam edən iqtisadi tənəzzül iqtisadi inkişafla əvəz olundu. Dünyanın 50 ən qüdrətli orduları sırasına çıxan Milli Ordu yaradıldı. Azərbaycanın haqlı mövqeyi beynəlxalq təşkilatlarda uğurla müdafiə olundu və nəhayət, 30 ilə yaxın işğal altında qalmış torpaqlarımız məhz onun rəhbərliyi altında azad olundu.

Bəlkə də bu tarixi zəfəri qeyd etməklə İlham Əliyev siyasəti haqqındakı bu yazını yekunlaşdırmaq olardı. Çünki 2020-ci ilin Vətən müharibəsində əldə olunmuş qələbəmiz son 200 il ərzində Azərbaycan xalqının tarixində qazanılmış ən böyük Qələbəmiz idi. Belə bir cahanşümul zəfərin memarı Ali Baş Komandan İlham Əliyev artıq bu qələbə ilə adını dünyanın siyasi-hərbi tarixinə qızıl hərflərlə yazdırmışdı.

Amma xalq onu hələ bu qələbədən də əvvəl sevib və ona dəfələrlə etimad göstərib. Bu isə səbəbsiz deyildi. Ümumxalq sevgisinin mənbəyini və səbəblərini anlamaq üçün İlham Əliyevin ömür yoluna dönə-dönə yenidən baxmaq və siyasətdə heç bir bənzəri olmayan İlham Əliyev üslubunu dərk etmək gərəkir.

Heydər Əliyevin ailəsində yaşanan tələbəlik və gənclik illəri, müstəqilliyimizin dramatik hadisələrlə başlayan ilk illəri və ulu öndər Heydər Əliyevin sınaqlarla dolu 10 illik hakimiyyət dövrü İlham Əliyevi siyasi müdrikliyə yaşından daha tez yetişdirmişdi. O dövlət müstəqilliyimizin təməli qoyulan həmin dövrün sadəcə şahidi deyildi, ən gənc yaşlarından Heydər Əliyev siyasətinin fəal iştirakçısı idi. Topladığı təcrübə və Vətənə xidmət niyyəti onu tarixi siyasi hadisələrin mərkəzinə gətirdi və bu gəliş Azərbaycan xalqının həyatında və dünyagörüşündə böyük dönüş yaratdı.

Son iki onillikdə ölkənin siyasi həyatını və siyasi düşüncə istiqamətini dəyişən sözləri və ifadələri ilk dəfə İlham Əliyev siaysi baxış müstəvisinə gətirdi. Sovet İttifaqının dağılmasından sonra müstəqillik əldə etmiş ölkələrə siyasi-publisistik leksikada "postsovet ölkələri" deyilirdi. Ətalət düşüncəsinin əlaməti kimi istifadə olunan bu ifadə insanları gələcəyə baxmağa yox, sanki sovet keçmişindən ayrılmamağa səsləyirdi. Prezident İlham Əliyev məqsədyönlü şəkildə "postsovet ölkələri" deyimindən imtina etdi, əvəzində "müstəqil ölkə", "suveren dövlət" anlayışlarını dil düşüncəmizin üst qatına çıxardı. Məram aydındır: ictimai-siyasi təfəkkürdən "postsovet" qalıqları təmizlənməli idi ki, insanlar keçmişdən asılılığa son verib sovet nostalgiyasından birdəfəlik qurtulsunlar və müstəqillik, suverenlik ideyalarına və davranışlarına köklənsinlər.

İlham Əliyev 2009-cu ildə iqtisadi sahədə keçid dövrünün başa çatdığını bəyan etdi. Prezidentin bu bəyanatı yeni inkişaf dövrünə başlamağın anonsu idi. Həmin illərdə İlham Əliyevin rəhbərliyi ilə regional inkişaf proqramlarının və infrastruktur layihələrinin uğurla həyata keçirilməsi sayəsində ölkənin iqtisadi tərəqqisi üçün güclü zəmin yaradıldı.

Keçid dövründən sonrakı inkişaf yolumuzun trayektoriyasını da məhz İlham Əliyev müəyyənləşdirdi. Prezident İlham Əliyev dayanıqlı inkişaf, iqtisadi artım və davamlı modernləşmə dövrünün başlandığını və ölkənin çoxşaxəli, dinamik, müasir innovasiyalara əsaslanan iqtisadi inkişaf mərhələsinə qədəm qoyduğunu elan etdi.

İlk dəfə Prezident İlham Əliyev Azərbaycanın Dördüncü Sənaye İnqilabı proseslərinə qoşulması zərurətini elan etdi və dünyanın bu aparıcı tendensiyasında ölkəmizin lider dövlət olmaq məramını bəyan etdi. İlk süni peykimizi də məhz Prezident İlham Əliyev fəzaya göndərdi və Azərbaycanın adını dünyanın kosmik ölkələri sırasına yazdırdı.

Dünyanın hər yerində milyonlarla azərbaycanlının qəlbində işıq yandıran, Azərbaycan Ordusunun şüarına, marşına və zəfər andına çevrilən "Qarabağ Azərbaycandır!" ifadəsi də ilk dəfə İlham Əliyevin dilindən eşidildi. Əlbəttə, bu ifadə ondan əvvəl bəlkə də milyon dəfə səsləndirilmişdi. Amma heç kimin deyimi Qarabağı bu qədər Azərbaycanlaşdıra bilməmişdi. Prezident İlham Əliyev Qarabağın Azərbaycan olduğunu sadəcə demədi, həm də əməli şəkildə sözün əsil mənasında Qarabağı Azərbaycana qaytardı. İlk dəfə o, "Biz - qalib xalqıq!" bəyanatı ilə millətimizin özgüvənini dəfələrlə artırdı.

Hər cümləsi xalqın yaddaşında iz buraxan, hər bəyanatı xalqın taleyində böyük dəyişikliklər yaradan prezident sözün əsl mənasında yeni bir Azərbaycan qurdu: Yenilməz, məğlubedilməz, davamlı olaraq güclənən və çiçəklənən, vətəndaşlarına qürur və fəxarət yaşadan bir Azərbaycan!

Türk dünyasının bütövləşməsi əsrlər boyu çoxsaylı nəzəriyyəçilərin, siyasətçilərin, sərkərdələrin və adları tarixə yazılmış dövlət xadimlərinin ən müqəddəs arzusu olub. Lakin tariximizin bütün dövrlərində türk dünyasını vahid bir ideya ətrafında birləşdirmək heç kimə müyəssər olmayıb. İlham Əliyevin "Ailəmiz türk dünyasıdır" deyimi isə 300 milyonluq türk dünyasını riqqətə gətirdi və türk dünyası çərçivəsində inteqrasiya proseslərinə güclü təkan verdi. Türk xalqlarının min illərlə ürəklərində gəzdirdiyi Turan ideyası nəzəriyyədən praktikaya, şüardan əməli fəaliyyətə çevrildi.

Prezident İlham Əliyev şüarlarla deyil, xalqın etimadı ilə hakimiyyətə gəldi. Prezidentlik vəzifəsinin icrasına başladığı zaman müqəddəs bayrağımızı öpərək Azərbaycanın dövlət müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağına, xalqa ləyaqətlə xidmət edəcəyinə and içmiş Prezident öz andına sədaqətini əməlləri ilə sübut etdi. O, nəyi necə etməli olduğumuzu nəzəri ideyalarla yox, şəxsi nümunələri ilə göstərdi. Dövlət atributlarımızın təbliği, üçrəngli bayrağımıza ümummilli ehtiram əxlaqının formalaşdırılması, dövlətçiliyimizin, milli, mənəvi, əxlaqi dəyərlərimizin qorunması Prezident İlham Əliyev tərəfindən yürüdülən milli siyasətin ən qabarıq istiqamətləri oldu.

Azərbaycanın yeni iqtisadi tərəqqi yoluna çıxması, bölgənin ən yüksək iqtisadi potensialına malik olan ölkəsi kimi tanınması, etibarlı tərəfdaş kimi qəbul olunması və sözün əsl mənasında, müstəqil dövlət kimi dünya birliyinə uğurlu inteqrasiyası məhz İlham Əliyevin prezidentliyi dövründə və onun apardığı uğurlu daxili və xarici siyasət nəticəsində reallığa çevrildi.

2003-2025-ci illərin qaynar ictimai, iqtisadi, siyasi, mədəni həyatı, hər ilin gətirdiyi çoxsaylı yeniliklər, günbəgün dəyişən və güclənən Azərbaycanın müasirləşmə tempi siyasi praqmatizmin, rasional idarəetmənin və məqsədyönlü səmərəli fəaliyyətin qanunauyğun nəticəsidir. Prezident Əliyevin yürütdüyü çoxvektorlu və çoxqatlı siyasət bir sıra fenomenal xüsusiyyətlərin sonda vəhdətə gələn bənzərsiz uzlaşmasını təşkil edir. Böhranların, ziddiyyətlərin, münaqişə və müharibələrin tüğyan etdiyi dünyada gənc milli dövləti xarici təsirlərdən qorumaq, ölkəni tərəqqiyə qovuşdurmaq, iqtisadi potensialı hərəkətə gətirərək inkişafın davamlılığını təmin etmək, ümumdaxili məhsulun həcmini qat-qat artırmaq Prezident İlham Əliyevin ayrı-ayrı istiqamətlərdə apardığı düşünülmüş siyasətin ortaq simbioz nəticəsidir.

Ulu öndər Heydər Əliyevin milli dövlətçilik kursuna, azərbaycançılıq ideologiyasına, türk dünyası ilə bütövləşmə strategiyasına sadiq qalmaqla bərabər, onları yeni keyfiyyətlərlə zənginləşdirən İlham Əliyev bu siyasi kursu heç kimin proqnozlaşdıra bilmədiyi novatorluqla davam etdirdi. O müasir dünyanın siyasi mədəniyyətində öz dəst-xəttini, özünəməxsus "İlham Əliyev üslubunu" yaratdı.

"Sözümüz imzamızdır" kimi məzmunca qısa, mahiyyəti ilə dərin inam və etibar doğuran ifadəni də ilk dəfə siyasi leksikaya gətirən Prezident İlham Əliyev oldu. Beynəlxalq siyasi münasibətlərdə ədalət və konstruktivlik, iqtisadi əməkdaşlıqda rasionallıq və qarşılıqlı fayda, mədəni-humanitar əlaqələrdə səmimiyyət, açıqlıq və bəşərilik prinsiplərinə həmişə sadiq qalan Azərbaycan İlham Əliyevin şəxsində dünya birliyinin etibarlı tərəfdaşına çevrildi.

Nəhayət, müstəqilliyimizin 30-cu ildönümü ərəfəsində etibarlı beynəlxalq dəstəyə, sarsılmaz xalq-iqtidar birliyinə, güclü iqtisadiyyata, vətənpərvər gəncliyə, yenilməz orduya və hərbi qüdrətə, bir sözlə, Vətəni işğaldan azad etməyin bütün resurslarına sahib olan Azərbaycan müstəqillik dövrünün ən böyük sınağına girdi və bu sınaqdan möhtəşəm qələbə ilə çıxdı. Prezident İlham Əliyev öz qətiyyəti və cəsarəti ilə uzun illər ərzində beynəlxalq güc mərkəzləri tərəfindən Azərbaycana qarşı aparılan məkrli planları pozdu, qətiyyətli siyasi iradə, qələbəyə sarsılmaz inam və yenilməz hərbi güclə beynəlxalq ədaləti bərpa etməyin mümkün olduğunu bütün dünyaya sübut etdi və bununla da qlobal siyasətdə yeni reallıqlar yaratdı. 2020-ci ilin Vətən müharibəsindəki Qələbə məğrur Azərbaycan xalqının ikili standartlara əsaslanan ədalətsiz qlobal siyasət üzərində tarixi Qələbəsi oldu.

Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətlər, xalqımıza qazandırdığı əfsanəvi nailiyyətlər, on milyonlarla soydaşımıza yaşatdığı Zəfər qüruru və milli şərəf onu bütün dünya Azərbaycanlılarının sevimlisinə çevirib.

Milyonlarla Azərbaycanlı İlham Əliyevə minnətdarlıq hissi ilə onu təbrik edir və onunla fəxr edir. Ümumxalq məhəbbətinin doğurduğu bu səmimi təbriklərə qoşularaq dövlət başçımızı doğum günü münasibətilə təbrik edir, ona öz doğmaları ilə birlikdə möhkəm can sağlığı və Qüdrətli Azərbaycan naminə apardığı yorulmaz fəaliyyətlərində davamlı uğurlar arzulayıram.

***Cavanşir FEYZİYEV,***
***Milli Məclisin deputatı***

# Azərbaycanın ərazi bütövlüyünü bərpa edən müzəffər Lider

**Azərbaycan xalqı yaşadığı ərazinin qorunub saxlanılması uğrunda əsrlərlə mübarizə aparmış və özünün dövlətçilik tarixini yaratmışdır. Lakin tarixin müxtəlif mərhələlərində ərazimiz böyük dövlətlərin işğalına da məruz qalmışdır.**



XIX əsrin əvvəllərində Azərbaycan ərazisi uğrunda çar Rusiyası və Qacarlar dövləti arasında iki mərhələdə müharibə aparılmış, Azərbaycanın şimal ərazisi çar Rusiyası tərəfindən işğal edilmişdir. 310 min kvadratkilometr ərazisi olan ölkəmizin Azərbaycanın Xalq Cümhuriyyəti dövründə 114 min kvadratkilometr ərazisi qalmışdır.

Sovet Azərbaycanı dövründə isə 30 min kvadratkilometrə qədər ərazi itirilmişdir. Bu ərazilərin böyük bir qismi 1918-ci ilin may ayında yaradılmış Ararat Respublikası (Ermənistan) tərəfindən işğal edilmişdir. Bu proseslər ulu öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətə gələnə qədər bu və ya digər formada davam etmişdir. 1938-ci ildə Azərbaycanın 2 min hektar ərazisinin Ermənistan Respublikasına verilməsi haqqında rəsmi qərar olsa da, Heydər Əliyev 1969-cu ilin iyulunda Azərbaycana rəhbər seçilməsi ilə buna yol verməmişdir. Hətta Moskvanın təzyiqlərinə baxmayaraq, Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan torpaqlarının itirilməsi halları olmamışdır.

XX əsrin 20-ci illərində Ermənistan sovet rəhbərlərinin köməyindən istifadə edərək Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsi üçün ciddi səy göstərmiş, RK(b)P Qafqaz bürosunun köməyinə arxalansa da, Nəriman Nərimanovun qəti mövqeyi sayəsində məqsədlərinə nail ola bilməmişlər. Belə olan halda, ermənilər Qarabağ ərazisində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasına nail olmuşlar.

XX əsrin 80-ci illərinin sonlarına yaxın, 1987-ci ilin oktyabrında ulu öndər Heydər Əliyevin Sovet rəhbərliyindən istefa verməsindən sonra ermənilərin Azərbaycana qarşı ərazi iddiaları artmışdır. Bu işdə onlara dəstək verən SSRİ-nin ali rəhbərliyi olmuşdur. Heydər Əliyevin istefasından sonra ermənilərin torpaq-ərazi iddiaları başlanmışdır. 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində Azərbaycan xalqı ərazi uğrunda mərd-mərdanə, qətiyyətlə mübarizəyə qalxsa da, biz bunu Azərbaycanın o vaxtkı rəhbərliyinin fəaliyyətində görmədik.

Hakimiyyət strukturlarına rəhbərlik edənlərin səriştəsizliyi, milli mövqedən çıxış etməmələri, AXC–Müsavat cütlüyü nümayəndələrinin kreslo davası, ordu quruculuğuna lazımi diqqət yetirməmələri ucbatından nəinki Dağlıq Qarabağ ərazisi, hətta onun ətrafındakı 7 rayon da, hansı ki, bu rayonlarda ermənilər yaşamamışdı – işğal olundu. Soydaşlarımızdan çoxsaylı ölən, yaralanan, qaçqın və məcburi köçkünə çevrilən oldu. Müxalifət cəbhəsində baş verən qarşıdurmalar, orduda birliyin, vahid komandanlığın olmaması ölkəmizi çətin vəziyyətə saldı.

Xalqımız baş verən hadisələrin qarşısının alınmasını ümummilli lider Heydər Əliyevin rəhbərliyə qayıdışında görürdü. Ulu öndər 1993-cü il iyunun 15-də Ali Sovetin Sədri, oktyabrın 3-də isə Azərbaycan Respublikasının Prezidenti seçildi. 1994-cü ilin may ayında atəşkəsə nail olundu. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" imzalandı. 1995-ci ilin noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Dövlət quruculuğu sahəsində, iqtisadi inkişafda uğurlar əldə edilməyə başlanıldı. Heydər Əliyevin Azərbaycana ikinci rəhbərliyi dövründə sabitlik və iqtisadi inkişaf təmin edildi. Ulu öndər rəsmi tədbirlərdə, qaçqın və köçkünlərlə görüşlərində dəfələrlə elan etdi ki, "nəyin bahasına olursa-olsun itirilən torpaqlarımızı geri qaytaracaq, siz öz ata-baba yurdunuza qayıdacaqsınız. Buna heç kimin şübhəsi olmasın".

## Böyük siyasətin uğurlu davamı

2003-cü ilin sonunda İlham Əliyev Azərbaycan rəhbərliyinə gəldi, ölkə Prezidenti seçildi. İlham Əliyev Prezident kimi ilk andiçmə mərasimindəki nitqində bəyan etdi: "Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyondan artıq qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını, nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Prezident İlham Əliyev Heydər Əliyev siyasi kursunu əsas götürərək ölkəni idarə etməyə başladı, qazanılan uğurlara arxalanaraq yeni şəraitdə ölkəni müasirləşdirmək, xalqdan güc almaq, xalqının və dövlətinin maraqlarını mövcud şəraitdə ən yaxşı şəkildə qorumaq, başlıca məqsəd olan torpaqları təcavüzkar Ermənistanın işğalından azad etməkdən ötrü hazırlaşmaq idi.

İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan Respublikasında daxili siyasətdə – dövlət idarəçiliyində, ictimai-siyasi, iqtisadi, mədəni həyatda müstəsna əhəmiyyət daşıyan işlər görüldü. Azərbaycan müasirləşən ölkəyə çevrildi.

Bu illərdə daxili siyasətlə yanaşı, Azərbaycan Respublikası dövlətinin xarici siyasət fəaliyyətində də müstəsna əhəmiyyətli işlər görüldü. Nəticədə, dövlətin beynəlxalq mövqeləri möhkəmləndirildi. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi üçün mübarizədə BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi - 30 aprel 1993-cü il tarixli 822 saylı, 29 iyul 1993-cü il tarixli 853 saylı, 14 oktyabr 1993-cü il tarixli 874 saylı, 11 noyabr 1993-cü il tarixli 884 saylı qətnamələrinə əsaslanırdı. Həmin qətnamələrə görə, Ermənistanın işğal etdiyi Azərbaycan ərazisindən öz hərbi hissələrini qeyd-şərtsiz, tam və dərhal çıxarması tələb olunurdu.

İlham Əliyev hələ Baş nazir olarkən 2003-cü il sentyabrın 24-də BMT Assambleyasında etdiyi nitqində Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrdən danışarkən demişdir: "Təhlükəsizlik Şurasının 4 qətnamə qəbul etməsindən artıq 10 il keçir. Bu qətnamələr erməni işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxmasını tələb edir. Bununla belə, Ermənistan bu qətnamələri saymazlığı ilə beynəlxalq icmaya meydan oxuyur. BMT Təhlükəsizlik Şurası və ATƏT-in Minsk qrupu isə bununla bağlı heç bir adekvat qərar qəbul etmirlər.

Azərbaycan beynəlxalq hüquq normalarına və prinsiplərinə əsasən münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə bildirib. Biz bu yöndə səylərimizi davam etdirməkdə israrlıyıq və beynəlxalq icmanın fəal iştirakına ümid edirik".

## Beynəlxalq qurumlarda inadlı mübarizə

İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti vəzifəsində BMT Baş Assambleyasının 2004-cü ilin sentyabrında keçirilən 59-cu sessiyasında da nitq söyləyərək Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin hələ də yerinə yetirilmədiyini bəyan etdi. Azərbaycan rəhbəri nitqində ATƏT-in Minsk qrupunun fəaliyyətini də kəskin tənqid etdi: "Münaqişənin siyasi yolla həlli prosesi son 12 il ərzində ATƏT-in Minsk qrupu çərçivəsində həyata keçirilmiş, lakin bu günədək heç bir nəticə verməmişdir. Aydın məsələdir ki, BMT Təhlükəsizlik Şurasının, ATƏT və onun Minsk qrupunun problemə hazırkı passiv və biganə yanaşması və beynəlxalq birlik tərəfindən ciddi təzyiqin göstərilmədiyi indiki şəraitdə Ermənistan özünün təcavüzkar və destruktiv mövqeyindən geri çəkilməyəcəkdir".

2004-cü ildən başlayaraq İlham Əliyev təklif edirdi ki, münaqişənin nizama salınması prosesində əsas vasitəçi olan ATƏT-in Minsk qrupu ilə yanaşı, digər beynəlxalq qurumlar – ATƏT-in Parlament Assambleyası, Avropa Şurası və Avropa İttifaqının da fəaliyyəti gücləndirilsin.

Prezident İlham Əliyevin Avropa Şurasının Parlament Assambleyasının sessiyasındakı çıxışı (2004, 29 aprel) böyük əks-sədaya səbəb oldu: "Əlbəttə ki, biz bu vəziyyətlə barışa bilmərik. Azərbaycan heç zaman ərazisinin itirilməsi ilə razılaşmayacaqdır. Məsələnin həllində beynəlxalq hüquq normaları əsas götürülməlidir. Azərbaycan dünyadakı bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşır və özünə də eyni münasibətlə yanaşmağı tələb edir. Bizim ərazi bütövlüyümüz bərpa olunmalıdır. Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş ərazilərindən geri çəkilməlidir".

BMT Baş Məclisinin 29 oktyabr 2004-cü il sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı əlavə maddəni iclasın gündəliyinə daxil etməyi qərara almışdır. Qərar qəbul edildikdə 43 dövlət lehinə, 1 dövlət (Ermənistan) əleyhinə səs vermiş, 99 dövlət bitərəf qalmışdır.

Prezident İlham Əliyevin "Azərbaycan torpaqları işğal altında qalmamalıdır" tələbi artıq müzakirə olunan bir sıra tədbirlərdə açıq-aşkar deyilirdi. Belə ki, ASPA-da "ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə" adlı məruzənin (2005, 25 yanvar) 1416 saylı Qətnamə hissəsində Azərbaycan ərazisinin böyük bir hissəsinin Ermənistan qoşunlarının işğalı altında olduğu, eləcə də Dağlıq Qarabağ regionuna hələ də separatçı qüvvələrin nəzarət etdiyi göstərilirdi. Bununla yanaşı, sənəddə qeyd edilirdi ki, "Avropa Şurasının üzvü olan bir ölkənin başqa ölkənin ərazilərini işğal altında saxlaması həmin ölkənin öz üzərinə götürdüyü öhdəliklərə açıq-aşkar ziddir". Assambleya öz yerlərindən qaçqın düşmüş insanların geri qaytarılması hüququnu bir daha təsdiqləyirdi.

Azərbaycan lideri ATƏT-in Minsk qrupu həmsədrlərinin, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndələrinin, NATO üzvü olan ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə keçirilən Zirvə toplantılarında, bir sıra ölkələrin kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrdə dəfələrlə bildirmişdir ki, Dağlıq Qarabağ Azərbaycanın ərazisidir, eləcə də Azərbaycanın ərazi bütövlüyü BMT və bütün beynəlxalq birlik tərəfindən tanınmışdır. Buna görə də münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Ermənilər bir sıra tədbirlərdə "öz müqəddəratını təyin etmək" prinsipini "ərazi bütövlüyünün bərpası" prinsipini qarşı-qarşıya qoyur və üstünlüyü birinci prinsipə verdilər.

Dövlətimizin başçısı ermənilərin "öz müqəddəratını təyin etmək" hüququna münasibətini dəfələrlə bildirmişdir: "Ermənilər artıq öz müqəddəratını təyin ediblər. İndi isə onlar çalışırlar ki, bu iki prinsipi – ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsiplərini bir-biri ilə ziddiyyətə gətirsinlər. Erməni xalqı öz müqəddəratını artıq təyin edib, Ermənistan dövləti var. Əgər bu baxımdan, bu məntiqdən yanaşsaq, yəni onların məntiqini götürsək, onda dünyada nə qədər erməni dövlətləri yaranmalıdır? Çünki onlar bir çox ölkələrdə yaşayırlar. Əgər Dağlıq Qarabağda digər erməni dövləti yaratsalar, onda sabah onlar istəyəcəklər ki, Gürcüstanda da belə bir dövlət yaransın. Hətta deyim ki, Dağlıq Qarabağda yaşayan ermənilərin sayı Gürcüstanda yaşayan ermənilərin sayından 4 dəfə azdır".

Ermənistanın beynəlxalq hüquqa zidd fəaliyyətlərini Prezident İlham Əliyev 2010-cu ilin sentyabrında Baş Assambleyanın 65-ci sessiyasında etdiyi nitqində bir daha diqqətə çatdırdı.

## Azərbaycanın gücü və nüfuzu

Prezident İlham Əliyevin qətiyyətli mövqeyi, ölkəmizin maraqlarını, ərazi bütövlüyünü israrla müdafiə etməsi öz nəticəsini göstərdi. 2011-ci il oktyabrın 24-də 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi onun dünya miqyasında nüfuzunun əsas göstəricilərindən biri oldu. İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində Azərbaycan 2019-cu ilin oktyabrında 2011-ci ilin may ayında üzvülüyünə qəbul olunduğu, BMT-dən sonra ikinci böyük təşkilat olan Qoşulmama hərəkatının sədrliyini qəbul etdi. Bu hərəkat İkinci Qarabağ müharibəsi dövründə Azərbaycana qarşı beynəlxalq diplomatik dəstəyin təmin edilməsində böyük rola malik oldu. Azərbaycan Respublikası 155 dövlətin səsini alaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi.

Prezident İlham Əliyev beynəlxalq tədbirlərdə Azərbaycanın işğal edilmiş ərazilərinin azad edilməsi, Ermənistanın beynəlxalq hüquqa əməl etməməsi, işğal etdiyi Azərbaycan ərazilərini azad etməməsi, BMT-nin, ATƏT-in Minsk qrupunun tutduğu mövqeləri barədə dəfələrlə çıxış etmiş, haqq işimizi qətiyyətlə müdafiə etmişdir. Azərbaycan və Ermənistan prezidentlərinin 2008-ci il iyunun 6-da Sankt-Peterburq, noyabrın 2-də Moskva, 2009-cu il yanvarın 28-də Sürix görüşlərində aparılan danışıqların heç bir nəticəsi olmamışdır.

## Ərazilərin azad edilməsi zəruriliyi

2010-cu il yanvar ayının 25-də Soçidə keçirilən görüşdə münaqişənin nizama salınması istiqamətində danışıqlar ATƏT-in Minsk qrupu həmsədrlərinin 2009-cu ilin dekabr ayında təklif etdiyi yenilənmiş Madrid prinsipləri əsasında aparılmışdır. Azərbaycan tərəfi prinsip etibarilə verilən təklifi qəbul etsə də, Ermənistan tərəfindən münasibət bildirilməmişdir. Prezident İlham Əliyevin 2010-cu il 7 noyabr çıxışında Azərbaycanın ərazi bütövlüyünün heç vaxt aparılan danışıqların mövzusu olmadığını və bundan sonra da olmayacağını bildirmiş, ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyini bəyan etmişdir.

ATƏT-in Minsk qrupunun həmsədrləri ilə aparılan danışıqlarda bir neçə layihə ortaya çıxmışdı. Bu layihələrin bəziləri Azərbaycanın əleyhinə idi, əgər onlar həyata keçsəydi, ölkəmizin müəyyən əraziləri itiriləcək, Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayonun bəzilərinin ərazi məsələsinin həllində problemlər yaranacaqdır. Həmsədrlər məsələni həll etmək yox, onu yubatmaq və Ermənistanın xeyrinə həll etmək istəyirdilər. Sülh danışıqları uzadılır və heç bir nəticəsi olmurdu.

Prezident İlham Əliyev ölkənin iqtisadi potensialı ilə yanaşı, hərbi imkanlarını artırır, ordu quruculuğuna, onun hərbi potensialının artırılmasına xüsusi diqqət yetirirdi.

## Tarixi missiyaya hazırlıq

Ərazi bütövlüyünün pozulduğu və torpaqlarımızın uzun müddət təcavüzkar işğalı altında olduğu dövrdə Azərbaycan öz dövlət büdcəsinin böyük bir hissəsini hərbi xərclərə yönəltməyə məcbur idi. Dövlətimizin hərbi büdcəsi Milli Ordumuzun ən yeni hərbi texnika, silah-sursat və digər döyüş vasitələri ilə təchiz edilməsinə sərf olunurdu. 2022-ci ildə Azərbaycanın hərbi xərcləri 4,5 milyard dollara çatmışdı. NATO standartlarına uyğun şəkildə təlim keçmiş Milli Orduya malik olan Azərbaycan Cənubi Qafqazda hərbi qüdrətinə görə lider dövlət səviyyəsinə yüksəlmişdi.

Azərbaycan öz ordusunun silah və hərbi texnika ilə təchizat sahəsində xarici dövlətlərdən asılılığı azaltmaq üçün milli hərbi sənaye sahəsini formalaşdırmağa başlamışdır. 2005-ci ildən yaradılan Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yüzlərlə adda hərbi təyinatlı silah-sursat və texnika istehsal edilməyə başlanılmışdı. Azərbaycan region ölkələri arasında öz zirehli texnikasını istehsal edən ilk dövlət idi.

Respublikamız ötən illər ərzində çoxlu sayda döyüş təyyarəsi və helikopterlər, yeni nəsil döyüş texnikası hesab edilən pilotsuz aparatları alaraq çox güclü Hərbi Hava Qüvvələrini formalaşdırdı. Nəticədə Azərbaycan regionda ən güclü hava qüvvələrinə malik olan dövlətə çevrildi. Prezident İlham Əliyev ordunu modenləşdirdi, Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq səviyyədə müdafiə etdi və Qarabağın işğaldan azad olunması üçün iqtisadi gücü reallaşdırdı.

Azərbaycan Ordusunun qələbəsi ilə başa çatan dördgünlük Aprel döyüşləri (2016) hələ o dövrdə ordumuzun hansı gücə malik olduğunu ortaya qoydu. Eyni zamanda, illərlə haqqında "məğlubedilməzlik" mifləri yaradılan Ermənistan ordusunun hərb meydanında biabırçı məğlubiyyətə uğraması işğalçıya Qarabağ torpaqlarından birdəfəlik çıxarılacağının mesajını verdi.

2018-ci ilin mayında Naxçıvanda "Günnüt" əməliyyatı zamanı qəhrəman Azərbaycan Ordusu Naxçıvanın erməni işğalı altında olan bəzi ərazilərini düşməndən azad etdi. May ayının sonlarındakı əməliyyatlar nəticəsində Şərur rayonunun Günnüt kəndi və ətrafındakı yüksəkliklər, ardından da Qunut dağı və Ağbulaq yüksəkliyinin azad edilməsi ilə nəticələndi. İrəvan-Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan verən Qızılqaya dağında və Mehridağında Azərbaycan ordusunun mövqeləri irəli çəkildi, Dərələyəz mahalının Arpa kəndi ordumuzun nəzarəti altına keçdi.

2020-ci ilin iyul ayında Tovuz döyüşlərində Azərbaycan ordusu tərəfindən məğlubiyyətə uğrayan Ermənistan Respublikası öz mənfur niyyətindən əl çəkmədi və sentyabrın 27-də bütün cəbhəboyu ərazidə genişmiqyaslı təxribat törətdi. Həmin gün Azərbaycan ordusu bu təxribata əks-hücum əməliyyatları ilə cavab verdi. Beləliklə, 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək 44 gün davam edən və Azərbaycanın Böyük Qələbəsi ilə başa çatan Vətən müharibəsi başladı.

## Yalnız Qələbə!

Azərbaycan uzun illər münaqişəsinin sülh yolu ilə həllinə, işğal edilmiş torpaqlarımızın azad edilməsinə nail olmaq üçün səylər göstərsə də, Ermənistan ötən müddət ərzində işğalçılıq siyasətindən əl çəkməməsi, son illərdə isə bu ölkənin rəsmilərinin yeni ərazilər tutmaq iddialarını açıq şəkildə dilə gətirmələri, tez-tez təhrikedici açıqlamalar verməlari, 2019-cu ildə baş nazir Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" ifadəsi kimi təxribat xarakterli bəyanatları və addımları danışıqlar prosesinə ciddi zərbə vurdu. Həmin bəyanata cavabda Azərbaycan Prezidenti bildirdi ki, "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi". Bu bəyanat bir il sonra öz təsdiqini tapdı.

30 ilə yaxın müddətdə davam edən səmərəsiz danışıqlardan sonra 2020-ci ildə Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, özünümüdafiə hüququndan istifadə etməyə məcbur oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, hərbi sərkərdəlik qabiliyyəti sayəsində Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm Zəfər dövlətimizin gücünü, qüdrətini dünyaya bir daha göstərdi.

Qısa müddət ərzində düşmən üzərində qazanılmış bu Zəfər nəinki ərazilərimizin otuz illik işğalına son qoydu, həm də son yüz ildə xalqımıza qarşı törədilən etnik təmizləmə, deportasiya və soyqırımı siyasətini birdəfəlik dayandırdı. Əldə olunmuş bu Zəfər ermənilərin və onların havadarlarının regionda həyata keçirdikləri iki yüz illik işğal strategiyasını darmadağın etdi. 44 günlük Vətən müharibəsi Azərbaycanın siyasi, iqtisadi, diplomatik və hərbi qüdrətini, həmçinin xalqımızın milli birliyini və sarsılmaz iradəsini dünyaya nümayiş etdirdi.

2023-cü ilin 19-20 sentyabrında lokal antiterror tədbirləri ilə dövlətimiz öz suverenliyini tam təmin etdi. Azərbaycan Qarabağ bölgəsində 15 min nəfərdən artıq qanunsuz Ermənistan silahlı qüvvələrinin qalıqları və hərbi xuntanın silahlı birləşmələri suverenliyimiz üçün böyük təhdid idi. Həm də Qarabağ bölgəsində tikinti-quruculuq və abadlıq işləri, Böyük Qayıdış proqramının və irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində onlar başlıca maneə idi.

Ermənistan və qanunsuz hərbi xunta Qarabağdakı erməni əhalisinin Azərbaycan cəmiyyətinə reinteqrasiya olunmasına mane olurdu. Azərbaycan qanunlarına zidd olaraq bölgədə "prezident seçkiləri" keçirilirdi. Ərazilərimizə minalar basdırılır və mühəndis-istehkam qurğularının qurulmasına cəhd göstərirdilər. Azərbaycanın Qarabağdakı erməni əhalisinə humanitar yardımını qəbul etmir, xarici ölkələrdən guya "humanitar yardım"lar qəbul etməyə cəhd göstərirdilər və s. Bütün bunlar Azərbaycan ordusu tərəfindən 23 saat müddətində lokal xarakterli antiterror əməliyyatı keçirməyə səbəb oldu.

Nəticədə, müzəffər ordumuz tərəfindən 21 yaşayış məntəqəsi, o cümlədən 3 qəsəbə düşməndən azad edildi. Lokal antiterror tədbirləri nəticəsində erməni silahlı birləşmələri sentyabrın 20-də təslim oldu. 2023-cü il sentyabrın 28-də Xankəndidəki cinayətkar hərbi xunta "Dağlıq Qarabağ Respublikası" adlandırılan qondarma qurumun buraxıldığını elan etdi. Beləliklə, Azərbaycan Respublikası Qarabağ bölgəsində konstitusiya quruluşunu və suverenliyini tamamilə bərpa etdi.

Bu tarixi Zəfərin əsas qəhrəmanı Prezident İlham Əliyevdir. Dövlət başçısı Vətən müharibəsi dövründə bütün təzyiqlərə mətanətlə sinə gərərək Azərbaycanın haqlı mövqeyini qətiyyətlə müdafiə etdi. Həsrətində olduğumuz torpaqlarımız azad olundu, ərazi bütövlüyümüz bərpa edildi. Bu, Azərbaycan tarixinə qızıl hərflərlə yazılan Qələbədir! Bu, bizim qəhrəman, igid əsgər və zabitlərimizin, Ali Baş Komandan, Prezident İlham Əliyevin siyasi qətiyyəti nəticəsində əldə edildi.

Beləliklə, ümummilli lider Heydər Əliyevin ideya və əməllərinin sadiq və qətiyyətli davamçısı İlham Əliyevin adı çoxəsrlik dövlətçilik tariximizdə ən çətin siyasi problemi həll etmiş lider, ən böyük hərbi qələbəni qazanmış sərkərdə kimi yazıldı. Xalqımız bir əsrdə 2 dəfə bərpa edilmiş müstəqil dövlətimizin ərazi bütövlüyünü təmin etmiş müzəffər lideri ilə fəxr edir və onun bütün çağırışlarını yüksək səfərbərliklə cavablandırır.

***İsmayıl HACIYEV,***
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***




# Tarixi seçimin müzəffər davamı

**Hər bir xalqın, hər bir dövlətin tarixində onun sonrakı inkişaf və müstəqillik yolunu müəyyənləşdirən taleyüklü məqamlar, tarixi qərarlar olmuşdur. Xalqımız 2003-cü ildə - yeni əsrin və yeni minilliyin başlanğıcında İlham Əliyev timsalında tarixi seçim edərək Heydər Əliyev siyasətinə dəstək verəndə də eyni müdrikliyi, əzmi və qətiyyəti nümayiş etdirmiş oldu.**

Ali kürsüdə ilk gündən cənab Prezident İlham Əliyev bəyan etmişdir ki, Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıca şərt ölkədə Heydər Əliyevin siyasətinin davam etdirilməsidir. Prezident İlham Əliyev Azərbaycan tarixinə yeni missiya ilə qədəm qoydu. Bu missiyanın fəlsəfəsi daha əvvəl "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyərək ictimai fəaliyyətə başlayan cənab İlham Əliyevin hələ 2003-cü ildə söylədiyi "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam, hər bir Azərbaycan vətəndaşının qayğı və problemlərinin həlli yolunda bütün bacarıq və qabiliyyətimi əsirgəməyəcəyəm", – fikirləri ilə real məzmun kəsb etməyə başladı. Cənab İlham Əliyevin şəxsiyyətinin etdirdi. Təbii ki, bu tarixi Zəfərin əsas qəhrəmanı Prezident İlham Əliyevdir. Dövlətimizin başçısı Vətən müharibəsi dövründə bütün təzyiqlərə mətanətlə sinə gərərək Azərbaycanın haqlı mövqeyini qətiyyətlə müdafiə etdi. Nəticədə ölkəmiz BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı dörd qətnaməsini özü icra etdi. Ötən ilin sentyabrında isə qəhrəman Ordumuzun 23 saatlıq antiterror əməliyyatı nəticəsində Qarabağda qondarma rejim özünü buraxdığını elan etdi və bununla da dövlətimiz öz suverenliyini tam təmin etdi.

Bu tarixi zəfəri ilə Prezident İlham Əliyev öz adını müzəffər sərkərdə olaraq təkcə mənsub olduğu ölkənin deyil, əslində, dünyanın hərb tarixinə əbədi olaraq



böyüklüyü həm də ondadır ki, O, xalqı milli amallar və məqsədlər naminə öz ətrafında böyük ustalıqla birləşdirə bilmişdir. Ötən illər ərzində ölkəmizdə mövcud olan ictimai-siyasi sabitlik və vətəndaş həmrəyliyinin əsasında da bu inam dayanır. Sarsılmaz birlik, xalqın öz liderinə sonsuz inamı, liderin isə öz xalqına arxalanması Azərbaycanın qazandığı bütün uğurların dayaq nöqtəsini təşkil etmişdir. "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" – Möhtərəm Prezident İlham Əliyevin dilindən dəfələrlə səslənən bu fikir ölkəmizdə həyata keçirilən sosial siyasətin mahiyyətini çox dəqiq ifadə edir. Azərbaycanda görülən bütün işlər, əldə olunan nailiyyətlər ölkə vətəndaşları, onların ali mənafeyi üçündür. Azərbaycan xalqı əmindir ki, cənab İlham Əliyevin Prezident kimi fəaliyyətinin qayəsini "xalqa ləyaqətlə xidmət etmək" prinsipi təşkil edir.

Prezident İlham Əliyevin 22 illik fəaliyyətinin zirvəsini Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması təşkil edir. Bütövlükdə, 44 günlük Vətən müharibəsi Azərbaycanın siyasi, iqtisadi, diplomatik və hərbi qüdrətini, həmçinin xalqımızın milli birliyini və sarsılmaz iradəsini bütün dünyaya nümayiş həkk etdi. Bu tarixi qalibiyyətin nəticəsində ordumuzun yenilməzliyi, qüdrəti və vətənpərvərliyi sözdə deyil, qanlı döyüş meydanlarında sübuta yetirildi. Xalq olaraq qəddimiz düz, başımız uca oldu. Qürurumuz özümüzə qaytarıldı. Birləşdik. Bütövləşdik. Ən qatı əleyhdarlarımız belə bu həqiqəti etiraf etmək məcburiyyətində qaldılar. Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin parlaq strategiyasının bəhrəsidir. Strategiyanın mahiyyəti güclü iqtisadiyyata, uğurlu diplomatiyaya, döyüşə hazır orduya malik ölkə yaratmaqdan ibarətdir. Gözlərimizin önündə belə bir ölkə yaranır. Hamımız bu tarixi hadisənin canlı şahidləriyik. Azərbaycanın gələcəyi, şübhəsiz ki, İlham Əliyevin əzmi, rəhbərliyi və müdrik siyasəti ilə davam edəcəkdir. Bu gün Azərbaycan möhtərəm Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ən uca zirvələri fəth edir. Azərbaycan xalqı xoşbəxtdir ki, onun cənab İlham Əliyev kimi görkəmli dövlət xadimi, qüdrətli, güclü, dünyada böyük nüfuza və hörmətə malik milli Lideri var.

***Tənzilə RÜSTƏMXANLI,***
***Milli Məclisin deputatı***

# Qətiyyətdən Qələbəyə

## *Bioqrafiya davam edir…*

**"Qələbəyə hamı sahib çıxır, amma məğlubiyyət həmişə yetim olur".**

ABŞ-ın 35-ci prezidenti Con Kennedinin Kubaya uğursuz desant çıxarılması ilə bağlı söylədiyi nitqdən sonra geniş yayılan, amma əslində qədim Roma tarixçisi Tasitə aid olan bu fikir təkcə siyasi məntiqlə deyil, insan təbiətinin psixoloji həqiqəti ilə bağlıdır.

Bu, bəşər psixologiyasının dəyişməz qanunudur: uğur bölünür, məsuliyyət isə təklənir. Zaman dəyişir, dövrlər bir-birini əvəz edir, texnologiyalar təzələnir, amma bu instinkt eyni qalır.

2020-ci il Azərbaycan tarixinə məhz bu həqiqəti təsdiqləyən bir dönəm kimi daxil oldu. Qələbənin arxasında bir xalq dayanırdı, lakin həmin qələbəyə aparan yolun qərarını və məsuliyyətini Prezident İlham Əliyev tək daşıyırdı. Bu mübarizə Azərbaycan xalqının zəfəri ilə bitəndən sonra da davam etdi.

2020-ci ilin payızı İlham Əliyevin liderlik modelini tarix səhnəsinə çıxardı. Dünyanın böyük gücləri, beynəlxalq təzyiqlər, diplomatik çağırışlar qarşısında o, bütün riskləri öz üzərinə götürdü. Bu, rasional qərar olmaqla yanaşı, tarixi instinkt idi. O bilirdi ki, bu fürsət bir daha gəlməyə bilər. Və o uzaqgörən qərar Azərbaycanın tarixini dəyişdi. Çünki nəyi nə vaxt etməli olduğunu o yaxşı bilir!

2020-ci ilin Vətən müharibəsi — təkcə hərbi əməliyyatlar toplusu deyildi. Bu, bir xalqın psixoloji dönüş nöqtəsi idi. O dövrdə dünyanın ən nüfuzlu dövlətləri Azərbaycanın hər addımını izləyir, müxtəlif təzyiqlərlə prosesə müdaxilə etməyə çalışırdılar. Lakin İlham Əliyev riskin məğzini anlayan lider idi. O bilirdi ki, bəzən tarix lideri sınağa çəkir və bu sınaqda tərəddüd məğlubiyyətə bərabərdir. Bu risk onun üçün təkcə siyasi məsələ deyildi — bu, milli yaddaşın dirçəlişi idi. O, diplomatik təzyiqlərin, saxta humanizm çağırışlarının içindən keçərək qərarlarını dəyişmədi. Hərbi əməliyyatların gedişində dünya mətbuatı onun qarşısında cəmlənəndə, İlham Əliyev yalnız suallara cavab vermirdi, ona təzyiq göstərənlərə də misilsiz ustad dərsi keçirdi. Sual verən jurnalistlər sadəcə bir dövlət başçısı ilə deyil, tarix yazan şəxsiyyətlə üz-üzə olduqlarını hiss edirdilər. Həmin vaxt İlham Əliyevin hər cavabında analitik düşüncə, siyasi uzaqgörənlik, təmkin və intellektual güc vardı. O, təkcə hərbi güclə yox, həm də arqumentlərlə qalib gəlirdi. Jurnalist sual verirdi, o, faktla, hüquqi əsasla cavablandırırdı. Bu, təkcə siyasət deyil, düşüncə üstünlüyü idi.

Zəfərimizdən sonra çoxları bu qələbəni "paylaşmaq" istədi. Qələbəyə hamı sahiblənmək istəyir — bu, insan təbiətidir. Amma o günlərdə bu qələbəyə doğru götürən missiyanın ağrısını, məsuliyyətini, hər addımının yükünü daşıyan tək İlham Əliyev idi. O, təkcə ordunun Ali Baş Komandanı deyildi — xalqın inamının, səbrinin, ümidinin komandanı idi.

Məhz onun qətiyyətli və bütün riskləri nəzərə alaraq addım atmasından sonra vaxtilə ona müxtəlif yollarla, fərqli üsullarla təsir göstərməyə çalışan dünya liderlərinin gözü önündə beynəlxalq güc mərkəzlərinin hesablaşdığı, amma eyni zamanda, təəccüb və heyranlıqla izlədiyi lider obrazı formalaşdı. Çünki o, balansı ustalıqla qoruya bilirdi: qərarları həm cəsarətli, həm ölçülü; ritorikası həm milli, həm universal; baxış bucağı həm strateji, həm də insani idi.

O, hadisələri idarə etmir, onları qabaqlayır; gedişatın içində deyil, fövqündə dayanır.

İlham Əliyevin liderlik xarizmasında bir xalqın minillik mədəniyyətinin əksi toplanıb: Qobustanın daş yazılarından tutmuş Şuşanın bərpa olunan küçələrinə qədər.

Ali Baş Komandanın rəhbərliyi ilə Qarabağın azad olunması sadəcə coğrafi deyil, mənəvi sərhədlərin, tarixi ədalətsizliyin də bərpası idi.

Zəfər yalnız silahla qazanılmır, həm də inam, iradə, ağılla əldə olunur. Prezident İlham Əliyevin qələbə konsepsiyası məhz bu üç amilə söykənirdi. O bilirdi ki, müharibə təkcə silahların deyil, beyinlərin və uzun illərin stereotiplərinin toqquşmasıdır.

İlham Əliyev həm də neçə illik məğlubiyyət stereotiplərini sındırmağı bacardı. Onun rəhbərliyi ilə müharibə dövründə hər addım həm hərbi, həm diplomatik, həm də informasiya müstəvisində hesablanmışdı.

Ali Baş Komandan bir tərəfdən cəbhədə əməliyyatlara şəxsən nəzarət və idarə edir, digər tərəfdən dünya liderləri ilə danışıqlar aparır, üçüncü tərəfdən isə beynəlxalq ictimaiyyətin fikrini dəyişirdi. Bu, çoxqatlı və sistemli liderliyin ən parlaq nümunəsidir.

Vətən müharibəsindən sonra beynəlxalq münasibətlər sistemində də yeni reallıq yarandı. Əvvəllər Azərbaycanın ucaltdığı haqq səsini "eşitməyən", bunu "kiçik regional məsələ" kimi görən dövlətlər artıq bu ölkə ilə hesablaşmalı oldular.

İlham Əliyev artıq sadəcə regionun lideri deyil, yeni dünya düzənində söz sahibi olan nəhəng siyasətçidir. Onunla görüşmək, əməkdaşlıq etmək, eyni masa arxasına oturmaq indi beynəlxalq strateji



dəyər sayılır. Bu da onu göstərir ki, Azərbaycan öz lideri vasitəsilə qələbəsini təkcə torpaq üzərində yox, siyasi məkanda da qazandı.

Qələbədən sonra dünya liderlərinin, beynəlxalq təşkilatların, regional güclərin onunla münasibətlərini dəyişməsi təsadüfi deyil – bu, qalibin qarşısında yaranan təbii hörmətdir.

44 gün ərzində İlham Əliyevin hər çıxışı xalqın ruhuna bir istiqamət kimi hopurdu. "Biz haqq yolundayıq, biz qalib gələcəyik" – bu, sadəcə bir bəyanat deyildi; bu, milli ruhun ritmini tənzimləyən psixoloji kod idi. Hər kəlməsində ölçü, hər fikrində strateji məqsəd, hər duruşunda inam vardı.

İlham Əliyevin liderlik xarizması daxili tükənməz enerjidən qaynaqlanır. O, güvən hissi yaradır, bu güvən təkcə xalqda deyil, beynəlxalq münasibətlərdə də psixoloji sabitlik effekti doğurur.

Müharibənin gedişində İlham Əliyev təkcə Ali Baş Komandan deyil, həm də milli ruhun rejissoru idi. Cəbhə ilə xalq arasında görünməz psixoloji körpü yaradırdı. Onun hər cümləsi həm taktiki siqnal, həm də strateji mesaj idi.

Zəfərdən sonrakı hər çıxışı ilə İlham Əliyev qələbəyə əxlaqi ölçü qazandırdı. O, dövlət idarəçiliyinə bir mühəndis dəqiqliyi ilə, xalqın taleyinə isə mənəvi borc hissi ilə yanaşır. Bu, ağıl, duyğu, intellekt, dünyagörüşü və xarizmanın elə bir tarazlığıdır ki, dünyada nadir liderdə rast gəlinər.

Zəfərdən sonra İlham Əliyevin beynəlxalq imici yeni mərhələyə qədəm qoydu. Əvvəllər regionda balanslı siyasətçi kimi tanınan lider indi qalib dövlət başçısı, müstəqil siyasi məktəbin müəllifi kimi qəbul edilir. Azərbaycan artıq təkcə enerji resursları ilə deyil, siyasi ağılı və nəticə modeli ilə tanınır. Bu modelin mərkəzində İlham Əliyevin təfəkkür sistemi dayanır – prinsipiallıq, milli marağa sədaqət və diplomatik çeviklik. O, qalib olmasına baxmayaraq, qlobal diplomatiyanın diktə üslubunu deyil, qarşılıqlı hörmət dilini seçdi. Dünya nizamının dəyişkənliyində o, milli sabitlik modeli yaratdı.

Bu gün onun adı yalnız bir dövlətin rəhbərini deyil, bir epoxanı təmsil edir. O, xalqın qorxuya çevrilmiş inamsızlığını "mümkündür" inamına çevirdi.

Bu, hərbi-siyasi zəfərlə yanaşı, həm də psixoloji qələbə idi.

Liderlik onun üçün ambisiya deyil, xidmət formasıdır. Dövlətçilik onun xarakterinin anatomiyasına hopub.

İlham Əliyev təkcə torpaqları azad edən komandan deyil, həm də bir milləti məğlubiyyət psixologiyasından qurtaran liderdir.

Bu gün Azərbaycanın özünü qalib xalq kimi hiss etməsi duyğusunun müəllifi İlham Əliyevdir.

Onun liderliyi nə Qərb tipli texnokratik praqmatizmdir, nə də Şərq tipli emosional romantizm. Bu liderlik – Azərbaycan tipli modernizmdir: milli dəyərlərlə beynəlxalq baxışın birləşdiyi unikal bir modeldir.

Bu məqamda ulu öndər Heydər Əliyevi dərin minnətdarlıq hissi ilə yad etmək yerinə düşər. 2005-cı ildə Moskvada məşhur "Görkəmli adamların həyatı" ("JZL") seriyasında nəşr edilən "Heydər Əliyev" kitabımdakı "Son borc, son xidmət" fəslindən bəzi fikirləri xatırlatmaq istərdim. İlham Əliyevi yüksək intellektual, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyət kimi səciyyələndirən Ulu öndər Heydər Əliyev xalqa xitabən inamla bildirmişdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bu sözlər zamanın sınağından keçdi. Bu gün həmin inamın doğrulduğu, uzaqgörənliyin reallığa çevrildiyi bir dövrdə yaşayırıq. İlham Əliyevin uğurlarında, Azərbaycanın bugünkü gücündə, qələbənin parıltısında Heydər Əliyevin uzaqgörən zəkasının izi var. Bu, dövlətçilik məktəbinin iki mərhələsi, düşüncənin və iradənin təbii varisliyidir. Heydər Əliyevə ürəkdən minnətdarıq, çünki o, həm bu dövləti yaratdı, həm də onun gələcəyini etibarlı əllərə əmanət etdi. İlham Əliyev isə həmin etimadı şərəflə doğruldaraq, Azərbaycanın müasir tarixini möhtəşəm Zəfərlə tamamladı.

Hazırkı güclü, müstəqil, qalib Azərbaycan Heydər Əliyevin uzaqgörənliyinin və İlham Əliyevin liderliyinin birgə əsəridir.

Heydər Əliyevin yaratdığı dövlətçilik konsepsiyası İlham Əliyevin idarəçilik fəlsəfəsində yeni reallıq və dinamika qazandı. Bu, sadəcə, siyasi ardıcıllıq deyil, ideyanın zaman içində yetkinləşməsi, dövlətçilik düşüncəsinin nəsillər arasında keçididir.

Uzun illər əvvəl bayaq adını çəkdiyim "JZL" seriyasında - 2007-ci ildə həm də "Bioqrafiya davam edir: İlham Əliyev" kitabım da nəşr edilmişdi. Üzərindən 20 ilə yaxın tarix keçib. "Bioqrafiya davam edir" ifadəsi bu mənada yalnız bir ad deyil — bir dövlətin tarix fəlsəfəsidir. Çünki bu bioqrafiya bir şəxsin yox, bütöv bir xalqın iradəsinin, qələbəsinin və yenilənən milli kimliyinin hekayəsidir.

Heydər Əliyev dövlətin başlanğıcını yazdı, İlham Əliyev isə o başlanğıcı qalibiyyətlə yekunlaşdırdı və yeni mərhələyə daşıdı.

Onun dövrü müstəqilliyin qorunmasının və möhkəmlənməsinin dönəmidir; dövlətin qalibiyyət fəlsəfəsinə çevrilməsinin mərhələsidir.

Mən hazırda həmin kitabın düzəlişlər və əlavələr edilmiş yenilənmiş nəşri üzərində işləyirəm. Həmin kitabda Prezident İlham Əliyevin illər ərzində həyata keçirdiyi cahanşümul işlər yazıçı təxəyyülü və salnaməçi sədaqəti ilə birləşərək öz əksini tapacaq.

Əminəm ki, bu yeni kitab həm Ulu öndərin uzaqgörənliyinin təntənəsi, həm də müasir Azərbaycanın lideri İlham Əliyev ilə birgə böyüyən tarixi, siyasi bioqrafiyası olacaq. Bioqrafiya davam edir…

***Hüseynbala MİRƏLƏMOV***

# Güclü lider – güclü dövlət: müasir Azərbaycan modeli

*Milli iradə, siyasi varislik və Zəfərə aparan strateji yol*

**Müasir dövrdə liderlik anlayışı təkcə siyasi və inzibati idarəetmə bacarığı ilə məhdudlaşmır: liderlik milli iradəni formalaşdıran, cəmiyyətin inkişaf trayektoriyasını müəyyən edən, tarixi məsuliyyəti öz üzərinə götürə bilən strateji düşüncə modelidir. Xüsusilə mürəkkəb geosiyasi mühitdə yerləşən dövlətlər üçün liderlik məsələsi həyati əhəmiyyət daşıyır.**

Tarixi təcrübə göstərir ki, güclü liderlik olmayan cəmiyyətlərdə institusional zəiflik, sosial parçalanma və xarici təsirlərə açıq mühit formalaşır. Əksinə, milli maraqlara söykənən, legitim ictimai dayaqlara malik liderlik modeli dövlətçilik ənənələrini möhkəmləndirir, hüquqi və siyasi institutların davamlı inkişafını təmin edir. Bu mənada, liderlik yalnız hakimiyyət funksiyası deyil, həm də cəmiyyətlə dövlət arasında etimada əsaslanan qarşılıqlı məsuliyyət mexanizmidir.

Əminliklə deyə bilərik ki, ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin ideoloji və institusional əsaslarını yaradan, milli özünüdərk prosesini real siyasi praktikaya çevirən nadir tarixi şəxsiyyətlərdəndir. Onun rəhbərliyi dövründə formalaşan azərbaycançılıq ideologiyası etnik və mədəni çərçivələri aşaraq, bütün vətəndaşları bir amal ətrafında birləşdirən ümummilli platformaya çevrilmişdir. Bu ideologiyanın əsas gücü xalqla dövlət arasında sarsılmaz mənəvi bağ yaratmasında, milli birliyi və həmrəyliyi təmin etməsində idi. Məhz bu strateji baxış sayəsində Azərbaycan ən mürəkkəb tarixi sınaqlardan keçərək dövlət müstəqilliyini qoruyub saxlamışdır.

Milli liderlik zirvəsinə yüksəlmiş şəxsiyyətlərin taleyi ilə təmsil etdikləri xalqın tarixi arasında dərin və üzvi bağlılıq olur. Tarixin müxtəlif mərhələlərində xalqların siyasi iradəsini formalaşdıran, onların gələcək yolunu müəyyən edən məhz bu cür liderlər olmuşlar. Bu gün əminliklə deyə bilərik ki, ümummilli lider Heydər Əliyevin fəaliyyəti və siyasi iradəsi ilə formalaşmış dövlətçilik təfəkkürü yeni əsrdə onun layiqli davamçısı Prezident İlham Əliyevin liderliyi ilə yeni məzmun və miqyas qazanmışdır.

2003-cü ildə bu siyasi irsin layiqli davamı kimi Prezident İlham Əliyevin hakimiyyətə gəlməsi Azərbaycanın inkişaf tarixində keyfiyyətcə yeni mərhələnin başlanğıcı olmuşdur. Bu mərhələ yalnız siyasi varisliklə məhdudlaşmır; söhbət Ümummilli lider tərəfindən müəyyənləşdirilmiş strateji xəttin yeni dövrün reallıqları fonunda daha çevik, praqmatik və genişmiqyaslı şəkildə həyata keçirilməsindən gedir. Prezident İlham Əliyevin liderlik modeli tarixi təcrübə ilə müasir çağırışların sintezini təşkil edir və milli maraqları qlobal proseslərlə uzlaşdıran müasir dövlət idarəçiliyi nümunəsidir.

"Güclü dövlət – müstəqil siyasət" prinsipi Prezident İlham Əliyevin fəaliyyətinin ideoloji əsasını təşkil edir. Bu prinsip Azərbaycanda sadəcə siyasi şüar kimi deyil, konkret iqtisadi, siyasi, hərbi və institusional məzmunla doldurulmuş strateji kurs kimi reallaşdırılıb. Son 22 ildə həyata keçirilən ardıcıl islahatlar nəticəsində dövlət institutları möhkəmləndirilmiş, iqtisadi müstəqillik təmin edilmiş, sosial rifah əhəmiyyətli dərəcədə yüksəldilmişdir. Azərbaycan qısa müddətdə sürətli iqtisadi inkişaf yolu keçərək regional və qlobal miqyasda etibarlı tərəfdaş statusu qazanmışdır.

Enerji və nəqliyyat sahəsində həyata keçirilən qlobal layihələr də bu siyasətin ən parlaq nəticələrindəndir. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, TANAP, TAP, Bakı–Tbilisi–Qars kimi strateji layihələr ölkəmizin iqtisadi imkanlarını genişləndirməklə yanaşı, onun geosiyasi çəkisini də əhəmiyyətli dərəcədə artırmışdır. Azərbaycan bu gün Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan, sözünə və öhdəliyinə sadiq ölkə kimi tanınır.

Prezident İlham Əliyevin liderlik keyfiyyətlərini səciyyələndirən əsas amillərdən biri də böhranlı və ekstremal situasiyalarda qətiyyətli qərarlar qəbul etmək bacarığıdır. Dövlət başçısı humanist və sosialyönümlü siyasət yürütməklə yanaşı, dövlətin və xalqın taleyi naminə lazım gəldikdə qətiyyətli və prinsipial mövqe də nümayiş etdirmişdir. 2003 və 2005-ci illərdə ölkədə ictimai-siyasi sabitliyi pozmağa yönəlmiş cəhdlərin qarşısının alınması məhz bu qətiyyətli liderliyin nəticəsi olmuş, Azərbaycan xaos və qarşıdurma ssenarilərindən xilas edilmişdir.

İnsan amili Prezident İlham Əliyevin idarəçilik fəlsəfəsində mərkəzi yer tutur. Regionların sosial-iqtisadi inkişafı, infrastruktur layihələrinin icrası, ucqar yaşayış məntəqələrinin müasir yol, qaz, elektrik və su təminatı ilə əhatə olunması bu siyasətin real nəticələridir. Azərbaycanın kosmik sənayeyə daxil olması isə dövlətin inkişaf baxışının yalnız bu günlə məhdudlaşmadığını, gələcəyə hesablandığını aydın şəkildə göstərir.

Məcburi köçkünlərin sosial problemlərinin həlli dövlət siyasətində prioritet istiqamətlərdən biri olmuşdur. Çadır şəhərciklərinin tamamilə ləğv edilməsi, minlərlə ailənin yeni mənzillərlə təmin olunması sosial ədalət prinsipinin təzahürüdür. 2016-cı ilin Aprel döyüşlərindən sonra Cocuq Mərcanlının bərpası isə işğalla barışmayan Azərbaycanın siyasi iradəsinin və gələcək Zəfərin ilk rəmzlərindən biri kimi tarixə düşmüşdür.

2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Qələbəni Prezident İlham Əliyevin liderliyinin zirvəsi kimi qiymətləndirənlər tamamilə haqlıdırlar. Bu Zəfər təkcə hərbi gücün deyil, uzun illər aparılan düşünülmüş dövlət siyasətinin, milli birliyin və xalq-lider vəhdətinin nəticəsi olmuşdur. Azərbaycan dövləti və onun Liderinin qətiyyəti, xalqımızın siyasi iradəsi, Ordumuzun qüdrəti sayəsində 30 il davam etmiş işğalın 44 günlük Vətən müharibəsinin yekununda aradan qaldırılması, ərazi bütövlüyümüzün bərpası çoxəsrlik tariximizin möhtəşəm hadisələri sırasında müstəsna yer tutur. Ötən iki əsrə nəzər yetirdikdə, bu hadisənin əzəmətini, tariximizdə nə dərəcədə önəmli proses olduğunu daha aydın şəkildə görmək mümkündür. Prezident İlham Əliyev müdrik sərkərdə olaraq xalqımızı həsrətində olduğu Qələbə müjdəsinə addım-addım yaxınlaşdırmışdır. Milli maraqları hər şeydən üstün tutması, hadisələrin inkişaf axarını öncədən müəyyənləşdirə bilməsi, cəsarətli qərarlar qəbul etməsi Ali Baş Komandan cənab İlham Əliyevə xalqımızın qəlbində qubara çevrilmiş Qarabağ yarasını əbədi olaraq sağaltmağa imkan vermişdir. Barəsində hələ uzun illər danışılacaq tarixi Zəfərin qayəsində, kökündə duran başlıca səbəb xalqımızın vahid amal uğrunda dəmir yumruq kimi birləşməsi, öz Liderinə sonsuz güvəni, onun qərarlarını tərəddüdsüz dəstəkləməsi olmuşdur.

Beynəlxalq münasibətləri nəzəri və empirik səviyyədə dərindən bilən Prezident İlham Əliyev ölkəmizin müstəqil dövlət kimi mövcudluğu, sabit və davamlı inkişafı istiqamətində mühüm addımlar ataraq, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını uğurla reallaşdırmış, mövcudluq tarixinin ən qüdrətli Azərbaycanını yaratmışdır. Ulu öndərin müəllifi olduğu daxili və xarici siyasət kursunun uğurla davam etdirilməsi Azərbaycanı dünyanın ən dinamik inkişaf edən ölkələri sırasına, bugünkü yüksəliş və tərəqqi zirvəsinə çatdırmışdır.

Müasir Azərbaycan hazırda regionda müstəqil, heç kimdən aslı olmayan, öz sözünü deyən dövlət kimi tanınır. Prezident İlham Əliyevin qətiyyəti ilə biz son illərdə xarici siyasətdə inanılmaz hədəflərə yetişmişik. Bu siyasətin əsasında milli maraqların gerçəkləşdirilməsi amalı hər şeydən öndə dayanır. Xalq olaraq bu bölgənin sahibinə, liderinə çevrilmişik. Proseslərin axarına təsir göstərən, onu dəyişməyi bacaran liderlik statusu bu gün İlham Əliyev missiyasının ən mühüm göstəricilərindən, ana xətlərindən biridir.

Dünya xəritəsində kiçik görünən Azərbaycan qüdrətli və nüfuzlu lideri sayəsində dünya miqyasında tanınır, qəbul olunur. Dərin və hərtərəfli biliyə, yüksək siyasi mədəniyyətə malik olan cənab İlham Əliyev geosiyasət ustası kimi dünyada böyük hörmət qazanmışdır. Dövlət başçısı sürətlə dəyişən çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda Azərbaycanın mənafelərini uğurla müdafiə edir. Ölkəmizin beynəlxalq və regional problemlərinin həllində rolu və nüfuzu getdikcə artır. Milli məsələlərdə yalnız bir amili - xalqının və dövlətinin milli maraqlarını əsas tutan cənab İlham Əliyev beynəlxalq güclərə boyun əymədən, xarici təzyiqlər qarşısında müvazinətini itirmədən xalqımızı milli hədəflərə doğru aparır.

Vətən müharibəsindən sonra regionda formalaşmış yeni geosiyasi reallıq beynəlxalq miqyasda qəbul olunur, ölkəmizin sivil və bərabərhüquqlu əməkdaşlıq təşəbbüsləri beynəlxalq miqyasda dəstək alır. Ötən 5 ildə Azərbaycan Ermənistan üzərində təkcə hərbi-siyasi, diplomatik deyil, informasiya üstünlüyünü də təmin etmişdir. 8 avqust 2025-ci ildə Vaşinqtonda əldə edilmiş razılaşmalar Azərbaycanın diktə etdiyi sülh gündəliyinin nəinki Ermənistan, ümumən bütün dünya tərəfindən qəbul edilməsi deməkdir.

Azərbaycan bu gün regionda sülh, əməkdaşlıq və inkişaf gündəliyini irəli sürən aparıcı aktora çevrilmişdir. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri, "Böyük Qayıdış" proqramının icrası dövlətin gücünü və strateji baxışını nümayiş etdirir.

Xarici siyasətdə Prezident İlham Əliyev milli maraqlara əsaslanan müstəqil və balanslaşdırılmış kursu ardıcıl şəkildə davam etdirir. Heç bir hərbi-siyasi bloka qoşulmayan Azərbaycan həm Qərb, həm də Şərq ölkələri ilə qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanan münasibətlər qurur. Qlobal böhranlar və münaqişələr fonunda ölkəmizə göstərilən beynəlxalq etimad bu siyasətin düzgünlüyünü təsdiqləyir.

Bu ümumi dövlətçilik strategiyasında insan hüquqlarının qorunması və hüquqi-humanist dəyərlərin möhkəmləndirilməsi də xüsusi yer tutur. Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, güclü dövlət anlayışı yalnız iqtisadi və hərbi potensialla ölçülmür. Güclü dövlət, ilk növbədə, vətəndaşının hüquqlarını, azadlıqlarını və ləyaqətini təmin edən dövlətdir. Bu prinsip Azərbaycanda hüquqi dövlət quruculuğunun əsas ideoloji dayağıdır.

Son illərdə məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi, cinayət qanunvericiliyinin humanistləşdirilməsi, alternativ cəza mexanizmlərinin genişləndirilməsi insan hüquqlarının real təminatına xidmət edir. Əfv və amnistiya institutları da Prezident İlham Əliyevin humanizmə əsaslanan siyasətinin mühüm tərkib hissəsi kimi çıxış edir. Dövlət başçısının təşəbbüsü və siyasi iradəsi ilə ötən illərdə imzalanan əfv sərəncamları, təşəbbüsü ilə qəbul edilən amnistiya aktları on minlərlə insanın azadlığa çıxmasına, cəmiyyətə yenidən inteqrasiyasına imkan yaratmışdır.

Bu kontekstdə Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində dövlətimizin başçısının daha bir amnistiya təşəbbüsü ilə çıxış etməsi xüsusi əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülmüş bu Amnistiya aktı əhatə dairəsinə görə indiyədək qəbul edilmiş analoji sənədlər arasında ən irimiqyaslısıdır. Sözügedən amnistiyanın təxminən 20 min nəfərə şamil olunacaq ki, bu da Prezident İlham Əliyevin 22 illik hakimiyyəti dövründə ən böyük Amnistiya aktı kimi tarixə düşəcək. Bu fakt bir daha göstərir ki, dövlət humanizm və sosial ədalət prinsiplərinə sadiq olub, cəza siyasətində islah və yenidənqurma yanaşmasını əsas götürür.

Belə genişmiqyaslı amnistiya təkcə hüquqi akt deyil, eyni zamanda, mühüm ictimai-siyasi və mənəvi hadisədir. Bu qərar dövlətin gücünə, sabitliyinə və öz vətəndaşına olan etimadına dəlalət edir. Amnistiya ailələrin birləşməsinə, sosial harmoniyanın möhkəmlənməsinə, cəmiyyətdə humanist dəyərlərin daha da güclənməsinə xidmət edir və Prezident İlham Əliyevin "insan amili"nə əsaslanan idarəçilik fəlsəfəsinin növbəti təzahürü kimi qiymətləndirilir.

Əminliklə deyə bilərik ki, Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş milli dövlətçilik strategiyası Prezident İlham Əliyevin liderliyi ilə özünün ən yüksək inkişaf mərhələsinə çatmışdır. Bu gün Azərbaycan yalnız regionun deyil, daha geniş coğrafiyanın siyasi proseslərinə təsir göstərən, güclü lider – güclü dövlət konsepsiyasını uğurla reallaşdıran nüfuzlu ölkə kimi çıxış edir.

*Məhəmməd İMANLI,*
*ADDA-nın humanitar fənlər kafedrasının professoru*

# İlham Əliyevin 22 illik liderlik marafonu

**2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyev ötən 22 il ərzində ölkənin siyasi, iqtisadi, sosial və hərbi həyatında köklü və fundamental dəyişikliklərə imza atmışdır. Bu dövr müasir Azərbaycan tarixində güclü dövlət quruculuğu, dayanıqlı inkişaf, milli maraqlara əsaslanan xarici siyasət və ərazi bütövlüyünün tam bərpası ilə xarakterizə olunur.**



Prezident İlham Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən biri ölkədə sabitliyin möhkəmləndirilməsi və dövlət institutlarının gücləndirilməsi olmuşdur. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun uğurla davam etdirilməsi nəticəsində Azərbaycanda idarəetmə sistemi müasir çağırışlara uyğunlaşdırılmış, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində mühüm addımlar atılmışdır.

Siyasi sabitlik iqtisadi inkişafın əsas təməl daşı kimi çıxış etmiş, ölkə daxilində təhlükəsizlik və ictimai asayiş təmin olunmuşdur. Prezident İlham Əliyev dəfələrlə vurğulamışdır ki, sabitlik olmayan yerdə inkişafdan danışmaq mümkün deyil. Bu prinsip rəhbər tutularaq Azərbaycan regionda sabitlik adasına çevrilmişdir.

Son 22 ildə Azərbaycan iqtisadiyyatı sürətli inkişaf mərhələsi keçmişdir. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu enerji strategiyası ölkənin iqtisadi müstəqilliyini təmin etmişdir. "Əsrin müqaviləsi"nin məntiqi davamı olaraq Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Cənub Qaz Dəhlizi kimi nəhəng layihələr reallaşdırılmışdır.

Bu layihələr Azərbaycanın qlobal enerji təhlükəsizliyində etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirmişdir. Eyni zamanda qeyri-neft sektorunun inkişafı dövlət siyasətinin prioritet istiqamətinə çevrilmiş, kənd təsərrüfatı, sənaye, turizm və nəqliyyat sahələrində mühüm nailiyyətlər əldə olunmuşdur.

Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial siyasət daim diqqət mərkəzində olmuşdur. Əhalinin rifah halının yaxşılaşdırılması məqsədilə maaşlar, pensiyalar və sosial müavinətlər dəfələrlə artırılmışdır. Minlərlə şəhid ailəsi və müharibə əlili mənzillə təmin edilmiş, sosial ədalət prinsipi dövlət siyasətinin əsas dayaqlarından birinə çevrilmişdir.

Təhsil və səhiyyə sahəsində aparılan islahatlar insan kapitalının inkişafına xidmət etmişdir. Yeni məktəblər, xəstəxanalar, idman kompleksləri tikilmiş, gənclərin bilik və bacarıqlarınınf artırılması üçün geniş imkanlar yaradılmışdır.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin fəaliyyətinin zirvə nöqtələrindən biri müasir, güclü və peşəkar Azərbaycan Ordusunun formalaşdırılması olmuşdur. Ordu quruculuğu dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyən edilmiş, müdafiə qabiliyyəti ildən-ilə gücləndirilmişdir.

2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Qələbə qazanmış, işğal altında olan torpaqlar azad edilmişdir. Bu Qələbə Azərbaycan xalqının milli ruhunun, dövlət iradəsinin və güclü liderliyin təntənəsi olmuşdur.

Müharibədən sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinə başlanılmışdır. "Böyük Qayıdış" proqramı çərçivəsində infrastruktur layihələri icra olunur, ağıllı şəhər və ağıllı kənd konsepsiyaları həyata keçirilir.



Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın inkişafının yeni mühərrikinə çevrilməkdədir. Prezident İlham Əliyev bu ərazilərin qısa müddətdə dirçəldiləcəyini və doğma yurdlarına qayıdan insanların təhlükəsiz və layiqli həyat şəraitinə malik olacağını dəfələrlə bəyan etmişdir.

Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət milli maraqlara əsaslanan, balanslı və prinsipial xarakter daşıyır. Azərbaycan beynəlxalq arenada etibarlı tərəfdaş kimi tanınır, BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı kimi qurumlarda fəal mövqe tutur.

Xüsusilə Qoşulmama Hərəkatına sədrliyi dövründə Azərbaycan beynəlxalq ədalətin və suverenlik prinsipinin müdafiəsində mühüm rol oynamışdır. Prezident İlham Əliyevin çıxışları və təşəbbüsləri qlobal səviyyədə geniş rezonans doğurmuşdur.

Nəticə etibarı ilə son 22 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan güclü, müstəqil və qalib dövlətə çevrilmişdir. Bu dövr tarixə milli dirçəliş, iqtisadi yüksəliş və ərazi bütövlüyünün bərpası mərhələsi kimi daxil olmuşdur. Azərbaycan bu gün regionun lider dövləti, söz sahibi olan beynəlxalq aktor kimi çıxış edir.

Prezident İlham Əliyevin uzaqgörən siyasəti, qətiyyətli liderliyi və xalqına bağlılığı Azərbaycanın parlaq gələcəyinin əsas təminatıdır.

*Azər SÜLEYMANOV,*
*Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri*

# Prezident İlham Əliyevin “Xəzərin geosiyasəti” konsepti



### IV MƏQALƏ

## XX əsrin ilk onillikləri: Azərbaycan milli sahibkarlığı

Prezident İlham Əliyevin dünya güclərinin Xəzər regionu uğrunda kəskin mübarizəsi fonunda ayrıca Azərbaycan milli sahibkarlığı məsələsinə önəm verməsi konseptin məzmunu və mahiyyəti baxımından çox önəmlidir. Çünki faktiki olaraq bu yanaşma müəllifin müasir tarixi mərhələdə Xəzərin konseptində Azərbaycan faktorunun nəzəri-konseptual kontekstdə daxil edilməsinin tarixi siyasi əsasını yaratmağa imkan verir. Bununla Azərbaycan Prezidenti ilk dəfə olaraq Xəzər konseptində Azərbaycan faktorunu ciddi elmi konseptual baza əsasında nəzərə alan yaradıcı şəxsiyyətdir.

Bunların fonunda Azərbaycanda milli sahibkarlıqla bağlı İlham Əliyevin “Azərbaycan nefti dünya siyasətində” adlı əsərdə irəli sürdüyü müddəalara bir qədər geniş nəzər salaq. Müəllif yazır ki, XX əsrin başlanğıcında Xəzər ticarət donanmasının bütün kadr tərkibinin 4,4 faizini Azərbaycan kapitalının nümayəndələri təşkil edirdilər. Yükqaldırmanın isə 42,1 faizi azərbaycanlılara məxsus idi. Deməli, həmin dönəmdə azərbaycanlılardan əsas olaraq yük daşımalarda istifadə olunurdu ki, bu da sahibkarlıq məsələsində problemlərin olduğunu göstərir.

Məsələn, 1907-ci ildə Xəzər buxar yanacaq tanker parkının 129 gəmisindən cəmi 29-u Azərbaycan milli sahibkarlarına aid idi (lakin onların sırasına azərbaycanlı olmayan Nobel qardaşlarını da daxil edirlər). Onlar “Ş.Əsədullayev”, “M.Nağıyev”, M.C.Nəcəfov” şirkətlərinə məxsus idilər (ancaq Azərbaycan milli sahibkarları vurğulanan isimlərlə məhdudlaşmırdı). Azərbaycan milli sahibkarlarının ixrac etdikləri neft məhsullarının həcmi hər il 10 milyon puddan artıq idi.

Burada Azərbaycan Prezidenti çox maraqlı bir faktora da toxunur. Azərbaycan sahibkarları H.Z.Tağıyev, M.Nağıyev, H.Dadaşov və başqaları neft işində milli kapitalı artırırdılar. Məsələ onunla aktualdır ki, XIX əsrin sonu XX əsrin əvvəllərində bank sahibkarları sırasında milli təmsilçilər yox idi. Bu, bütövlükdə milli sahibkarların neft sektorunda mövqeyinə mənfi təsir edirdi, onun böyüyüb üstün olmasına əngəl idi.

Şübhəsiz ki, kənar böyük güclər Azərbaycan nefti ilə bağlı kapitalda hökmranlıq etməkdə maraqlı idilər. Bu şərtlər daxilində sual meydana çıxırdı: XX əsrin əvvəllərində Azərbaycan neftinin sahibi nə dərəcədə azərbaycanlılar idilər? Onu da vurğulayaq ki, XX əsrin əvvəllərində Bakı birja camiyəsində cəmi 14 azərbaycanlı vardı ki, bu da ümumi sayın 5 faizini təşkil edirdi. Lakin 1904-1914-cü illərdə xüsusi kredit müəssisələri şəbəkəsinə “H.Z.Tağıyev” bankir ofisi də daxil idi.

Beləliklə, sovetlərin yaradılması ərəfəsində Azərbaycan neft sənayesi ilə bağlı qədim tarixdən gələn ənənə artıq formalaşmışdı. Onun əsas əlamətlərini Prezident İlham Əliyevin əsərləri əsasında geosiyasi kontekstdə müəyyən etmək olar.

## XX əsrin əvvəllərində Azərbaycan nefti

Azərbaycan liderinin əsərləri əsasında aparılan təhlil göstərir ki, qədimdən Xəzərin geosiyasi obrazında coğrafi özəlliklərlə təbii resurslardan istifadə başlıca rol oynamışlar. Coğrafi olaraq hansı ölkələrin Xəzərə aid olunması məsələsinin müəyyən edilməsi və bu zaman relyef və iqlimin özünəməxsusluğunun diqqətə alınması ciddi faktor sayılmışdır. Bu məsələ zaman keçdikcə Xəzəryanı regionun neftlə çox zəngin olması faktının həmin dövrlərin güclü imperiyalarına məlum olması sayəsində yeni səviyyədə aktuallıq kəsb etmişdir. O, iki aspektdə siyasi müstəviyə çıxarılmışdır.

Birincisi, güclü dövlətlərin Xəzərə sahib olmaq uğrunda amansız mübarizəyə başlaması.

İkincisi, Xəzərə yol və həmin regionun təbii sərvətlərini daha səmərəli şəkildə daşımaq ön plana çıxmışdır.

Azərbaycan Prezidentinin əsərlərində bunun nümunələri inandırıcı şəkildə verilmişdir. Yəni dünya dövlətləri Xəzər regionuna yalnız neftlə zəngin olan əsrarəngiz ərazi kimi baxmamışlar. Onlar üçün Bakı limanı Azərbaycan təbiətinin gözəlliyi və neftinin zənginliyinin özünəməxsusluğu ilə tanışlıq üçün deyildi. Əsas olanı bu zənginliyi hansı üsulla istehsal edib, hansı yolla özləri üçün daşımaq və ya külli miqdarda gəlir əldə etməyə lazım idi. Bakını ona görə kənar güclər “çox sevir, ona təriflər yağdırırdılar”. O cümlədən Rusiya imperiyası və SSRİ üçün Bakı çox “qiymətli bir yer” idi.

Bu məqam hansı səbəblərdən XX əsrin əvvəllərində Azərbaycan neftinin istehsalı, istismarı və nəqlində milli kapitalın az yer tutduğunu izah edir. Halbuki Azərbaycan nefti sayəsində milyonlar qazanan əcnəbilərin heç biri Azərbaycanda neft sənayesinin milli maraqlar üzərində inkişafında maraqlı deyildi. Buna görə də neft mədənlərində azərbaycanlılar çox ucuz işçi qüvvəsi idilər. Bununla bağlı Azərbaycan Prezidentinin əsərlərində Cənubi Azərbaycandan Bakıya neft sferasında işləmək üçün gələnlərin həyatları çox yaxşı təsvir edilmişdir.

Bunun nə demək olduğunu Azərbaycan Prezidentinin əsərlərinin ruhundan anlamaq mümkündür. Cənubi azərbaycanlıların Bakıya gəlişi könüllü iş axtarışı olsa da, Bakı milli müstəqil dövlətin paytaxtı deyildi. Buna görə də onlar üzərində yadlar hökmranlıq edirdilər və azərbaycanlı mesenatların dəstəyi olmasa idi, bütövlükdə xalq daha pis duruma düşərdi. Burada Qərbi Azərbaycandan deportasiya olunan soydaşlarımızın vəziyyəti ilə nisbi müqayisə aparmaq olar. Yəni Azərbaycan müstəqil olmayınca, dünyanın heç bir yerində azərbaycanlıların haqları-hüquqları qorunmayacaqdı. Müxtəlif üsullarla onları istismar edəcəkdilər. Və burada yadlardan mərhəmət gözləmək mənasızdır.

Yeganə çıxış yolu müstəqil güclü dövlət olmaqdan ibarətdir. Azərbaycan Prezidentinin Xəzər geosiyasi konseptinin başlıca qayəsi bundan ibarətdir. Siyasi fəaliyyətlə yanaşı, həmin konsept də Azərbaycanın müstəqil və güclü dövlət olmasının zəruriliyinin tarixi, siyasi, geosiyasi, mənəvi-mədəni əsasını ortaya çıxarır. Bunlardan aydın olur ki, ulu öndər Heydər Əliyev nəyə görə daim Azərbaycanın güclü müstəqil dövlət olmasında israr edirdi! Müstəqillik bizim insan və toplum kimi ləyaqətli varoluşumuzun yeganə yoludur!

Beləliklə, tarixi siyasi təcrübə əsasında Azərbaycan Prezidenti Xəzər konsepti ilə bağlı çox mühüm qənaətlər əldə etmişdir. 1920-ci ildə Azərbaycanın sovetlərin tərkibinə qatışdırılması ilə Xəzər məsələsində müasir dövr üçün də böyük geosiyasi mənası olan iki dəyişiklik oldu.

Birincisi, Azərbaycanda artıq müəyyən dərəcədə formalaşmış milli sahibkarlıq mədəniyyətinə ciddi zərbə dəydi. Onun nəticəsi sovetlərin tədricən milli neft zadəganlarını məhv etməsi oldu. Hətta Çar Rusiyasının əngəl olmadığı prosesi sovetlər dağıtdılar. Bunundla SSRİ-nin tam oturuşduğu müddətdə Azərbaycanda milli neft sahibkarlığından danışmaq mümkün deyil. Bunun fonunda mərkəzi hakimiyyət “Bakı nefti öncə SSRİ üçündür, ondan qalan olsa, Azərbaycan istifadə edər” kimi istismarçı prinsiplə hərəkət edirdi. Hətta V.Lenin N.Nərimanova bunu açıq demişdi.

İkincisi, qlobal geosiyasət baxımından SSRİ-nin yaranması Xəzərin tarixi təkamülü baxımından ciddi dəyişikliyə səbəb oldu. Konkret olaraq, Xəzəryanı region süni bir modelə transformasiya edildi. Əgər tarixən Xəzəryanı region dənizi əhatə edən 5 ölkədən ibarət idisə, sovetlər onların üçünü (Özbəkistanın Xəzərə bitişik ərazisi yoxdur) bir dövlətdə birləşdirib, təbii modeli iki ölkənin münasibətləri səviyyəsinə yendirdi – SSRİ və İran. Sonradan məlum olacaqdı ki, bu qeyri-təbii geosiyasi transformasiya Xəzərin hüquqi statusunu müəyyən etməkdə və deməli, onun ədalətli geosiyasi konseptinin yaradılmasında başlıca maneə olacaq.

Məsələnin bu aspekti üzərində dövlət başçısının əsərlərində geniş dayanılmışdır.



## Xəzərin statusu və Xəzəryanı region modeli

SSRİ dağılandan sonra müstəqilliklərini əldə etmiş ölkələrin qarşısına Xəzərin statusunu müəyyən etmək kimi vacib bir vəzifə çıxdı. Xəzərin dəniz və ya göl kimi qəbul edilməsi sadə coğrafi seçim deyildi. Onun arxasında geosiyasi anlamı böyük olan məsələlər dayanırdı. İki yol vardı.

Birincisi, Xəzəri onu əhatə edən ölkələrin milli sektorları kimi qəbul edib, hər dövlətin həmin sektorda müstəqil fəaliyyətinə nail olmaq.

İkincisi, Xəzəri qapalı dəniz və ya göl kimi “daxili hövzə” kimi qiymətləndirib, ona ümumi sahiblik modelini tətbiq etmək. Nümunə kimi Fonsek buxtasının Salvador, Nikaraqua və Honduras arasında daxili qapalı su hövzəsi kimi bölünməsini göstəridilər. Lakin Azərbaycan Prezidenti əsərində bunun Xəzərə tətbiqinin qətiyyən mümkün olmadığını göstərmişdir. Başlıca arqument isə ondan ibarətdir ki, Fonsekə tək sahibliyi İspaniya edirdisə, Xəzərdə heç sovet dönəmində hansısa bir dövlətin sahibliyi olmamışdır – həmin dönəmdə SSRİ və İran Xəzərdə yiyəlik edirdilər.

Deməli, ikinci yol Rusiya və İrana Xəzəryanı regionda hegemonluq etmək şansı verirdi. Birinci yol isə hər bir milli müstəqil dövlətin özünəməxsus sektorunda milli maraqlar üzrə fəaliyyət göstərməsinin hüquqi bazasını formalaşdırırdı.

Birinci yolun fəal tərəfdarı və təşəbbüskarı Azərbaycan idi (Qazaxıstan da onu müdafiə edirdi). İkinci yolun fəal tərəfdarı isə İran və Türkmənistan idi.

Bütün bunlara görə, Xəzərin statusu müasir mərhələdə əsas geosiyasi məsələ kimi qəbul edilməli idi. Həmin baxımdan ümummilli lider Heydər Əliyevin Xəzərin statusuna münasibəti həm ədalətli, həm də tarixi gerçəkliyə və geosiyasi mənzərəyə uyğun idi. Azərbaycan Prezidenti İlham Əliyev həmin prinsipləri aşağıdakı kimi təqdim edir.

Birinci prinsip – Xəzər açıq dəniz deyildir, çünki okeanla birbaşa birləşmir.

İkinci prinsip – Xəzər qapalı dənizdir, çünki Dünya okeanına təbii çıxışı yoxdur.

Üçüncü prinsip – Xəzər daxili dəniz, daxili su hövzəsi və ya daxili göl deyildir, çünki o, bir dövlətin deyil, 5 dövlətin sərhədləri hüdudunda yerləşmişdir.

Dördüncü prinsip – dənizsahili dövlətlər başqasına məxsus sektorda onun razılığı ilə iş görə bilər.

Bu prinsiplər tam olaraq BMT-nin 1982-ci il beynəlxalq dəniz hüququ Konvensiyasına uyğundur. Sonrakı proseslər də göstərdi ki, Azərbaycan lideri Xəzərin geosiyasi məsələsində haqlıdır və Heydər Əliyevin irəli sürdüyü prinsiplər hər bir Xəzəryanı region dövləti üçün faydalıdır.

Vurğuladığımız məqam özlüyündə 2 mühüm geosiyasi faktoru meydana çıxarır. Onlardan biri ondan ibarətdir ki, müasir mərhələdə Xəzərin geosiyasi konseptinin tarixi ədalət və regionun siyasi tarixi əsasında beynəlxalq hüququn normaları çərçivəsində (yəni hansısa güclü dövlətin şəxsi istəyinə görə deyil) yaradılması seçim deyildir, zərurətdir. Digəri – bu möhtəşəm elmi və geosiyasi “hərəkat”ın situmullaşdırıcı və yaradıcı faktoru Azərbaycan Respublikasıdır.

Prezident İlham Əliyevin “Xəzəryanı regionun geosiyasəti” konseptinə yanaşmasının başlıca müəyyənedici faktoru bundan ibarətdir. Nəzəri-konseptual miqyasda digər mühüm məqam Azərbaycan liderinin Xəzəryanı regionun dəqiq tərifini verməsi ilə bağlıdır. Dövlət başçısı, öncəki məqalələrdə vurğuladığımız kimi, Xəzəryanı region dedikdə Azərbaycanı, Mərkəzi Asiyanın qərb hissəsini, Rusiyanın cənubu və İranın şimalını əhatə edən əraziləri nəzərdə tutur. Bu müəyyənetmə metodu Xəzərin məkan olaraq tarixi, siyasi və coğrafi təkamülü ilə regionun bioresurslarının nisbəti, onların istifadəsi və nəqlinin özəlliklərini qarşılıqlı əlaqədə ciddi surətdə nəzərə alır.

Bu cür yanaşmanın politoloji, tarixi və geosiyasi nəzəri əsasları ilə yanaşı, fəlsəfi əsası da mövcuddur. Fəlsəfədə alman əsilli eston bioloqu Y.fon İkskyülün daxil etdiyi “Umwelt” (“ətraf mühit”) anlayışından geniş istifadə olunur. Bu anlayış hər bir canlı orqanizmin öz dünyası olmasını və onun formalaşmasının həmin orqanizmin “dünya anlamı” daxilində baş verdiyini ifadə edir. Yəni ibtidai canlılardan tutmuş cəmiyyət və dövlət kimi mürəkkəb strukturlara qədər hər bir varlığın özünün “dünya duyumu vardır ki, bu da onun “mövcudolma sahəsini” təşkil edir. Bu ideyanı genişləndirərək belə qənaət ala bilərik ki, Xəzəryanı regionun “real mövcudluq dünyası” ona daxil olan ölkələrin mövcudolma arealı əsasında müəyyən etmək olar. Azərbaycan Prezidenti yüksək konseptual səviyyədə bu yanaşmanı ifadə etmişdir.

Bütün bunlar Prezident İlham Əliyevin “Xəzəryanı regionun geosiyasəti” konseptinin üçüncü komponenti (və ya tərkib hissəsi) üzərində dayanmağa baza yaradır. Vurğulandığı kimi, o, müasir regional və qlobal geosiyasi xüsusiyyətlər fonunda Xəzərin obrazının yaradılması ilə bağlıdır.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Ulu öndər davamçısı

## *Qələbəmizin 5 illiyinə həsr olunub*

Azərbaycan, əziz anam
Sən igidlər Vətənisən!
Sən xoşbəxtlər məskənisən!
Gör kimlərin anasısan?
Zirvələri fəth eləyən
Ulu öndər yadigarı,
Məğrur, qalib bir komandan!
Adı sülhün etibarı!
Adı yurdun xilaskarı...
Dahi öndər yadigarı.

Ulu öndər sevgisinin
Ardıcılı, davamçısı,
Sən ey sübhün sülh elçisi,
Andı güvən, əhdi güvən!
Qalib xalqın məğrur oğlu,
Zəfər çaldın eşqinlə sən!

Dünyamızın etibarlı Liderisən!
Ulu öndər yadigarı.
Millətlərə, liderlərə örnək oldun.
Vətənpərvərlik nümunəsi,
BMT-nin qətnaməsin,
Tələblərin gerçək etdin.

Ulu öndər davamçısı,
Azəri türk qəhrəmanı.
Bəşərisən, əbədisən,
Xalqımızın ən qüdrətli
Prezidenti, rəhbərisən!
Sən alisən, bəşərisən.

Dünyamızın cəsur, ali rəhbərisən!
Günəş kimi parlayacaq, işıq saçan,
Qalib olan ən müqəddəs varlığısan!
Yüksəlişin xidmətində, əməlində
Ər tək döyüş meydanında Zəfər yazan,
Qəhrəmanlıq simvolusan.

Sən ey Öndər Yadigarı!..
Zəfər çaldın rəşadətlə,
Zülmətin bağrını dələn,
Səhərin al şəfəqisən!
Yurdun alın yazısında,
Eşqlə yazdın zəfəri sən!

Ulu Öndər yadigarı,
Qaliblərin qalibisən...
Ey dünyamın qəhrəmanı,
Zəfərimin müəllifi.
Fəxr edirik Səninlə biz,
Sənlə güldü səhərimiz!
Sülhümüzün rəhbərisən!
Könlümdə eşq minbərisən!

Zəfər çalan, qalib olan,
Xalqımızın xilaskarı
Ulu öndər övladısan.
Qürurlusan! Müzəffərsən,
Sənin dəmir yumruğunla,
Ordun əzdi düşmənləri!
Qarabağın sinəsindən,
Dağı sildi yurd ərləri!

Zirvələri fəth eləyən
Ulu öndər yadigarı,
Sən Zəfərdən yoğrulmusan,
Günəş təki parlamısan!
İgidlərin igidisən,
Tarix yazan ölkəmizin
Sülh yolunda xilaskarı!
Millətimin etibarı!

Dünyamızın ən şərəfli döyüşçüsü,
Vətənpərvər igidisən.
Haqq yolunda Zəfər çalan
Qəhrəmanlığın rəmzisən,
Xalqımızın taleyinə,
Haqdan ata, möcüzəsən!

Ulu öndər yadigarı,
Varlığınla xalqımıza
Ən böyük bir ərməğansan!
Türklüyümün gerçək üzü,
Şeirimizin Vətən sözü,
Xilaskar adınla qoşa yaşa!
Ey varlığı yurda dərman!
Nə qədər ki Azərbaycan,
Vətən deyən bu dillər var,
Adın o dillərdə yaşar!
Eşqin könüllərdə yaşar!

***Fərqanə ZÜLFÜQAROVA,***
***dosent, AYB-nin üzvü***

# Hər bir vədini uğurla gerçəkləşdirən Lider



## Adını tariximizə qızıl hərflərlə yazan Lider

Müstəqillik tariximizin 2003-cü ildən bu günəqədərki dövrünün reallıqları Heydər Əliyev yolunun uğurlu davamının təsdiqidir. 1993-2003-cü illərdə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində ölkəmiz inkişafın elə yüksək mərhələsinə qədəm qoymuşdu ki, 2003-cü ildən sonrakı mərhələdə hakimiyyətin etibarlı əllərdə olması olduqca vacib əhəmiyyət kəsb edirdi. Dövlətimizin başçısı İlham Əliyev bununla bağlı bildirmişdir: “2003-cü ildə Azərbaycan xalqı düzgün seçim etmişdi. Çünki hesab edirəm ki, müstəqil tariximizin ən həlledici məqamı məhz 2003-cü il idi. Çünki o vaxt ölkəmizin gələcəyi ilə bağlı konseptual yanaşma tam özünü təsdiqləmişdi, yəni, Heydər Əliyev siyasəti davam etdirildi. Əgər tarix başqa istiqamətdə getsəydi, bilmək olmaz, xalqımız, dövlətimiz hansı bəlalar, faciələrlə üzləşə bilərdi. Hər halda, müstəqilliyimizin ilk iki ili əyani şəkildə göstərir ki, güclü lider olmadan və düşünülmüş siyasət olmadan istənilən ölkə, xüsusilə gənc müstəqil ölkə çox ciddi təhlükələrlə üzləşə bilər. 2003-cü ildə əsası 1993-cü ildə qoyulmuş siyasətə bir daha dəstək verildi”.

Ümummilli lider Heydər Əliyev 2003-cü ildə Azərbaycan xalqına tarixi müraciətində bu əminliyi ifadə etmişdir: “Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn Prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”. Təbii ki, həmin müraciətdən ötən 22 ildən artıq dövrün Azərbaycan tarixinə yazdığı uğur, zəfər səhifələrinin hər birini vərəqləmək, onları bir yazıda əhatə etmək mümkün deyil. Çünki ötən hər gün tariximizə bir mühüm hadisənin yazılması ilə yadda qalır. Sözsüz ki, bu uğurların, qürurverici hadisələrin təməlində düşünülmüş siyasət və Lider amili dayanır. Uğurlarımız sırasında ilk olaraq onların zirvəsində dayanan, Azərbaycanın yeni dövrə qədəm qoymasını şərtləndirən ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasını, onun yaratdığı yeni reallıqları qeyd etmək istərdik. Dövlətimizin başçısı İlham Əliyevin yeni dövrün mühüm hadisələrindən olan, müstəqillik tariximizdə ilk dəfə olaraq bütün ölkə ərazisində 2024-cü ilin 7 fevral tarixində keçirilən prezident seçkilərində inamlı qələbəsindən sonra andiçmə mərasimində qeyd etdiyi kimi, əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik: “Uzun danışıqlar prosesi çərçivəsində dəfələrlə bizə hansısa yarımçıq təkliflər irəli sürülürdü. Ancaq o təkliflər bizim üçün qəbuledilməz idi. Mən hər dəfə deyirdim ki, Azərbaycan Bayrağı ərazimizin hər bir yerində dalğalanacaq. Hələ Bayraq Meydanının açılışında demişdim ki, bayrağımız Şuşada, Xankəndidə dalğalanacaq, bizim siyasətimiz bundan ibarət idi. Biz bütün gücümüzü səfərbər edib bu hədəfə doğru gedirdik, hər gün, hər saat bu müqəddəs günü yaxınlaşdırırdıq”.

## Çağdaş tariximizə davamlı uğurlarla yazılan illər

Son 22 il bütün sahələrdə davamlı uğurlarla yadda qalıb. İqtisadiyyatın inkişafı və insanların sosial rifah halının yüksəldilməsi məqsədilə Prezident İlham Əliyevin təşəbbüskarı olduğu qanun layihələri, həmçinin imzaladığı Fərman və sərəncamlar əsasında həyata keçirilən sosial-iqtisadi layihələr vətəndaşlarımızın yaşayış səviyyəsinə öz müsbət təsirini göstərir. Prezident İlham Əliyevin rəhbərliyi ilə görülmüş genişmiqyaslı işlər, sistemli və ardıcıl tədbirlər, dərin islahatlar nəticəsində hazırda Azərbaycan siyasi və makroiqtisadi baxımdan sabit, təhlükəsiz ölkə, regionun siyasi, iqtisadi və mədəni mərkəzi, irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş, dünya kosmos ailəsinin üzvü, mühüm tranzit qovşağıdır.

Ölkəmizin malik olduğu təbii resurslardan səmərəli istifadə etməsinə geniş yol açan enerji layihələrinin uğurlu icrası həm Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirir, həm də iqtisadiyyatın şaxələndirilməsinə geniş yol açır. Regional əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynayan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin 2006-cı ildə, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin isə 2007-ci ildə istifadəyə verilməsi çoxlarına əfsanə kimi görünən bu layihələrin artıq reallıq olduğunu göstərdi. İllər keçdikcə əməkdaşlıq regional çərçivədən çıxaraq beynəlxalq miqyas aldı. 2017-ci ildə “Yeni əsrin müqaviləsi”nin imzalanması, ondan əvvəl 2014-cü ildə Cənub Qaz Dəhlizinin təməlinin qoyulması Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmləndiyini nümayiş etdirdi. 2018-ci il mayın 29-da Bakıda Cənub Qaz Dəhlizinin, həmin ilin 12 iyun tarixində isə Əskişəhərdə bu dəhlizin mühüm hissəsi olan Trans-Anadolu (TANAP) qaz boru kəmərinin açılışı oldu. 30 iyun 2018-ci ildə ilk kommersiya qazının Trans-Anadolu (TANAP) boru kəməri ilə Türkiyəyə göndərilməsinə başlanıldı. 30 noyabr 2019-cu ildə TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirildi. Azərbaycan təbii qazının 31 dekabr 2020-ci ildə Avropa bazarına tədarükünə başlanıldı. Bu tarixdə Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən olan TAP istifadəyə verildi. Hazırda Azərbaycan 14 ölkəyə təbii qaz ixrac edir. Bununla Azərbaycan boru kəməri vasitəsilə qaz təmin edən ölkələrin sırasında dünyada birinci yeri tutur.

Təbii ki, Azərbaycanın enerji sektorunda qazandığı uğurlar yalnız bunlarla bitmir. Hazırda yaşıl enerjiyə keçid prioritet məsələdir. Azərbaycan bərpaolunan enerji potensialı ilə də dünyanın diqqətindədir. Belə ki, ötən il Bakıda keçirilən, iqlim diplomatiyasında dönüş nöqtəsi kimi dəyərləndirilən COP29 tədbiri Azərbaycanın bu sahədə mövcud imkanlarının təqdimatı oldu. COP29-a 80 ölkənin dövlət və hökumət başçısı, ümumilikdə qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçı qatıldı. Karbon bazarına dair çoxdan gözlənilən 6-cı maddənin tam işlək vəziyyətə gətirilməsinə nail olundu. Azərbaycanın COP29 Sədrliyi inkişaf etməkdə olan ölkələrə hər il 1,3 trilyon ABŞ dolları həcmində iqlim maliyyəsini təmin etmək üçün yeni öhdəlik olan Bakı Maliyyə Məqsədi razılaşmasını elan etdi. BMT-nin İqlim Sammiti üçün COP29 Sədrliyinin əsas prioriteti üzrə əldə olunan uğur əvvəlki 100 milyard ABŞ dolları həcmində iqlim maliyyəsi hədəfindən əhəmiyyətli dərəcədə artım deməkdir və qlobal investisiyaların yeni dalğasına təkan verəcəkdir. Bakı Maliyyə Məqsədi inkişaf etməkdə olan ölkələr üçün 2035-ci ilə qədər hər il ən azı 300 milyard dollar vəsaitin səfərbər olunmasına liderlik etmək üçün inkişaf etmiş ölkələrin əsas hədəfini özündə ehtiva edir. Azərbaycan bu iqlim konfransına ev sahibliyi ilə çoxtərəfliliyin tərəfdarı olduğunu bir daha təsdiqlədi. Bu COP növbəti COP-lar üçün stimul oldu. Ötən ilin dekabrında Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) üzv qəbul edilməsi də ölkəmizin iqtisadi uğurlarının, beynəlxalq nüfuzunun təqdimatında əhəmiyyətli rol oynadı. Təşkilata üzv qəbul edilməsində Azərbaycanın namizədliyinə Türkiyə, Pakistan, Misir, İran, İndoneziya, Malayziya, Nigeriya və Banqladeş tərəfindən dəstək göstərilməsi bu ölkələr ilə səmimi dostluğumuzun və əməkdaşlığımızın göstəricisi kimi dəyərləndirildi.

## İqtisadi müstəqilliyi möhkəmləndirən siyasət

Beş fundamental nəticə - qalib dövlət, beynəlxalq nüfuz, təhsilli cəmiyyət, böyük iqtisadi potensial və yüksələn rifah ölkəmizin sosial-iqtisadi inkişaf nailiyyətlərini xarakterizə edir. Bu nailiyyətlər uzunmüddətli dövrdə ölkə iqtisadiyyatı üçün keyfiyyətcə yeni sosial-iqtisadi inkişaf simasının formalaşmasına böyük töhfə verəcək. Prezident İlham Əliyev 2003-cü ildə bu çağırışı etmişdir ki, iqtisadi artım qeyri-neft sektorunun hesabına olmalıdır. Həmçinin bu hədəf də qarşıya qoyulmuşdu ki, neft kapitalını insan kapitalına çevirməliyik. Son 22 ilin uğurları bu hədəflərin də reallıqda öz əksini tapdığını nümayiş etdirir. Azərbaycanın regionlarının potensialından səmərəli istifadə etmək məqsədilə Regional inkişaf proqramları təsdiqləndi və uğurla icra edildi. Regionların sosial-iqtisadi inkişafına dair 4 Dövlət Proqramının uğurlu icrası nəticəsində bölgələrin inkişafı ölkəmizdə yeniləşmə, davamlı inkişaf, sosial-iqtisadi tarazlıq, modern islahatlar və digər sistemli hədəflərin reallaşmasında mühüm rola malikdir. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının həyata keçirilməsi sayəsində bölgələrdə inkişaf prosesləri sürətləndi, kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı konkret proqramlar icra olundu. İşsizliyin və yoxsulluğun səviyyəsi aşağı düşdü. Ölkədə qeyri-neft sektorunun inkişafı üçün güclü zəmin formalaşdı. Dövlət proqramlarının icra olunduğu 2004–2018-ci illər ərzində ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artmışdır. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enmişdir. Bu uğurlar “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasını şərtləndirdi. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” da təsdiq edildi, uğurla icra olunur.

Əvvəldə qeyd etdiyimiz kimi, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası ilə Azərbaycan yeni dövrə qədəm qoydu. Zəfərimizin və suverenliyimizin yaratdığı yeni reallıqlar yeni Dövlət proqramlarının qəbulunu zərurətə çevirdi. Prezident İlham Əliyevin 2021-ci il 7 iyul tarixli Fərmanı ilə iqtisadi rayonların yeni bölgüsü təsdiqləndi. Ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmini üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirdi. Bu bölgü işğaldan azad edilmiş bölgələrin sürətli inkişafına xidmət edir. Bunun üçün Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Ağdərə, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) yaradıldı.

“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” təsdiqləndi. Yeni sosial-iqtisadi inkişaf modeli 2030-cu ilədək olan dövrdə ölkədə bütün sahələrdə həyata keçirilməsi nəzərdə tutulan köklü islahatların ideologiyasını təmin edir. Həmçinin “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”, “Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya” təsdiqləndi. İmzalanan sənədlər, təsdiqlənən Dövlət proqramları ölkənin dayanıqlı inkişafının, insanların yüksək rifahının təmin edilməsinə xidmət edir.

Azərbaycanın iqtisadi uğurları beynəlxalq maliyyə qurumları tərəfindən də yüksək qiymətləndirilir. Dünya Bankının hesabatlarında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi kimi yer alır. Genişmiqyaslı islahatlar nəticəsində Azərbaycanda münbit sərmayə iqlimi yaradılmışdır. Azərbaycan rəqabətqabiliyyətli iqtisadiyyata malik ölkə kimi tanınır və nüfuz qazanır. İndiyədək Azərbaycan iqtisadiyyatına 350 milyard dollara yaxın investisiyanın yatırılması mühüm məqamların, xüsusilə ölkəmizin investisiya cəlbediciliyinin təqdimatıdır.

## Qlobal siyasətdə artan nüfuz və təsir gücü

Azərbaycanın iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi onun beynəlxalq nüfuzunun yüksəlməsində də əhəmiyyətli rol oynayır. Başqa sözlə ifadə etməli olsaq, bu gün Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan rolu xarici siyasət uğurlarının davamlılığında özünün aydın ifadəsini tapır. Belə ki, həyata keçirilən praqmatik xarici siyasət ölkəmizə beynəlxalq münasibətlər sistemində etibarlı strateji tərəfdaş imici qazandırıb. Regional təşəbbüslər Azərbaycanın möhkəmlənməsinə, bölgədəki əməkdaşlığın dərinləşməsinə xidmət etdi. Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmiz 2011-ci ildə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, nüfuzlu beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı. 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2023-cü illərdə sədrlik etməsi müasir Azərbaycanın beynəlxalq miqyasda artan nüfuzunu və qüdrətini göstərir. Dünyada sülhün və konstruktiv əməkdaşlığın vacibliyini yorulmadan təbliğ edən Prezident İlham Əliyevin beynəlxalq təşəbbüsləri mühüm əhəmiyyət kəsb edir. Qoşulmama Hərəkatının sədri qismində Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş Xüsusi Sessiyası keçirildi. 2021-ci ildə BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan Prezidentinin təşəbbüsü ilə Qoşulmama Hərəkatının üzvləri adından irəli sürülmüş “COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi” adlı qətnamə BMT üzv dövlətləri tərəfindən qəbul olundu.

Azərbaycanın ayrı-ayrı dövlətlərlə ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələri yüksələn xətlə inkişaf edir. Ölkəmiz İslam Əməkdaşlıq Təşkilatının (İƏT) ən fəal və nüfuzlu üzvlərindən biridir. Azərbaycan son illərdə İƏT-in bir neçə konfransına ev sahibliyi etmişdir. 2017-ci il Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanda “İslam Həmrəyliyi İli” elan olundu və həmin ilin may ayında İƏT-in möhtəşəm idman tədbiri - IV İslam Həmrəyliyi Oyunları Bakıda keçirildi. ICESCO tərəfindən 5 min illik qədim tarixə malik Naxçıvan şəhəri 2018-ci il üçün, Şuşa şəhəri isə 2024-cü il üçün İslam mədəniyyətinin paytaxtı seçildi. 2026-cı ildə isə ölkəmiz İslam Əməkdaşlıq Təşkilatına sədrlik edəcək.

Azərbaycanın qlobal mədəniyyətlərarası dialoqun ünvanlarından birinə çevrilməsi ölkəmizin beynəlxalq statusunun və beynəlxalq tərəfdaşlarının sayının artmasına səbəb olub. Azərbaycanda davamlı olaraq Bakı Beynəlxalq Humanitar Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, habelə BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu, UNESCO-nun xüsusi sessiyalarının və onlarla digər əhəmiyyətli tədbirlərin keçirilməsi nəticəsində Bakı qlobal münasibətlər sistemində nüfuzlu beynəlxalq siyasi meydanlardan birinə çevrilib. Azərbaycan “Sülh naminə tərəfdaşlıq” Proqramı çərçivəsində NATO-nun etibarlı və fəal tərəfdaşıdır. Ölkəmiz NATO-nun “Sülh naminə tərəfdaşlıq” Proqramı çərçivəsində 1994-cü ildən Alyansın proqramlarında fəal iştirak edir. Azərbaycan Ordusu NATO standartlarına uyğunlaşdırılır və bu çərçivədə Türkiyə ordusu ilə sıx əməkdaşlıq mövcuddur. Bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı, müttəfiqliyi beynəlxalq əməkdaşlığın yeni formatını və etibarlılıq nümunəsini təqdim edir. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən 2021-ci il iyunun 15-də Şuşada imzalanmış Bəyannamə iki ölkə və onun xalqları arasındakı dostluq və qardaşlıqdan çıxış edərək Azərbaycan və Türkiyə arasındakı münasibətləri keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldırdı.

Ümumilikdə türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Türk dünyasını böyük ailə kimi dəyərləndirən Prezident İlham Əliyevin bu birliyin möhkəmləndirilməsinə töhfələri quruma üzv dövlətlər tərəfindən yüksək dəyərləndirilir. Dövlət başçısı İlham Əliyevin Türk Dünyasının Ali Ordeninə layiq görülməsi də bunun bariz nümunəsidir. Reallıq budur ki, 2009-cu ildə Naxçıvan Zirvə görüşündən ötən müddət ərzində türk dövlətlərinin əməkdaşlıq əlaqələri müxtəlif sahələrdə təsisatlanıb. Bu gün Türk Dövlətləri Təşkilatı (TDT) beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir. Son iki il ərzində Prezident İlham Əliyevin TDT-yə üzv və müşahidəçi dövlətlərə 20-dən artıq səfəri olub. Qardaş dövlətlərin rəhbərləri də həmin dövr ərzində Azərbaycana çoxsaylı səfərlər ediblər. 2024-cü ilin iyul ayında Şuşa şəhərində keçirilmiş TDT Dövlət Başçılarının qeyri-rəsmi Zirvə Görüşündə imzalanmış Qarabağ Bəyannaməsi əməkdaşlığın daha da dərinləşməsinə töhfə verir. Həmçinin 2025-ci il mayın 21-də Budapeştdə TDT Dövlət Başçılarının qeyri-rəsmi Zirvə Görüşü, oktyabrın 7-də isə Qəbələdə TDT Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirildi və Bəyannamə imzalandı.

## Xalqa Zəfər bəxş edən Müzəffər Ali Baş Komandan

Azərbaycanın iqtisadi nailiyyətləri ordu quruculuğu sahəsində də uğurlu addımları şərtləndirir. Ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf edən Azərbaycan Silahlı Qüvvələri bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz xalqına Qələbəni bəxş etmiş müzəffər orduya çevrilib. Azərbaycanda 2003-cü ildən etibarən ordu quruculuğu məsələləri dövlət siyasətinin prioriteti kimi müəyyən olunmuşdur. Planlı və ardıcıl şəkildə görülmüş işlər Azərbaycan Ordusunu dünyanın ən güclü 50 ordusu sırasına yüksəltdi. Ötən dövrdə Silahlı Qüvvələrin maddi-texniki təchizatının yenilənməsi, müasir infrastrukturun yaradılması, hərbi qulluqçuların sosial müdafiəsi, mənzil təminatının yaxşılaşdırılması, həmçinin müdafiə sənayesinin inkişaf etdirilməsinə Prezident İlham Əliyev tərəfindən xüsusi diqqət ayrılıb. Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilir. Azərbaycanda mindən çox hərbi təyinatlı məhsul istehsal edilir. Dünyanın aparıcı beynəlxalq sərgilərində Azərbaycanın hərbi məhsulları nümayiş olunur. Bu cür nailiyyətlər Azərbaycana öz ordusunu zəruri silah, sursat və texnika ilə təchiz etmək üçün əvəzsiz imkanlar yaradıb. Milli Ordunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması daim diqqət mərkəzindədir.

Azərbaycan Silahlı Qüvvələri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsində, 2023-cü ilin sentyabrında həyata keçirdiyi bir günlük antiterror tədbirlərində hansı gücə malik olduğunu nümayiş etdirdi. Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. 2023-cü ilin sentyabrında suverenliyimizin bütün ölkə ərazisində tam bərpası ilə Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə, Əsgəranda Azərbaycan Bayrağı ucaldıldı.

Azərbaycan yalnız döyüş meydanında deyil, informasiya cəbhəsində də üstünlüyünü qorudu. Prezident İlham Əliyevin Vətən müharibəsi dövründə dünyanın ən nüfuzlu media qurumlarına verdiyi 30-dan çox müsahibədə münaqişə ilə bağlı əsl həqiqətlər beynəlxalq ictimaiyyətə çatdırıldı. İnformasiya savaşının əsas konturlarını təşkil edən bu müsahibələr milli mətbuatımızın fəaliyyətinə istiqamət verdi. Müzəffər Ali Baş Komandanın müharibə ilə bağlı müsahibələri XXI əsr üçün yeni üslub, yeni model nitq strategiyası kimi qəbul edildi. Müsahibələri real mübarizə vasitəsinə çevirən Azərbaycan Prezidenti bu müharibədə də qalib gəldi. Müzəffər Ali Baş Komandan xarici media qurumlarına müsahibələri ilə münaqişəyə münasibətdə dünya ictimaiyyətində uzun illər ərzində formalaşmış fikirləri dəyişdirməyə müvəffəq oldu.

*(ardı var)*

***Vüqar RƏHİMZADƏ,***
***Milli Məclisin deputatı***

**Spiker Sahibə Qafarovanın sədrliyi ilə keçirilən iclasda əvvəlcə Milli Məclis adından Azərbaycan Prezidenti İlham Əliyevə doğum günü münasibətilə təbrik məktubu ünvanlandı. Bununla bağlı S.Qafarova çıxışında dedi: “Möhtərəm İlham Əliyev fəaliyyətinin miqyasına və əhəmiyyətinə görə milli tariximizdə müstəsna yeri olan siyasi və dövlət xadimidir. Eyni zamanda, o, dünya siyasətinin tanınmış və nüfuzlu şəxsiyyətlərindən biridir. Müasir Azərbaycanın dinamik iqtisadiyyata malik olan, regional və qlobal proseslərdə önəmli rol oynayan dövlət kimi inkişaf etməsi İlham Əliyevin uzaqgörən daxili və xarici siyasəti ilə bağlıdır.**

# Milli Məclisin növbəti plenar iclası

*Parlament təhsil, enerji və məhkəmə ilə bağlı qanunlara dəyişiklikləri qəbul etdi*



Məhz onun fenomenal liderlik məharəti, strateji baxışı, əzmi və cəsarəti sayəsində Azərbaycan sabitlik və quruculuq məkanına çevrilib, dövlətimiz keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Təklif edirəm ki, doğum günü münasibətilə möhtərəm Prezidentimizə Milli Məclis adından təbrik məktubu ünvanlayaq və Azərbaycan dövlətinin daha da möhkəmlənməsi və inkişaf etməsi naminə dəyərli fəaliyyətində ona böyük uğurlar arzulayaq”.

Cari məsələlərin müzakirəsi zamanı da deputatlar ölkə başçısını doğum günü münasibətilə təbrik etdilər. Zahid Oruc, Mübariz Qurbanlı, Azər Kərimli, Azər Badamov, Nigar Məmmədova, Fazil Mustafa və digərləri Prezidentə həm şəxsi, həm də təmsil etdikləri seçki dairələri adından təbriklərini çatdırdılar, onun rəhbərliyi ilə müasir və müstəqil Azərbaycanın davamlı inkişaf yolunda inamla irəlilədiyini vurğuladılar.

Daha sonra gündəlikdəki məsələlərin müzakirəsinə keçildi. İlk olaraq “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında 2017-ci il 31 oktyabr tarixli Sazişə Əlavə Protokol”un və “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair 2021-ci il 19 fevral tarixli Protokola Əlavə Protokol”un təsdiq edilməsi barədə qanun layihələri dinlənildi. Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov hər iki qanun layihəsi barədə ətraflı məlumat verdi. Komitə üzvü Siyavuş Novruzov qanun layihəsi ətrafında çıxışında bildirdi ki, ölkəmizdə Türkiyə məktəblərinin üstünlük təşkil etməsi vacibdir: “Azərbaycanda müxtəlif ölkələrin məktəbləri fəaliyyət göstərir. Məsələn, Avropa, yaxud rus məktəbləri. Hesab edirəm ki, Türkiyə məktəbləri üstünlük təşkil etməlidir. Türkiyədə hərbi təhsil alan azərbaycanlı tələbələrin ordumuzun gələcəkdə NATO standartlarına uyğun qurulmasında yeri və rolu böyükdür”.

Mədəniyyət komitəsinin sədri Fazil Mustafa çıxışında dedi ki, Türkiyə ilə çox sayda protokolllar imzalansa da, Türkiyə–Azərbaycan Universitetinin yaradılmasına hələ nail olunmayıb: “Nümunəvi Türkiyə–Azərbaycan Universiteti üçün addımlar atıldı, amma bu məsələni nüfuzlu bir universitetə çevirə bilmədik. Digər sahələrdə çox gözəl əlaqələrimiz var. Amma təhsildə sənəddən o tərəfə gedəcək bir sıra məqamları gerçək həyatda tətbiq edə bilmirik”.

Müzakirələrdən sonra Milli Məclis Azərbaycan və Türkiyə arasında təhsil və peşə təhsili sahəsində əməkdaşlıqla əlaqədar əlavə protokolları ratifikasiya etdi, sənədlər müzakirələrdən sonra səsverməyə qoyularaq bir oxunuşda qəbul edildi.

Daha sonra gündəlikdəki növbəti məsələ – “Azərbaycan Respublikası ilə Oman Sultanlığı arasında vizadan qarşılıqlı azad edilməyə dair” Sazişin ratifikasiyası haqqında qanun layihəsi müzakirəyə çıxarıldı. Layihəni Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov təqdim etdi. Qanun layihəsi müzakirələrdən sonra səsverməyə çıxarılaraq bir oxunuşda qəbul edildi.

Deputat Anar İsgəndərov “Ümumi təhsil haqqında” qanun layihəsinin əvvəlki oxunuşlarda səsləndirilmiş müddəalarının qüvvədə qaldığını və əlavə təkliflərin olmadığını bildirdi. Dəyişikliklərə əsasən, müəllimlərin işə qəbulu (MİQ) ilə əlaqədar keçirilən müsabiqədə iştirak ödənişli olacaq. Ödəniş ilk dəfə müsabiqədə iştirak edənlər, əlilliyi olan şəxslər, ünvanlı dövlət sosial yardımı alan ailələrin, şəhid ailəsinin üzvləri və Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə “Müharibə veteranı” adı almış şəxslərə münasibətdə nəzərdə tutulmayıb. Qanun layihəsi müzakirələrdən sonra səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edildi.

Müzakirəyə çıxarılan “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında”, “Məhkəmələr və hakimlər haqqında” və “Məhkəmə-Hüquq Şurası haqqında” qanunlara edilən dəyişikliklər müzakirələrdən sonra səsverməyə çıxarılaraq üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələlər – “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə MM-in Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Kamal Cəfərov məlumat verdi. Deputat qanun layihəsinin əvvəlki oxunuşlardan cüzi fərqləndiyini, mətnə “Azərbaycan Respublikasının Qanunu” ifadəsinin əlavə olunduğunu qeyd edərək, sənədin səsverməyə çıxarılmasını təklif etdi. Səsvermədən əvvəl məsələ ilə bağlı Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov təkliflə çıxış etdi. Deputat tibb fakültəsi məzunları üçün hərbi xidmət zamanı qısamüddətli, maaşlı və ixtisaslarına uyğun təşkil olunmasını təklif etdi. Onun sözlərinə görə, tibb fakültəsi məzunlarının hamı kimi hərbi xidmətə cəlb olunması onların şəxsi karyerasına və səhiyyə sisteminin davamlılığına təsir göstərir: “Hesab edirəm ki, biz Türkiyə, İsrail və Cənubi Koreyadakı yeni yanaşmaları tətbiq etməliyik. Yanaşma odur ki, tibb fakültəsi məzunlarının hərbi xidməti qısamüddətli, maaşlı və ixtisaslarına uyğun təşkil olunur. Məqsəd kiməsə güzəşt etmək deyil, dövlətin ehtiyaclarını daha ağıllı şəkildə qarşılamaqdır. Bunun sayəsində ordu real tibbi xidmət qazanacaq, dövlət isə kadr itirməyəcək". Müzakirələrdən sonra qanun layihəsi səsverməyə qoyularaq ikinci oxunuşda qəbul edildi.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov plenar iclasın gündəliyinə çıxarılan “Dövlət rüsumu haqqında” və “Daşınmaz əmlakın dövlət reyestri haqqında” qanunlara dəyişiklik edilməsi barədə qanun layihəsinin ikinci oxunuşda səsverməyə çıxarılmasını təklif etdi. Deputat Razi Nurullayev qanun layihəsi ətrafında gedən müzakirələr zamanı bəzi problemlərin qaldığını bildirdi: “Prezident tərəfindən sənədsiz obyektlərin sənədləşdirilməsi ilə bağlı əlavə tədbirlər imzalanıb və bunun məqsədi sahibkarların fəaliyyətini asanlaşdırmaq, iqtisadiyyata dəstək verməkdir. Lakin 18 mindən çox müraciətə baxmayaraq, təxminən 4-5 min obyekt sənədləşdirilib. Bu, onu göstərir ki, hər beş sahibkardan dördü hələ də nəticə əldə edə bilmir”. Deputat prosedurların sadələşdirilməsi, cavab müddətlərinin konkret müəyyən edilməsi və portal qeydiyyatı vaxtının uzadılmasının vacibliyini vurğuladı: “Fərmanın məqsədi düzgün olsa da, icra mexanizmi zəifdir və aidiyyəti qurumlar üzərinə düşən vəzifələri tam yerinə yetirmir”. Qanun layihəsi ətrafında digər deputatlar da çıxış etdilər. Müzakirələrdən sonra sənəd səsverməyə çıxarılaraq ikinci oxunuşda qəbul olundu.

Son olaraq, Əmək, Cinayət, Vergi və Cəzaların İcrası məcəllələrində dəyişiklik edilməsi barədə qanun layihələrinin hər biri ikinci oxunuşda səsverməyə çıxarılaraq qəbul edildi. Bununla da MM-in növbəti plenar iclası başa çatdı.

***Tacir SADIQOV***
***XQ***

# TRIPP, Rusiya–Ermənistan münasibətləri və Azərbaycan amili

*Moskva “göz yaşlarına” inanacaqmı?*

**Ermənistanın baş naziri Nikol Paşinyan MDB-nin Sankt-Peterburqda keçirilən qeyri-rəsmi sammiti çərçivəsində Rusiya Prezidenti Vladimir Putinlə görüşü zamanı bildirib ki, ölkəsi hazırda TRIPP marşrutunun icrasına və tikintisinə başlanması məsələsi üzrə konstruktiv ikitərəfli danışıqlar aparır. Əlbəttə, Nikolun ABŞ-la danışıqlar barədə Kreml rəhbərini məlumatlandırması adi məsələ sayıla bilməz. Onun aşağıdakı fikirləri də həmçinin: “Bu, regionumuzda həqiqətən çox böyük və məzmunlu dəyişikliklər deməkdir. Burada Rusiya Federasiyası ilə ikitərəfli münasibətlərimizə aid çoxlu nüanslar da var. Bu gün, düşünürəm ki, bu məsələləri müzakirə etmək üçün çox yaxşı fürsət yaranıb”.**



Qeyd edək ki, Paşinyan Putinə avqustun 8-də Vaşinqtonda Ermənistanın Azərbaycanla ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Birgə Bəyannamə imzalamasından sonrakı telefon danışığını xatırladıb. “Biz 8 avqustdan sonra (Vaşinqton sammiti – red.) telefon danışığımızda qeyd etmişdik ki, əldə olunmuş sülh Ermənistan və Rusiya arasında ikitərəfli münasibətlərin daha da inkişafı üçün yeni imkanlar açır. Bu, artıq baş verib, çünki qatarlar Rusiyadan Ermənistana Azərbaycan üzərindən tranzitlə gəlməyə başlayıb”, - deyən Paşinyan haqlıdır. Nəzərə alaq ki, hazırda Rusiyadan Ermənistana Azərbaycan üzərindən daşımalara start verilməsi ölkəmizin jestidir. Nikol buna görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib. Özü də bir neçə dəfə. Amma...

Ümumən, Rusiya və Ermənistan üçün daşımaların Azərbaycan vasitəsilə reallaşdırması sərfəlidir. “Əmma” Paşinyanın TRIPP-dən söz açması fonunda rəsmi Moskvanın tranzitin sırf bu xətlə gerçəkləşməsinə razılığıdır. Məsələnin müəmmalı tərəfi budur. Putinin dedikləri də fikrimizin təsdiqidir. Belə ki, o, Moskva və İrəvan arasında münasibətlərin inkişaf etdiyini, qarşılıqlı ticarət dövriyyəsi göstəricilərinin artdığını vurğulayıb, həmçinin atom enerjisi layihələri daxil olmaqla, energetika sahəsində əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu diqqətə çatdırıb. Məsələyə mövcud kontekstdən yanaşsaq, Paşinyanla Rusiya liderinin mövqeyinin bir-birindən fərqləndiyini deyə bilərik və fikrimizi əsaslandıracağıq.

Bəli, hazırda Azərbaycan üzərindən Rusiyadan Ermənistana daşımalar Prezident İlham Əliyevin Paşinyana jestidir. Bir məqam da var ki, Rusiya torpaqlarımızın işğalda qaldığı dönəmlərdə də Ermənistana Azərbaycan üzərindən tranzitdə maraqlı idi. Çünki ənənəvi Rusiya-Gürcüstan-Ermənistan xətti və əksinə daşımalar coğrafi şərait baxımından əlverişsizdir və




ən optimal yol Azərbaycandan keçir. Bir “əmma”da budur ki, hazırkı yeni tranzitdə Rusiya-Azərbaycan-Ermənistan deyil, Rusiya-Azərbaycan-Gürcüstan-Ermənistan xətti işləkdir və bu, hələ TRIPP demək deyil.

Daha bir “əmma”, loru dildə desək, Paşinyan dağdan, Putinin dərədən danışmasıdır. Yəni ikinci ölkəsinin Ermənistanla ənənəvi əməkdaşlıq sektorlarını yada salır, TRIPP-in timsalında yeniliyə yaxın durmayan təəssüratı yaradır. “Keçən görüşümüzdə Siz birgə işləyə biləcəyimiz müxtəlif istiqamətlər üzrə məsələlər qaldırmışdınız; köhnə marşrutların bərpasını, Ermənistanın sərhədlərini açan yeni marşrutların yaradılmasını nəzərdə tuturdunuz”, - deyən Putinin, əslində, konkret nə isə demədiyi aşkardır.

Məlumdur ki, Rusiyanın yanaşmasında TRIPP ABŞ-ın Cənubi Qafqaza gəlişi anlamını verən hadisədir. Paşinyan nə qədər bu marşrutun Moskvaya xeyri dəyəcəyini bildirsə də, onun Putinə söylədikləri bir elə əhəmiyyət daşımır. Ola bilər, Rusiya lideri Nikola belə söhbətləri onunla edəcək adam olmadığı mesajını verir, İrəvanın təminatına ya inanmır, ya da ciddi yanaşmır. O zaman daha hansı təminat lazımdır. Əlbəttə, ağla, ilk növbədə, Azərbaycan gəlir.

Paşinyan indi TRIPP-in Rusiya-Ermənistan iqtisadi münasibətlərinə faydalarından söz açırsa, Prezident İlham Əliyev zamanında məsələyə daha qlobal müstəvidə yanaşmışdı. Bu baxımdan dövlətimizin başçısının avqustun 26-da Səudiyyə Ərəbistanının “Əl-Ərəbiyyə” telekanalında yayımlanmış müsahibəsindəki fikirlərə nəzər salmaq vacibdir. Ölkəmizin lideri müsahibəsində əvvəlcə TRIPP-in Ermənistana faydasından söz açmış, Orta Dəhlizin bir qolunun - Asiyadan Xəzər dənizi üzərindən gedən yolun Azərbaycandan Gürcüstana, Türkiyəyə və sonra Avropaya, həmçinin Gürcüstan limanlarına çıxdığını vurğulamaqla, bunun Asiyanı Avropaya Azərbaycanın ərazisindən birləşdirən yeganə yol olduğunu diqqətə çatdırmış, Zəngəzur dəhlizinin və ya TRIPP-in alternativ yaradacağını dilə gətirmişdi: “İkinci dəhliz Ermənistan ərazisindən keçəcək. Bu isə Ermənistan üçün faydalıdır. Mən bu mesajı erməni həmkarlarıma çatdırmağa çalışmışam ki, nəticədə onlar tranzit ölkəyə çevriləcəklər. Potensialı varsa, hər bir ölkə tranzit ölkəyə çevrilməyə çalışır. Məsələn, biz tranzit ölkə olmaq istəyirik. İstəyirik ki, Şərqdən Qərbə, Şimaldan Cənuba dəhlizlər Azərbaycandan keçsin. Ermənistan isə işğal səbəbindən bu imkanlardan məhrum olmuşdu. Ölkədən keçən tranzit yoxdur. Zəngəzur dəhlizi sayəsində Ermənistan nəqliyyatdan tranzit haqqı əldə edəcək. Azərbaycanın ərazisi vasitəsilə Asiyadan Avropaya daşınan yüklərin həcminin hər il artdığını nəzərə alsaq, əminəm ki, Zəngəzur dəhlizi qitələri birləşdirən vacib nəqliyyat əlaqəsi olacaq”.

Prezident İlham Əliyev müsahibəsində Rusiyanın TRIPP-dən faydalarını sadalayarkən, Zəngəzur dəhlizinin İranda mövcud olan Şimal dəhlizinə dəstək olacağını vurğulamış və əsaslandırmışdı ki, əvvəlcə planlaşdırılmış və layihələndirilmiş Şimal-Cənub dəhlizi Şimaldan, Şimali Avropadan, Rusiyadan, Azərbaycandan, İrandan, Fars körfəzindən düz xətlə gedir. “Xəritəyə baxsanız, o, Azərbaycan ərazisindən, qismən də Xəzər dənizinin sahilindən keçməkdədir”, - deyən dövlətimizin başçısı bütün yolların bir nöqtədə birləşməsinə diqqət çəkmişdi. Azərbaycan lideri, habelə, ölkəmizin Rusiya sərhədindən İran sərhədinədək dəmir və magistral yolları əlaqəsinə malikliyi üzərində dayanmış, Şimalla Cənub arasındakı əlaqələrin necə qurulacağı məsələsinə aydınlıq gətirərəkən, Zəngəzur dəhlizinin birləşdirici əhəmiyyətini vurğulamışdı: “Xəritəni göz önünə gətirsəniz, həmin yol Şimali Avropadan Rusiyaya, Azərbaycana, sonra Azərbaycandan Zəngəzura gedə, Naxçıvana daxil ola, - və oradan isə bizim İranla dəmir yolu əlaqəmiz var, - və onunla Fars körfəzinə çıxmaq olar. Deməli, əslində, Zəngəzur dəhlizi təkcə Şərq-Qərb deyil, həm də Şimal-Cənub nəqliyyat dəhlizi olacaq. Deməli, Rusiyadan Azərbaycana, İrana gedən Şimal-Cənub marşrutundan əlavə, bizim digər marşrutumuz da olacaq - Rusiyadan Azərbaycana, Ermənistana, Naxçıvana və İrana. Beləliklə, düşünürəm ki, bütün region üçün hamının udacağı vəziyyət yaranacaq və heç kim bundan itirməyəcək”.

Göründüyü kimi, Prezident İlham Əliyevin söylədikləri həm Rusiya, həm də İran üçün təminatdır. Söhbət konkret Rusiyadan gedirsə, TRIPP mahiyyət etibarilə, yük daşımalarının bu ölkənin ərazisindən yan keçməklə reallaşdırılmasını nəzərdə tutsa da, məqsəd heç də onun təcridi deyil. Başlıca məqam zaman və məsafənin azaldılması, enerji və ticarət axınlarının şaxələndirilməsidir. Yəni ilk baxışdan TRIPP Şimal marşrutuna (Transsibir, Şimal Dəniz Yolu) rəqibdir. Amma duruma itki kontekstində yanaşılmamalıdır. Çünki Rusiyanın yeni marşrutda dolayı iştirak və inteqrasiya imkanı var. Yəni ölkə tam kənarda qalmaq əvəzinə, Qazaxıstan və Xəzər üzərindən ona bağlana bilər. İndiki şəraitdə bu, Rusiyanın regional nəqliyyat sistemindən tam təcridinin qarşısını alacaq. Axı sanksiyalar şəraitində Rusiya üçün Mərkəzi Asiya, Cənubi Qafqaz, Yaxın Şərq ilə ticarət həyati əhəmiyyət kəsb edir. TRIPP bu regionlara çıxışda logistik elastiklik yaratmaq potensialındadır.

Digər tərəfdən, Rusiya nəqliyyat xətlərində pay sahibi olduqda, geosiyasi təsirini qoruyacaq, Qafqaz və Xəzərdə prosesləri izləmək imkanını saxlayacaq. Əlbəttə, Moskva üçün əks göstərişlər də vurğulanmalıdır. Məsələn, onun tranzit monopoliyasının zəifləməsini, Avropa–Asiya ticarətindəki rolunun azalmasını, Türkiyə və Azərbaycanın nəqliyyat mərkəzi kimi güclənməsini, Çin üçün alternativlərin çoxalmasını vurğulamaq mümkündür. Hərçənd, çox istəyən azdan da olur. Onsuz da Rusiya üçün çəmbər daralır. Tarana getmək nəyə lazımdır? Əksinə, anlaşmaqda fayda var.

Sonda Paşinyanla Putinin görüşünün birincinin TRIPP-dən söz açması, ikincinin susqunluğu fonundakı nəticələri üzərində dayanaq. Məlumdur ki, Ermənistan alternativ nəqliyyat oriyentasiyası axtarışındadır. Belə bir durumda TRIPP ABŞ-ın regiona logistika vasitəsilə institusional girişinin möhkəmlənməsi deməkdir. Moskva bu prosesdən tam kənarda qalmaq istəmir, amma nəzarəti itirməkdən çəkinir. Putinin açıq etiraz etməməsi Kremlin qarşıdurma istəmədiyini, prosesə şərtlərlə yanaşdığını göstərir. Belə bir şəraitdə Rusiyanın mümkün “qırmızı xətləri” ölkənin yük və kapitalının marşrutdan kənarda qalmaması, Ermənistanın Aİİ və MDB öhdəliklərini pozmamasıdır. Deməli, hər bir halda, başlıca məsələ erməni hakimiyyətinin TRIPP-ın əvvəlcədən müəyyənləşmiş fəlsəfəsinə zidd davranmamasından, marşrutun bərabərtərəfli iqtisadi fayda kazusunu regionda Qərbin xeyrinə siyasi vasitəyə və alətə çevirməməsindən asılıdır. Paşinyan hakimiyyəti iradə göstərib Fransanın timsalında Avropa İttifaqının anti-Rusiya cəbhəsində iştirakdan boyun qaçıra biləcəkmi, bunu əlahəzrət zaman göstərəcək.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Xarici İşlər Nazirliyi xəbər verir



**Dekabrın 23-də xarici işlər naziri Ceyhun Bayramov ilə BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatının (UNESCO) yeni seçilmiş Baş katibi Xaled El-Enani arasında telefon danışığı aparılıb.**

Nazir müsahibini UNESCO-nun Baş katibi vəzifəsinə seçilməsi münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Tərəflər Azərbaycanla UNESCO arasında mövcud əməkdaşlığı yüksək qiymətləndirərək, gələcəkdə bu münasibətlərin daha da inkişaf etdirilməsi üçün hazır olduqlarını bildiriblər. Azərbaycanın çoxtərəfli diplomatiya və mədəniyyətlərarası dialoq sahəsindəki rolu vurğulanıb. Bu çərçivədə ölkəmizin təşəbbüsləri və UNESCO üzrə planlar müzakirə olunub.

Nazir 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13), Bakı prosesi, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu barədə məlumat verib və Baş katibi bu tədbirlərdə iştiraka dəvət edib.

*

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Yunanıstanın ölkəmizdə yeni təyin olunmuş səfiri Mariya Papakonstantinu ilə görüşüb.**

Söhbət zamanı səfir Mariya Papakonstantinu etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. Nazir səfiri təyinatı münasibətilə təbrik edib, ona diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə Azərbaycan ilə Yunanıstan arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın mövcud vəziyyəti, habelə regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Dövlət və hökumət başçılarımız arasında baş tutan təmasların və aparılan müzakirələrin əlaqələrimizin təməlini təşkil etməklə yanaşı, əməkdaşlığımıza təkan verdiyi bildirilib. İkitərəfli siyasi dialoqun, o cümlədən Xarici İşlər nazirlikləri arasında siyasi və konsulluq məsləhətləşmələrinin mütəmadi qaydada keçirilməsinin əhəmiyyəti vurğulanıb.

Səfir Mariya Papakonstantinu qəbul üçün təşəkkürünü ifadə edib və fəaliyyəti dövründə Azərbaycan-Yunanıstan münasibətlərinin inkişafına töhfə verilməsi məqsədilə səylərini əsirgəməyəcəyini bildirib.

*XQ*

# Bakı–Vaşinqton tandemi və bölgədə yeni balans

**Son illər beynəlxalq münasibətlər sistemində baş verən sürətli və çoxşaxəli dəyişikliklər Cənubi Qafqazın geosiyasi çəkisini əhəmiyyətli dərəcədə artırıb. Bu strateji məkanda Azərbaycan yalnız regional aktor kimi deyil, Avrasiya miqyasında sabitlik, əməkdaşlıq və qarşılıqlı faydaya əsaslanan yeni münasibətlər modelinin təşəbbüskarı və aparıcı qüvvəsi kimi çıxış edir. ABŞ da bu reallığı qəbul edir və Azərbaycanın artan rolunu xarici siyasət strategiyasının mühüm elementi kimi qiymətləndirir.**



ABŞ Dövlət katibi Marko Rubionun açıqlamaları da bu reallığı təsdiqləyir. O qeyd edir ki, Vaşinqton beynəlxalq münaqişələrə daha praqmatik, nəticəyönümlü və realist yanaşmaq niyyətindədir. Azərbaycana münasibət də bu reallıqdan irəli gəlir. Bakı Qarabağ münaqişəsinin hərbi mərhələsini uğurla başa çatdırdıqdan sonra sülh gündəliyini irəli sürərək regionda uzunmüddətli sabitliyin təməlini qoyub. Bu baxımdan, Vaşinqton Sülh Sammiti mühüm siyasi hadisə kimi qiymətləndirilir. ABŞ-ın vasitəçiliyi ilə baş tutan görüş, sadəcə diplomatik jestlərlə kifayətlənmədi, konkret öhdəliklər və razılaşmalarla yadda qaldı. Bu fakt Azərbaycanın sülh təşəbbüslərinin beynəlxalq tərəfdaşlar tərəfindən dəstəkləndiyini və regionun gələcəyi ilə bağlı qərarların artıq yeni geosiyasi reallıqlar əsasında verildiyini göstərdi. Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üzrə Strateji İşçi Qrupunun ilk iclasının keçirilməsi isə münasibətlərin institusional əsaslar üzərində qurulduğunu təsdiqlədi.

ABŞ-ın yeni strateji baxışında TRIPP təşəbbüsünün mərkəzində məhz Azərbaycan dayanır. Amerika–Azərbaycan Ticarət Palatasında keçirilən dəyirmi masa müzakirələri Vaşinqtonun layihəyə ciddi marağını təsdiqləyir. Azərbaycanın ABŞ-dakı səfiri Xəzər İbrahimin qeyd etdiyi kimi, mövcud siyasi impulsdan səmərəli istifadə etmək strateji baxımdan xüsusi əhəmiyyət daşıyır və region üçün yeni imkanlar açır.

Bəli, bu gün Azərbaycan ABŞ üçün həm geosiyasi, həm də geoiqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edir. Region Avrasiya məkanında tranzit körpü rolunu oynayır və Rusiya və İran arasında yerləşməsi onu strateji cəhətdən qiymətli edir. Xəzər hövzəsinin zəngin enerji ehtiyatları isə Vaşinqtonun maraqlarını formalaşdıran əsas amillərdəndir. Bu səbəbdən ABŞ uzun illər bölgədə təhlükəsizlik, enerji və institusional islahatlar kimi prioritet sahələrə xüsusi diqqət ayırır. Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu qlobal səviyyədə qəbul olunur. Ölkəmiz qitənin etibarlı enerji təchizatçısına çevrilib və mövqeyini gündən-günə möhkəmləndirir.

Yeni əməkdaşlıq sahələri də sürətlə genişlənir. Enerji və təhlükəsizliklə yanaşı, rəqəmsal iqtisadiyyat, süni intellekt, yüksək texnologiyalar və "yaşıl enerji" Azərbaycanın strateji önəmli istiqamətlərinə çevrilir.

ABŞ-ın Mərkəzi Asiyaya artan marağı da Azərbaycanın strateji mövqeyini gücləndirir. Nadir torpaq metalları sahəsində Çin asılılığının azaldılması ehtiyacı Mərkəzi Asiya ilə əməkdaşlığı vacib edir və həmin regiona ən etibarlı çıxış yolu Azərbaycan üzərindən keçir. Beləliklə, Bakı yalnız nəqliyyat qovşağı deyil, həm də qlobal iqtisadi və texnoloji zəncirlərin mühüm halqasına çevrilir.

Eyni zamanda, Azərbaycanın Türk Dövlətləri Təşkilatındakı lider mövqeyi və Mərkəzi Asiya ölkələri ilə sıx əlaqələri də iki dövlət arasında bu prosesi sürətləndirir. Bu barədə "The National İnterest" nəşri yazıb. Bildirilir ki, C5 formatının C6-ya genişlənməsi və Azərbaycanın fəal iştirakı vahid regional baxışın formalaşdığını göstərir. ABŞ-ın C6+2 kimi daha geniş əməkdaşlıq mexanizmlərini nəzərdən keçirməsi isə Bakının mərkəzi rolunun beynəlxalq səviyyədə qəbul olunmasını göstərir.

Bütün bu reallıqlar fonunda ABŞ Konqresində 907-ci düzəliş məsələsinin yenidən gündəmə gəlməsi artıq onun öz aktuallığını itirdiyini göstərir. Bu düzəliş 1992-ci ildən bəri qüvvədə olmaqla, Azərbaycanla ABŞ arasında birbaşa hərbi və təhlükəsizlik sahəsində əməkdaşlığı ciddi şəkildə məhdudlaşdırıb. Lakin son illər Azərbaycan–ABŞ münasibətlərində müşahidə olunan dinamik inkişaf, qarşılıqlı maraqlara əsaslanan strateji əməkdaşlıq və regionda təhlükəsizlik balansının yeni reallıqları bu düzəlişin tətbiqinin artıq aktual olmadığını göstərir.

Onun ləğvi yalnız simvolik əhəmiyyət daşımaqla kifayətlənməyəcək, eyni zamanda, Azərbaycan–ABŞ münasibətlərinin daha da dərinləşməsinə, qarşılıqlı etimadın möhkəmlənməsinə və iqtisadi, hərbi və humanitar sahələrdə əməkdaşlığın effektivliyinin genişləndirilməsinə xidmət edəcək. Bundan əlavə, 907-ci düzəlişin aradan qaldırılması ABŞ-ın regiondakı strateji maraqlarının daha geniş və çevik şəkildə həyata keçirilməsinə imkan yaradar, Amerikanın regiondakı mövqeyini gücləndirər və regional təhlükəsizlik arxitekturasında ABŞ-ın rolunu daha təsirli edərdi. Düzəlişin ləğvi həm Azərbaycan, həm də ABŞ üçün qarşılıqlı faydalı nəticələr doğurmaqla yanaşı, regional sabitliyin təmin olunmasına da mühüm töhfə verə bilər.

Beləliklə, Şərqlə Qərb arasında təhlükəsiz və dayanıqlı dəhlizin formalaşması, Cənubi Qafqazda uzunmüddətli sülhün təmin olunması və Avrasiyada yeni iqtisadi-siyasi balansın yaranması birbaşa Azərbaycanın mövqeyi və təşəbbüsləri ilə bağlıdır. Vaşinqtonun Bakıya periferik tərəfdaş deyil, formalaşmış və məsuliyyətli strateji dövlət kimi yanaşması həm ABŞ-ın qlobal maraqlarına, həm də regionda sabit və proqnozlaşdırılan gələcəyin qurulmasına xidmət edir. Mövcud geosiyasi şərait göstərir ki, bu imkan pəncərəsi uzun müddət açıq qala bilməz, lakin Azərbaycanın bu fürsətdən maksimum faydalanmaq potensialı kifayət qədər güclüdür.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

*Ekspert rəyi*



**Tural İSMAYILOV,**
**politoloq**

Müasir geosiyasi turbulentlik dövründə Azərbaycan, sadəcə, Cənubi Qafqazın deyil, bütövlükdə Avrasiyanın strateji təhlükəsizlik və bağlantı arxitekturasının mərkəzi subyektinə çevrilib. Ağ Evin yeni administrasiyasının sülhməramlılığı prioritet seçməsi və Bakıya praqmatik yanaşması, Azərbaycanın öz gücü ilə yaratdığı yeni reallıqların Vaşinqton tərəfindən qəbul olunmasıdır. "Tramp marşrutu" (TRIPP) və Orta Dəhliz kimi qlobal layihələrin Bakı mərkəzli formalaşması göstərir ki, ölkəmiz Rusiyanı və İranı yan keçən ən təhlükəsiz və etibarlı logistik qovşaqdır.

Bu gün Azərbaycanın enerji təhlükəsizliyindəki həlledici rolu və Mərkəzi Asiyaya çıxış üçün yeganə qapı olması onu ABŞ-ın xarici siyasətində periferik tərəfdaşdan həlledici müttəfiq səviyyəsinə yüksəldir. C5+1 formatının Azərbaycanın iştirakı ilə C6 müstəvisinə transformasiyası, Türk Dövlətləri Təşkilatındakı liderlik və regional vasitəçilik missiyası Bakının diplomatik manevr imkanlarının miqyasını nümayiş etdirir.

Artıq proseslərin obyekti deyil, subyekti olan Azərbaycan, 907-ci düzəliş kimi köhnəlmiş maneələri tarixin arxivinə göndərməyə qadir olan yeni bir cazibə mərkəzidir. Suverenliyin tam bərpası ilə taclanan bu yol Bakını qlobal iqtisadi və texnoloji zəncirlərin ayrılmaz halqasına çevirib. Mövcud "imkan pəncərəsi" Azərbaycanın milli maraqlarını qlobal ambisiyalarla sintez edən uzaqgörən dövlətçilik fəlsəfəsinin parlaq zəfəridir.

*Xuntaçıların məhkəməsi*

# Erməni hərbçisi son söz hüququndan istifadə edib

**Bakı Hərbi Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası dekabrın 23-də davam etdirilib.**



Hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclası təqsirləndirilən şəxsin son söz çıxışı dinlənilib.

Təqsirləndirilən şəxs Levon Mnatsakanyan Aprel döyüşlərinin planlaşdırılmasında ittiham edildiyini, lakin bunun belə olmadığını söyləyib. O, Aprel döyüşlərində hər şeyin qondarma rejimin "müdafiə rayonlarında" və "diviziyalarda" baş verdiyini və döyüşləri onların özlərinin idarə etdiyini iddia edib. Erməni hərbçi mülki obyektlərin qəsdən vurulmadığını, hərbi obyektləri hədəf aldıqlarını iddia edib, "müdafiə ordusu"nun (Ermənistan silahlı qüvvələrinin ən böyük birləşməsi – red.) silahları Ermənistan silahlı qüvvələrindən aldığını söyləyib.

Vaxtilə artilleriya briqadasının komandiri olmuş L.Mnatsakanyan artilleriya zərbələri nəticəsində meşələrə zərər vurulmasında və abidələrin dağıdılmasında ittihamını da qəbul etməyib və bildirib ki, abidəyə zərəri digər silahlar da vura bilərdi.

Təqsirləndirilən şəxs Tunel və Başlıbel hadisələrində (Tunel və Başlıbel qətliamları – red.) iştirak etmədiyini, yaralanması ilə əlaqədar həmin vaxt müalicə aldığını, fizioterapiya kursu keçdiyini söyləyib və əlavə edib: "O zaman mərkəzi müdafiə rayonunun artilleriyası hələ yeni formalaşırdı".

Məhkəmə prosesi dekabrın 25-də davam etdiriləcək.

*XQ*

*Köşə*



**Müşfiq ƏLƏSGƏRLİ,**
***XQ-nin media eksperti***

## Avropa Parlamentinin qərəzli qətnaməsinin doğurduğu suallar

**Avropa Parlamentinin 18 dekabr 2025-ci il tarixində qəbul etdiyi Azərbaycanla bağlı qətnamə rəsmi olaraq insan hüquqları məsələsinə həsr olunsa da, sənədin özü hüquqi baxımından ciddi suallar doğurur. Hüquqşünaslar qeyd edirlər ki, plenar sessiyada qəbul olunan bu sənədin müstəqil hüquqi ekspertizası və ya yerində monitorinqə əsaslanması barədə məlumat yoxdur. Bu, "Avropa Parlamentinin öz mandatından kənara çıxaraq, faktiki olaraq, məhkəmə və istintaq orqanı funksiyasını mənimsəməsi" kimi qiymətləndirilir.**

Qətnamədə Azərbaycanda, guya, dinc tənqidin və ictimai fəallığın cinayət əməli kimi dəyərləndirildiyi iddia olunur, milli təhlükəsizlik qanunvericiliyinin ifadə azadlığını və akademik araşdırmaları təhdid etdiyi vurğulanır. Bu kontekstdə Bəhruz Səmədov və İqbal Əbilovun "milli azlıq məsələləri üzrə tədqiqatları" misal göstərilir. Halbuki, adıçəkilən şəxslər milli mövzuda tədqiqat apardıqlarına görə deyil, milli separatizmi təşviq etdiklərinə, tarixi faktları düşmən ölkənin nəfinə saxtalaşdırdıqlarına, casusluq və xəyanətə görə təqsirli bilinib, "vətənə xəyanət" ittihamı ilə həbs ediliblər.

Nəzərə almaq lazımdır ki, təhlükəsizlik anlayışı beynəlxalq hüquqda legitim və tanınmış prinsipdir. BMT Nizamnaməsi, Avropa İnsan Hüquqları Konvensiyası və digər beynəlxalq sənədlər dövlətlərə milli təhlükəsizliyi, konstitusiya quruluşunu və dövlət sirrini qorumaq hüququ verir. Bu prinsiplər dünyanın bütün inkişaf etmiş ölkələrində tətbiq olunur. O kontekstdə yanaşsaq, qətnamədə adıçəkilən şəxslərlə bağlı "siyasi məhbus" ifadəsinin işlənməsi hüquqi baxımdan əsassızdır. Onlar siyasi baxışları və ya etnik mənsubiyyətinə görə deyil, konkret cinayət əməllərinə görə məsuliyyətə cəlb olunublar. Dövlətə xəyanət, xarici kəşfiyyat orqanları ilə əməkdaşlıq, milli təhlükəsizliyə qarşı fəaliyyət kimi ittihamlar heç bir ölkədə "akademik azadlıq" anlayışı ilə əsaslandırılmır.

### Qətnamədə siyasi manipulyasiya elementləri

Avropa Parlamentinin qətnaməsi siyasi xarakter daşıyır. Qətnamədə AXCP sədri Əli Kərimlinin "azad edilməsinə" dair çağırışlar səsləndirilir. Dövlət çevrilişinə təşəbbüsdə şübhəli bilinən, istintaqı aparılan bir şəxsin sorğu-sual bitməmiş sərbəst buraxılması hansı hüquqi prosedura əsaslanır? İstintaq bitəcək, yekun qərar veriləcək, sonra prosesə qiymət veriləcək. İstintaq prosesi bitmədən Avropa Parlamentinin bu prosesə qatılması ciddi suallar doğurur. Avropa Parlamentinin bu cür çağırışları faktiki olaraq hüququn aliliyinə deyil, siyasi məqsədə xidmət edir.

Qətnamənin sanksiyalarla hədələmə ritorikası da beynəlxalq hüququn prinsipləri ilə ziddiyyət təşkil edir. Avropa İttifaqının Qlobal İnsan Hüquqları Sanksiyalar Rejimi yalnız beynəlxalq səviyyədə sübut olunmuş, müstəqil məhkəmə qərarları ilə təsdiqlənmiş faktlar əsasında tətbiq edilə bilər. Subyektiv qətnamələr və birtərəfli məlumatlar əsasında sanksiya çağırışları beynəlxalq hüququn legitimliyinə zərbə vurur, Avropa Parlamentini siyasi təzyiq alətinə çevirir.

### İkili standartlar, qərəzli yanaşma

Avroparlamentin qətnaməsi ikili standartların növbəti nümunəsidir. Sənəddə Azərbaycanın suveren hüquqları, ərazi bütövlüyü və təhlükəsizlik maraqları nəzərə alınmır. Ermənistanın uzun illər Azərbaycan ərazilərini işğal altında saxlaması, bir milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsi, mədəni irsin məhv edilməsi faktları Avropa Parlamenti tərəfindən heç vaxt ciddiyə alınmayıb. Bir milyondan çox insanın acınacaqlı taleyi görməzdən gəlinib. İnsan haqları anlayışı məcburi köçkün statusunda olan azərbaycanlılara tətbiq edilməyib. Əgər Azərbaycan dövləti və xalqı Avroparlamenti bu qədər maraqlandırırdısa, nə üçün milyon nəfərlik insanın haqlarının pozulması onların diqqətini çəkmirdi? Bu hüquqi əsasların qurum tərəfindən nəzərə alınmaması beynəlxalq hüquqa selektiv yanaşmanın bariz nümunəsidir.

Aydın şəkildə hiss olunur ki, qətnamədə yer alan ittihamların əksəriyyəti hüquqi sübutlara deyil, birtərəfli mənbələrə və müəyyən lobbi qruplarının təsirinə əsaslanır. Xüsusilə radikal erməni lobbilərinin Avroparlamentdə Azərbaycana qarşı formalaşdırdığı informasiya mühiti sənədin qərəzli mahiyyətini ortaya qoyur. Bu cür qətnamələr regionda sülhün və sabitliyin möhkəmlənməsinə deyil, gərginliyin qorunmasına xidmət edir.

### Avroparlamentin anti-Azərbaycan mövqeyinin səbəbləri

Son illər Avroparlamentin Azərbaycanla bağlı qəbul etdiyi bəyanat və qətnamələrdə ardıcıl şəkildə qərəzli, birtərəfli və selektiv yanaşma sərgiləməsi nə Avropa İttifaqının rəsmi xarici siyasət xəttinə, nə də Aİ-yə üzv ölkələrin Azərbaycanla qurduqları münasibətlərə uyğun gəlir. Mövcud ziddiyyətlər göstərir ki, bu qurumda formalaşan anti-Azərbaycan yanaşma institusional mövqedən deyil, ayrı-ayrı lobbi qruplarının təsirindən qaynaqlanır.

Anti-Azərbaycan bəyanatların hazırlanmasında əsas rol Avropa Parlamentində fəaliyyət göstərən qeyri-rəsmi "Ermənistanla dostluq qrupu"nun üzvlərinə məxsusdur. Sözügedən sənədlər parlamentin adından yayımlansa da, onların müəllifləri eyni siyasi çevrəyə daxil olan məhdud sayda deputatlardır. Bu qrup Azərbaycan–Ermənistan münasibətlərinə dair mövcud beynəlxalq hüquqi reallıqları nəzərə almır.

Avropa Parlamentindəki qərəzli mövqenin formalaşmasında erməni diaspor təşkilatlarının və lobbi şəbəkələrinin xüsusi rolu var. "Ədalət və Demokratiya Naminə Ümumavropa Erməni Federasiyası" (EAFJD) bu istiqamətdə aparıcı strukturlardan biri kimi çıxış edir. Sözügedən təşkilat Avroparlamentin müəyyən üzvləri ilə sıx və davamlı əlaqələr quraraq, onların siyasi mövqelərinə təsir göstərir, bəyanat və təşəbbüslərin koordinasiyasında fəal iştirak edir.

EAFJD rəhbərliyində təmsil olunan şəxslər ətrafında formalaşan şəbəkə klassik diplomatik lobbiçilikdən kənara çıxaraq, qeyri-şəffaf maliyyə, şəxsi maraqlar və qarşılıqlı asılılıq mexanizmləri üzərində qurulmuş təsir modelini xatırladır. Xüsusilə qitənin kiçik dövlətlərində yaradılan lokal təsir imkanları sonradan Avropa strukturlarına çıxış üçün tramplin kimi istifadə olunur.

Digər mühüm amil Avroparlamentin institusional zəifliyi və lobbi qruplarına açıq olmasıdır. Bir sıra hallarda deputatlar xarici münaqişələrdən daxili siyasi dividendlər, maliyyə və ya diaspor dəstəyi əldə etmək məqsədilə istifadə edirlər. Bu isə Aİ-nin Xarici Fəaliyyət Xidmətinin daha balanslı və ehtiyatlı mövqeyi ilə parlamentin emosional və populist yanaşması arasında ciddi fərqlər yaradır. Avropa Parlamentinin anti-Azərbaycan mövqeyi ümum-Avropa maraqlarını əks etdirmir.

# Anadolu və Qafqazın sarsılmaz vəhdəti

## *Azərbaycan–Türkiyə qardaşlığı dünyada yeni birlik örnəyidir*

**Cənubi Qafqazın geosiyasi mənzərəsini müəyyən edən ən mühüm amil, şübhəsiz ki, Azərbaycan və Türkiyə arasındakı sarsılmaz strateji ittifaqdır. Bakıda keçirilən Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclası iki qardaş ölkənin siyasi iradəsinin, strateji hədəflərinin və gələcək vizyonunun növbəti dəfə bəyanına çevrildi. Tarixi köklərə, ortaq mədəniyyətə və milli dəyərlərə söykənən "Bir millət, iki dövlət" fəlsəfəsi bu gün artıq regionun təhlükəsizlik sistemini formalaşdıran, enerji xəritələrini cızan və beynəlxalq münasibətlər sistemində yeni reallıqlar yaradan praqmatik siyasi doktrinadır.**

Bu strateji yaxınlaşmanın bel sütununu 2021-ci il iyunun 15-də imzalanmış tarixi Şuşa Bəyannaməsi təşkil edir. Baş nazir Əli Əsədovun haqlı olaraq vurğuladığı kimi, sənəd iki ölkənin münasibətlərini müttəfiqliyin ən yüksək zirvəsinə qaldırıb. Şuşa Bəyannaməsi tərəflərin hərbi, siyasi və iqtisadi sahədə birgə hərəkət etmək öhdəliyini hüquqi müstəvidə təsbit edən konstitusiya xarakterli sənəddir. Bu bəyannamə ilə Türkiyə Cənubi Qafqazın təhlükəsizlik sisteminin ayrılmaz parçasına çevrilmiş, Azərbaycan isə NATO standartlarına uyğun ordu quruculuğu və regional müdafiə sistemində Türkiyənin imkanlarından yararlanmaq şansı qazanmışdır. Siyasi baxımdan yanaşdıqda Şuşa Bəyannaməsi regionda üçüncü qüvvələrin destruktiv fəaliyyətinə qarşı ən güclü sipər rolunu oynayır, hər hansı xarici təhdid qarşısında Bakı ilə Ankaranın vahid cəbhədən çıxış edəcəyini bütün dünyaya nümayiş etdirir. İki ölkə arasındakı unikal münasibətlər sisteminin memarları, şübhəsiz ki, dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğandır. Liderlər arasında mövcud olan səmimi dostluq, qarşılıqlı etimad və strateji baxış birliyi bürokratik əngəllərin sürətlə aşılmasını, qərarların operativ qəbul edilməsini və ən kritik məqamlarda vahid iradənin ortaya qoyulmasını təmin edir.

İqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın iclasında müzakirə olunan məsələlər və qəbul edilən qərarlar iki ölkə arasındakı iqtisadi inteqrasiyanın dərinliyini və miqyasını göstərir. Vitse-prezident Cevdet Yılmazın fəaliyyət planının yenilənəcəyi barədə bəyanatı tərəflərin dəyişən qlobal iqtisadi konyunkturaya çevik reaksiya verdiyini və əməkdaşlığı yeni dövrün çağırışlarına uyğunlaşdırdığını sübut edir. Ticarət dövriyyəsinin artırılması, qarşılıqlı investisiyaların təşviqi və gömrük prosedurlarının sadələşdirilməsi istiqamətində atılan addımlar vahid iqtisadi məkanın formalaşdırılması hədəfinə xidmət edir. Lakin bu əməkdaşlığın ən strateji və geosiyasi əhəmiyyət kəsb edən hissəsi, şübhəsiz ki, enerji sektorudur. Azərbaycan və Türkiyə arasındakı enerji tərəfdaşlığı, sadəcə, alqı-satqı münasibətləri çərçivəsində qiymətləndirilə bilməz. Bu tərəfdaşlıq Avropanın enerji təhlükəsizliyi arxitekturasının təməl daşlarından biridir və hər iki ölkənin qlobal siyasətdəki çəkisini artıran həlledici amildir.

Geoloji kəşfiyyat və hasilat sahəsində əməkdaşlığın genişləndirilməsi Türkiyənin milli neft şirkəti TPAO-nun Xəzər dənizindəki layihələrdə iştirak payının artırılması rəsmi Ankaranın istehsalçı statusuna yiyələnmək istəyinin göstəricisidir. TPAO-nun Şəfəq–Asiman layihəsində 30 faiz pay alması bu istiqamətdə atılmış tarixi addımdır. Bu, Xəzər dənizinin enerji resurslarının mənimsənilməsində qardaş Türkiyənin birbaşa iştirakını təmin etməklə yanaşı, həm də regionda kənar qüvvələrin monopoliyasını sındırmaq və yerli güclərin dominatlığını təmin etmək baxımından müstəsna əhəmiyyətə malikdir.



Enerji gündəliyinin ən aktual və müzakirə doğuran mövzularından biri Abşeron qaz-kondensat yatağıdır. 350 milyard kubmetr qaz və 45 milyon ton kondensat ehtiyatına malik olduğu ehtimal edilən yataq Azərbaycanın qaz ixracı potensialının artırılmasında və Türkiyənin artan enerji tələbatının ödənilməsində həlledici rol oynamaq potensialına sahibdir. Artıq Bakı və Ankara arasında 2029-cu ildə istismara verilməsi nəzərdə tutulan yataqdan qaz tədarükü ilə bağlı danışıqların başlaması tərəflərin gələcəyə hesablanmış planlar qurduğunu və enerji təhlükəsizliyini uzunmüddətli perspektivdə təmin etmək əzmində olduğunu göstərir. Türkiyənin sənaye potensialının artması və əhalisinin çoxalması təbii qaza olan tələbatı artırır və Azərbaycan bu tələbatın ödənilməsində ən etibarlı və təbii mənbə kimi çıxış edir. Lakin Abşeron yatağının tammiqyaslı işlənməsi ilə bağlı müəyyən çətinliklər və gecikmələr də mövcuddur ki, bu da prosesin mürəkkəb texniki və kommersiya nüanslarını ortaya qoyur. Bu vəziyyət danışıqların uzanmasına və ilk qazın bazara çıxarılması tarixinin 2030-cu ilə qədər təxirə salınmasına səbəb olub.

Burada diqqətçəkən məqam Qərb şirkətlərinin investisiya qərarlarında nümayiş etdirdiyi ehtiyatlılıq və bəzən də tərəddüddür. Lakin Azərbaycan dövləti üçün Abşeron yatağı strateji əhəmiyyət daşıyır və rəsmi Bakı bu layihənin hər hansı xarici şirkətin korporativ maraqlarına qurban verilməsinə imkan verməyəcək. 2026-cı ildə davam edəcək danışıqlar layihənin taleyini həll edəcək. Bu prosesdə Türkiyə faktorunun rolu az əhəmiyyət kəsb etmir. Türkiyənin bu qazın əsas alıcısı qismində çıxış etməsi və TPAO-nun gələcəkdə layihədə iştirak etmək ehtimalı danışıqlar masasında Azərbaycanın mövqeyini gücləndirən amillərdəndir.

Siyasi-analitik baxımdan Azərbaycan-Türkiyə münasibətlərinin hazırkı səviyyəsi regional inteqrasiyanın unikal modelini təqdim edir. Bu model suverenlik prinsiplərinə hörmət, qarşılıqlı fayda və ortaq təhlükəsizlik maraqlarına əsaslanır. Avropa İttifaqı daxilində müşahidə olunan fikir ayrılıqları və bürokratik ləngimələrin əksinə olaraq Azərbaycan–Türkiyə tandemi qərarların sürətli icrası və birgə fəaliyyətin effektivliyi ilə seçilir. Bu ittifaq həm də Türk dünyasının bütövləşməsi prosesinin lokomotivi rolunu oynayır. Mərkəzi Asiya ölkələrinin Azərbaycan və Türkiyə ilə əməkdaşlığa can atması, Orta Dəhliz layihəsinin aktuallaşması və Türk Dövlətləri Təşkilatının nüfuzunun artması məhz bu strateji oxun gücündən qaynaqlanır.

Türkiyə və Azərbaycan arasındakı inteqrasiya prosesi, sadəcə, iki dövlətin maraqları ilə məhdudlaşmır, eyni zamanda, bütün Avrasiya məkanında yeni geosiyasi konfiqurasiyanın yaranmasına səbəb olur. Orta Dəhlizin aktuallaşması fonunda Çindən Avropaya uzanan ticarət yollarının təhlükəsizliyi və səmərəliliyi məhz bu iki dövlətin əməkdaşlığından asılı vəziyyətə gəlmişdir. Rusiya–Ukrayna müharibəsi səbəbindən Şimal dəhlizinin, Yaxın Şərqdəki qeyri-sabitlik səbəbindən Cənub dəhlizinin riskli zonaya çevrilməsi Azərbaycan və Türkiyə tandeminin qlobal logistikadakı rolunu əvəzolunmaz edir. Bu reallıq həm Qərb, həm də Şərq dövlətlərini Bakı və Ankara ilə hesablaşmağa məcbur edir.

Azərbaycan–Türkiyə qardaşlığı XXI əsrin ən uğurlu siyasi layihələrindən biri kimi tarixə düşməkdədir və bu prosesin qarşısını almaq qeyri-mümkündür. Bu birlik region xalqları üçün rifah, dostlar üçün güvən, rəqiblər üçün isə ciddi mesaj mənasını daşıyır. Şuşa Bəyannaməsi ilə başlanan yol, Türk əsrinə açılan qapıdır və bu qapının açarı Bakı və Ankaradadır.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Azərbaycan diasporu xalqımızın dünyada yüksələn səsidir

**Uzun müddət diaspor anlayışı beynəlxalq münasibətlərdə əsasən mədəni təmsilçilik və identikliyin qorunması ilə məhdud çərçivədə dəyərləndirilirdi. Son illər, xüsusilə də postmünaqişə dövründə Azərbaycanın apardığı diaspor siyasəti bu ənənəvi yanaşmanı kökündən dəyişib. Artıq diaspor strateji aktora çevrilən siyasi resursdur. Transformasiyanın mərkəzində isə iki əsas xətt dayanır: Şuşa siyasi fəlsəfəsi və Türk Dövlətləri Təşkilatının institusional genişlənməsi.**

Şuşada imzalanmış bəyannamə postmünaqişə dövründə Azərbaycanın formalaşdırdığı yeni strateji düşüncə modelinin yazılı ifadəsidir. Modeldə təhlükəsizlik anlayışı identiklik, informasiya, ictimai rəy və diaspor fəallığı kimi qeyri-ənənəvi komponentləri də özündə birləşdirir. Məhz bu kontekstdə Şuşa Bəyannaməsi diasporu mədəni-sosial çərçivədən çıxararaq milli təhlükəsizlik arxitekturasının funksional elementinə çevirir. Diaspor artıq suverenlik diskursunun transsərhəd daşıyıcısıdır. Diaspor fəaliyyəti xüsusilə son illər beynəlxalq münasibətlərdə informasiya müharibələrinin, narrativ toqquşmaların



və ictimai rəy üzərindən təsirin artdığı bir mərhələdə strateji əhəmiyyət daşıyır. Şuşa konseptinin əsas yeniliyi ondan ibarətdir ki, diaspor fəaliyyəti ilk dəfə olaraq koordinasiya edilmiş təhlükəsizlik düşüncəsinə inteqrasiya olunur. Burada söhbət daha çox "yumşaq təhlükəsizlik" adlandırılan sahədən gedir: beynəlxalq media mühitində mövqe tutmaq, dezinformasiyaya qarşı kollektiv cavab vermək, milli narrativləri legitim platformalarda davamlı şəkildə səsləndirmək.

Coğrafi baxımdan Avropanın mərkəzində yerləşən Budapeşt daha çox strateji kəsişmə nöqtəsi funksiyasını yerinə yetirir. Burada formalaşan platforma göstərdi ki, Azərbaycan diaspor siyasəti şəbəkə diplomatiyasına əsaslanan çevik mexanizmə keçir. Ənənəvi diaspor siyasətində əsas diqqət icmaların formal qeydiyyatına, tədbirlərin sayına və mərkəzdən göndərilən gündəliyin icrasına yönəlirdi. Yeni mərhələdə isə prioritet ideya istehsalı, narrativ quruculuğu və qarşılıqlı əlaqələrin çoxistiqamətli inkişafıdır.

Şəbəkə diplomatiyasının əsas üstünlüyü onun adaptivliyindədir. Bu modeldə diaspor yerli konteksti nəzərə alan, situasiyaya uyğun mövqe formalaşdıran aktiv düyünlərdən ibarətdir. Azərbaycan diasporu da beynəlxalq mühitdə koordinasiyalı çoxsəsli təsir mexanizmi yaradır. İnformasiya müharibələrinin intensivləşdiyi, sosial şəbəkələrin klassik diplomatiyanı üstələdiyi bir dövrdə gənclər diaspor diplomatiyasının təbii daşıyıcılarına çevrilirlər. Onlar milli mövqeyi rəqəmsal platformalarda oxunaqlı, müasir və qəbul edilən formaya salırlar. Əgər lobbiçilik qısamüddətli siyasi qərarlara təsir göstərməyi hədəfləyirdisə, yeni diaspor diplomatiyası uzunmüddətli narrativ üstünlük yaratmağa fokuslanır. Burada isə səbir, davamlılıq və intellektual kapital tələb olunur.

Budapeşt platformasında müşahidə olunan digər vacib element diasporlararası qarşılıqlı əlaqənin güclənməsidir. Azərbaycan diasporu Türk Dövlətləri Təşkilatı çərçivəsində regional şəbəkələrin bir hissəsinə çevrilir. Deməli, Budapeştdə keçirilən görüşlər diaspor siyasətində mərhələ dəyişikliyini təsdiqlədi. Azərbaycan diasporu artıq mərkəzdən idarə olunan strukturdan çıxaraq öz-özünü tamamlayan, çevik və strateji şəbəkəyə çevrilir.

* * *

Türk Dövlətləri Təşkilatının (TDT) inkişafını isə üzvlük coğrafiyasının genişlənməsi ilə ölçmək analitik baxımdan natamam yanaşma olardı. Müasir beynəlxalq münasibətlərdə təşkilatların real təsir gücü onların imzaladıqları sənədləri daşıyan və legitimləşdirən ictimai dayaqların mövcudluğu ilə müəyyənləşir.

Azərbaycan diaspor modelinin Qazaxıstan və Özbəkistan tərəfindən maraqla qarşılanması təsadüfi deyil. Əsas məsələ diaspora verilən siyasi funksiyanın dəyişməsindədir. Macarıstan nümunəsi bu baxımdan xüsusi analitik diqqət tələb edir. Rəsmi olaraq TDT üzvü olmayan, lakin türk kimliyinə mədəni və tarixi yaxınlıq üzərindən bağlanan bu ölkə Avropa məkanında təşkilat üçün strateji keçid nöqtəsinə çevrilir. Burada diaspor diplomatiyası klassik dövlət diplomatiyasının imkanlarını tamamlayır və bəzi hallarda onu üstələyir. Rəsmi kanalların çata bilmədiyi sosial, akademik və mədəni mühitlərə diaspor vasitəsilə nüfuz etmək mümkün olur. Macarıstan kontekstində müşahidə edilən əsas məqam ondan ibarətdir ki, siyasi platforma emosional və mədəni yaxınlıq üzərində qurulur. Dövlətlər adətən maraqlar üzərindən



dialoq qurur, diaspor isə kimlik üzərindən etimad yaradır. Məhz bu etimad Avropa cəmiyyətlərində TDT-nin daha anlaşılan və qəbuledilən aktora çevrilməsinə şərait yaradır.

* * *

Müasir beynəlxalq münasibətlər sistemində ictimai təsir, narrativ üstünlük və şəbəkə əlaqələri də geosiyasi kapitalın əsas komponentlərinə çevrilib. Bu gün Azərbaycan diasporu təkcə milli maraqların müdafiəçisi kimi çıxış etmir. O, paralel şəkildə Türk dünyasının kollektiv təsir potensialını artıran çoxtərəfli platformaya çevrilir. Diasporlararası koordinasiya mexanizmləri, ortaq fəaliyyət planlarının hazırlanması və institusional görüşlərin intensivləşməsi Türk Dövlətləri Təşkilatını regional çərçivədən çıxararaq transregional aktor kimi formalaşdırmaq üçün real zəmin yaradır. Məhz bu məqam diasporun geosiyasi dəyərini kəskin şəkildə artırır və onu beynəlxalq güc balansında nəzərə alınmalı amilə çevirir.

Bu proses eyni zamanda Qərbin uzun illər tətbiq etdiyi ikili standartlar siyasətini daha görünən edir. Xüsusilə postsovet məkanında münaqişələrə yanaşmada selektiv hüquq tətbiqi, beynəlxalq hüququn kontekstə uyğun şərhi və siyasi simpatiyalara əsaslanan qərarlar diaspor faktorunun əhəmiyyətini daha da artırır. Azərbaycan təcrübəsi göstərdi ki, rəsmi diplomatiyanın təkbaşına bu baryerləri aşması kifayət etmir; burada ictimai diplomatiya və diaspor təsiri həlledici rol oynayır.

Erməni diasporunun Qərb ölkələrində onilliklər ərzində formalaşdırdığı təsir şəbəkəsi bu baxımdan klassik nümunə kimi təqdim olunur. Erməni diasporu yalnız mədəni və humanitar fəaliyyətlə kifayətlənməyib, qanunverici orqanlar, media strukturları və akademik çevrələr üzərində sistemli təsir mexanizmləri qurub. Nəticədə, bir sıra Qərb institutlarında Ermənistan–Azərbaycan münaqişəsi kontekstində balanssız, faktlara deyil, emosional və tarixi manipulyasiyalara əsaslanan yanaşmalar formalaşıb. Məhz bu fonda Azərbaycan diasporunun transformasiyası strateji məna kəsb edir. Yeni diaspor modeli Qərbin ikili standartlarını struktur səviyyəsində neytrallaşdırmağa yönəlir. Burada əsas fərq ondadır ki, Azərbaycan diasporu qarşı tərəfin narrativlərini mexaniki şəkildə təkzib etmir; o, alternativ və daha geniş siyasi çərçivə yaradır. Elə bu çərçivədə də Qarabağ məsələsi, beynəlxalq hüquq və postkolonial ədalət diskursu kontekstində təqdim olunur.

Türk Dövlətləri Təşkilatı ilə sinxronlaşan diaspor fəaliyyəti bu narrativə əlavə legitimlik qazandırır. Çünki məsələ artıq ortaq tarixi və siyasi təcrübəyə malik dövlətlər qrupunun baxışı kimi səsləndirilir. Təbii ki, bu amil Qərb ictimai rəyində "tərəfli mövqe" arqumentini zəiflədir və müzakirəni daha geniş geosiyasi müstəviyə çıxarır.

Digər mühüm məqam ondan ibarətdir ki, Azərbaycan və Türk diaspor modeli qapalı lobbiçilik strategiyasından fərqli yol seçir. Erməni diasporu əsasən dar siyasi dairələrdə təsir yaratmağa çalışdığı halda, Türk dünyası diasporları daha açıq, ictimai və mədəni kanallar üzərindən uzunmüddətli təsir mexanizmləri qurur. Bu model daha gec nəticə versə də, daha dayanıqlıdır. Çünki o, qərarverən elitanı deyil, ictimai düşüncə mühitini dəyişməyi hədəfləyir.

Bu yeni mərhələdə diaspor fəaliyyətinin əsas ölçü vahidi tədbirlərin sayı yox, təsirin davamlılığı və çoxşaxəliliyidir. İnformasiya məkanında mövqe tutmaq, akademik və ekspert dairələrinə nüfuz etmək, ictimai diplomatiya vasitəsilə alternativ baxışlar formalaşdırmaq diasporun geosiyasi kapital kimi dəyərini artırır. Burada diqqətçəkən digər məqam diasporun dövlət siyasətini əvəz etməməsi, onu tamamlaması və gücləndirməsidir. Dövlət rəsmi xətti müəyyən edir, diaspor isə bu xətti beynəlxalq mühitdə ictimai legitimliklə təmin edir. Nəticədə siyasi mövqe cəmiyyətlərin şüurunda da möhkəmlənir.

Əgər bu gün diaspor milli maraqların müdafiəçisi rolunu oynayırsa, sabah o, Türk dünyasının birgə siyasi iradəsinin daşıyıcısına çevrilə bilərmi? Mövcud dinamika göstərir ki, bu sual artıq nəzəri mülahizə deyil. Atılan addımlar, qurulan mexanizmlər və formalaşan şəbəkələr onu strateji gündəliyin real bəndinə çevirir. Başqa sözlə, diaspor gələcəyin diplomatik aktoru olmaq yolunda artıq ilkin mərhələni geridə qoyub.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# II Azərbaycan–Türkiyə İnvestisiya Forumu

## *Qardaşlığın iqtisadi təməlləri möhkəmlənir*

**Bakıda Azərbaycan İqtisadiyyat Nazirliyi və Türkiyənin Ticarət Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO), Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyinin (TÜİB) birgə təşkilatçılığı ilə II Azərbaycan–Türkiyə İnvestisiya Forumu keçirildi. Tədbirdə Azərbaycan və Türkiyədən dövlət rəsmiləri, sahibkarlar və bir sıra ictimaiyyət adamları iştirak edirdi.**




Qeyd edək ki, forum çərçivəsində Azərbaycan Dövlət Neft Şirkəti ilə Türkiyənin "GAMA Enerji" şirkəti arasında saziş imzalandı. Bununla yanaşı, "Büyükfırat MMC" ilə "Les Benjamins" Tekstil Ticarət Anonim şirkəti arasında da imzalama mərasimi keçirildi. Ümumilikdə isə forum çərçivəsində "Sənaye 4.0: gələcəyin texnologiyaları", "Aqrar tərəfdaşlıq: dayanıqlı inkişaf və qida təhlükəsizliyi", "Regionlararası ticarət və logistika dəhlizləri" kimi panel iclaslar da təşkil olundu.

Forum iştirakçılarının "Xalq" qəzetinə açıqlamalarını təqdim edirik:

**Ömər BOLAT,**
**Türkiyənin ticarət naziri:**



– Hazırda Türkiyə ilə Azərbaycan iqtisadi baxımdan da vahid mövqe nümayiş etdirir. Aramızda müttəfiqlik və strateji ittifaq münasibətləri mövcuddur. İqtisadi əlaqələrimizdə isə hər iki ölkənin dəyərli prezidentlərinin qarşıya qoyduğu 15 milyard dollarlıq ticarət dövriyyəsinə çatmaq məqsədi istiqamətində həm Türkiyə tərəfi olaraq biz, həm də Azərbaycandakı hörmətli həmkarlarımız böyük səylə çalışırlar. Bununla yanaşı, ticarətin real icraçıları olan tacirlər, sənayeçilər, idxalçılar və ixracatçılar üçün də istiqamətverici və dəstək xarakterli fəaliyyətlər həyata keçiririk.

Bununla yanaşı, Bakıda Azərbaycan və Türkiyə arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclası keçirildi. Əli Əsədov və Cevdet Yılmaz iclasın Protokolunu imzalayıblar və ikitərəfli əməkdaşlığın aktual sahələrini əhatə edən 110 bəndlik Fəaliyyət Planını təsdiqləyiblər. Həmin mərasimdə bütün aidiyyəti nazirlər iştirak edirdi.

Bizim öhdəmizə düşən tapşırıqları aldıq və bundan sonra da böyük əzmlə çalışacağıq. Həqiqətən də bütün sahələr üzrə münasibətlərimiz yüksək səviyyədədir. Qarşılıqlı investisiyaların həcmini daha da artırmaq niyyətindəyik.

Azərbaycanda 7 minə yaxın Türkiyə şirkəti fəaliyyət göstərir və onların ümumi investisiya həcmi 18 milyard dollar təşkil edir. Eyni zamanda, Türkiyədə 21 milyard dollar investisiyaya malik 3 minə yaxın Azərbaycan şirkəti mövcuddur. Bu şirkətlərin hamısı fəaliyyətlərindən məmnundur. Hər hansı çətinlik yarandıqda isə məsələlərin operativ şəkildə həllinə çalışırıq. Prosesdə həm nazirlər, həm prezidentlər, həm də özəl sektor qurumları sıx əməkdaşlıq edirlər.

Türkiyə ilə Azərbaycan arasında iqtisadiyyat və ticarət sahəsində daha yüksək hədəflər mövcuddur və biz bu məqsədlərə çatmaq üçün bütün gücümüzlə çalışırıq. Qeyd etmək istəyirəm ki, 2021-ci ildə qüvvəyə minmiş Preferensial Ticarət Sazişimiz mövcuddur. Bundan əlavə, qarşılıqlı şəkildə imzalanmış və 2024-cü ildə qüvvəyə minən bir protokol da var. Bu sənədlərin ticarət və iqtisadi münasibətlərimizə müsbət təsirlərini artıq açıq şəkildə görürük. Arzumuz Türkiyə ilə Azərbaycan arasında azad ticarət sazişinin imzalanmasıdır. Bu istiqamətdə hər iki hökumətin texniki qrupları hazırda müzakirələr aparır, təsir analizləri və qiymətləndirmə işləri həyata keçirir. İnanıram ki, bunu da reallaşdıracağıq.

**Hüseyn BÜYÜKFIRAT,**
**Türkiyə–Azərbaycan İş Adamları və Senayeçiləri İctimai Birliyinin (TÜİB) sədri:**



– Həm Türkiyədən, həm də Azərbaycandan iş dünyasının dəyərli nümayəndələrinin forumda iştirakı olduqca yüksək qiymətləndirilir. Türkiyədən nazir müavinlərinin mühüm panellərdə iştirak etməsi, panelistlərin yüksək səviyyədə təmsil olunması və Türkiyə mediasının geniş iştirakı bir daha göstərir ki, biz doğru yoldayıq və bu, üzərimizə düşən məsuliyyəti daha da artırır. Məhz bu səbəbdən Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qarşıya hədəflərə çatmaq üçün biz də iş dünyasının nümayəndələri olaraq üzərimizə düşən vəzifələri məsuliyyətlə yerinə yetiririk. Azərbaycanda topladığım 33 illik təcrübəni məhz bu istiqamətdə dəyərləndirir və bu məqsədlərə xidmət edəcək şəkildə istifadə edirəm. Sevindirici haldır ki, bunun artıq real nəticələrini görürük.

**Doğan TOMRİS,**
**"DK Agency" şirkətinin direktoru, ticarət idarəetmə və françayzinq üzrə mütəxəssis:**



– Azərbaycanda startap üçün uyğun profildə şəxslər olduqca çoxdur. Nəzərə alsaq ki, hazırda forumda təxminən 500 şirkət iştirak edir. Bu, olduqca böyük perspektiv vəd edir.

Dünən axşam Azərbaycanla bağlı Stanford Universiteti ilə çox önəmli bir görüş keçirdik. Onların bizdən əsas gözləntiləri startaplardır. Keçən ay təşkil etdiyimiz tədbirdə iştirak etdilər və çox məmnun qaldılar. Dünən isə bu əməkdaşlığı daha da möhkəmləndirdik.

Nüfuzlu Stanford Universiteti Azərbaycan gənclərinin startap təşəbbüslərini, onların ideyalarını və motivasiyasını çox yüksək qiymətləndirdi və bu gənclərin ABŞ-a gəlməsini istədi. Hətta iki layihə üzrə, 15–16 yaşlarında olan gənclərə 8 həftəlik onlayn təlimlər keçirildi. Yay aylarında isə onları düşərgələrə dəvət etdilər. Bu, bizim üçün çox böyük bir irəliləyişdir. Bir məqamı da qeyd edim ki, "Sənaye 4.0" artıq innovasiya və texnologiyanın inkişafı anlamına gəlir.

Azərbaycanın bu sahədə çox böyük imkanları var. Mən Türkiyə vətəndaşıyam, lakin Azərbaycanda yaşayan bir türk vətəndaşı olaraq bu imkanların fərqindəyəm. Özümüzü bu işə həsr etmişik. Sevindirici haldır ki, bunun qarşılığını artıq qitənin o tayından, okeanın o biri tərəfindən görürük. Bu gün də buraya yeni əlaqələr qurmaq üçün gəlmişik. Qarşıya qoyulan hədəflərə çatmaq üçün innovativ olmaq, təşəbbüskar olmaq lazımdır. Biz də məhz bunu dəstəkləyirik.

***Nurlan ABDALOV***
***XQ***

# Türkiyə ilə enerji əməkdaşlığında yeni mərhələ

**Türkiyədə yerləşən "Gama Enerji İç Anadolu" elektrik stansiyasının idarəçiliyi bundan sonra Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən həyata keçiriləcək. Bu barədə müqavilə dünən Bakıda keçirilən II Azərbaycan–Türkiyə İnvestisiya Forumu çərçivəsində imzalanıb. Sazişə SOCAR-ın prezidenti Rövşən Nəcəf və "Gama Enerji" şirkətinin rəhbəri Hakan Əhməd Özman imza atıblar.**



Sənədə əsasən, 870 meqavatlıq elektrik stansiyasının 100 faiz payı SOCAR-a məxsus olacaq. Sövdələşmənin dəyəri 225 milyon ABŞ dolları təşkil edir. Bu investisiya SOCAR-ın Türkiyədə enerji istehsalı sahəsində mövqelərini gücləndirməklə yanaşı, Azərbaycan və Türkiyə arasında strateji enerji əməkdaşlığının daha da dərinləşməsinə xidmət edir.

Xatırladaq ki, "Gama Enerji İç Anadolu" elektrik stansiyası 2002-ci ildə təsis edilmiş GAMA Holding tərəfindən inşa olunub. Türkiyənin köklü sənaye qrupu olan qurum ölkənin artan elektrik enerjisi tələbatını qarşılamaq, müasir və səmərəli enerji istehsalı texnologiyalarına yatırım etmək, eləcə də uzunmüddətli və dayanıqlı enerji layihələri həyata keçirmək məqsədilə yaradılıb. Şirkət qısa müddətdə təbii qaz, su elektrik stansiyaları və külək enerjisi sahələrində iri layihələrə imza atıb.

GAMA Holding 2013-cü ilin dekabrında İç Anadolu Doğalgaz Kombine Çevrim Elektrik Stansiyasının tikintisinə başlayıb. 2014-2015-ci illər ərzində həyata keçirilən layihə çərçivəsində mühüm infrastruktur işləri görülüb; qaz və buxar turbinlərinin quraşdırılması, eləcə də elektrik ötürmə xətlərinin çəkilişi başa çatdırılıb. Qardaş ölkənin Kırıkkale vilayətində yerləşən stansiyanın tikintisində minlərlə mühəndis və texnik çalışıb.

2016-cı ilin ortalarında burada ilk sınaq istehsalının həyata keçirilməsinə start verilib. İlin sonunda isə stansiya tam gücdə kommersiya istehsalına başlayıb. Burada 2 qaz və 1 buxar turbini, eləcə də istilik bərpa qazanları quraşdırılıb. 840 meqavatlıq güclə istismara verilmiş stansiyanın imkanları getdikcə artırılaraq 2023-cü ildə 870 meqavata çatdırılıb. Bu artıma isə texniki optimallaşdırma və avadanlıqların yenilənməsi hesabına nail olunub.

Stansiyada qaz turbinindən çıxan isti qazlar boşuna buraxılmır, həmin istiliklə buxar istehsal edilir və əlavə elektrik alınır. İstehsal prosesində ətrafa buraxılan karbon emissiyalarının miqdarı isə minimum səviyyədədir. Yeni və müasir texnologiyalar əsasında fəaliyyət göstərən stansiyada az qaz sərfi ilə daha çox elektrik enerjisi istehsal olunur. Burada Avropa standartlarına uyğun nəzarət sistemləri tətbiq edilir.

Ötən müddətdə Türkiyənin ən strateji qaz-elektrik stansiyalarından birinə çevrilmiş "Gama Enerji İç Anadolu"nun illik istehsal gücü 6000 – 6300 kilovat-saat təşkil edir. Stansiyanın qaz təchizatı Samsun–Ankara magistral kəməri vasitəsilə həyata keçirilir. Burada istehsal olunmuş elektrik enerjisi isə 380 kilovoltluq yüksək gərginlik xətlə sistemə ötürülür. Bütün bu işlər Türkiyənin məşhur şirkəti BOTAŞ tərəfindən həyata keçirilir.

Stansiya hazırda Ankara şəhərinin və Anadolunun sənaye zonalarının elektrik enerjisi ilə təminatında mühüm rol oynayır. Ümumilikdə isə, Türkiyənin enerji təhlükəsizliyində əsas rol oynayan "Gama Enerji İç Anadolu" müasir və strateji qaz elektrik stansiyasıdır. Obyektin iqtisadi əhəmiyyətinə gəldikdə isə, onun ərsəyə gətirilməsinə 900 milyon ABŞ dolları investisiya yönəldilib. Bunun da hesabına minlərlə iş yeri yaradılıb. Stansiyanın fəaliyyətə başlaması qardaş ölkədə sənayenin davamlı enerji təminatını gücləndirilib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

*2026-cı ilin ümummilli hədəfi*

**Hər il ölkəmizin ictimai-siyasi və mədəni həyatında mühüm əhəmiyyət daşıyan müəyyən bir mövzu ilə yadda qalır. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi hüquqi dövlət quruculuğu və müstəqilliyin möhkəmləndirilməsinə həsr olunmuşdu. Prezident İlham Əliyevin Sərəncamı ilə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi isə ölkəmizin davamlı inkişaf strategiyasında şəhərsalma siyasətinin, müasir memarlıq yanaşmalarının və tarixi-mədəni irsin qorunmasının xüsusi önəm daşıdığını göstərir.**

# "Şəhərsalma və Memarlıq İli" Azərbaycana yüksəliş və gözəllik gətirəcək



Həmçinin onu da vurğulamaq lazımdır ki, Sərəncamda bir çox mühüm məsələlərə diqqət yetirilib, milli memarlıq yoluna işıq salınıb. Bildirilib ki, bu gün ölkə ərazisində dövlət tərəfindən mühafizə olunan müdafiə qalaları, karvansaralar, məscid, məbəd və türbələr milli memarlığın parlaq ənənələrini əks etdirir. Bədii-memarlıq həllinin kamilliyi baxımından iftixar hissi doğuran dünya əhəmiyyətli tarix və mədəniyyət abidələrindən Möminə xatun türbəsi, Xudafərin körpüsü, "Atəşgah" kompleksi və digər bu kimi misilsiz nümunələr Azərbaycanın memarlığının rəmzlərinə çevrilmişdir.

Azərbaycanın şəhərsalma sahəsində əldə etdiyi nailiyyətlərdə ulu öndər Heydər Əliyevin xidmətləri müstəsna yer tutur. Onun irəli sürdüyü siyasət nəticəsində milli memarlıq dəyərləri mühafizə olunmuş, eyni zamanda, müasir memarlıq layihələrində yaradıcı şəkildə istifadə edilmişdir. Həmin illərdə şəhərlərin yenidən qurulması prosesi geniş vüsət almış, regionların planlı və sistemli inkişafı təmin olunmuşdur. Görkəmli memarların fəaliyyəti sayəsində milli ruhu əks etdirən, bununla yanaşı müasir dövrün tələblərinə cavab verən yeni memarlıq nümunələri meydana çıxmışdır. Nəticə etibarilə, bugünkü Azərbaycan şəhərlərinin özünəməxsus siması və funksional quruluşu məhz bu strateji yanaşmanın bəhrəsidir.

2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunmasını şərtləndirən başlıca amillər sırasında vaxtilə işğal altında olmuş ərazilərin düşmən tərəfindən məqsədli şəkildə viran qoyulması, eləcə də azad olunduqdan sonra həmin torpaqlarda yeni şəhər və qəsəbələrin inşa edilməsi, müasir memarlıq və şəhərsalma prinsiplərinin geniş tətbiq olmasıdır. Sərəncamda qeyd olunur ki, Böyük Qayıdışa dair I Dövlət Proqramına müvafiq qaydada "yaşıl enerji" zonası elan edilmiş bu ərazilərdə 2020–2025-ci illərdə – dünya memarlıq-inşaat təcrübəsində az rast gəlinən qısa bir müddətdə 100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanmış və quruculuq işlərinə başlanılmışdır. Azərbaycanın mədəniyyət paytaxtı, xalqımızın qürur mənbəyi Şuşa şəhərinin əvvəlki memarlıq mühiti və əsl tarixi siması bərpa edilməklə dirçəldilməsi isə milli iradənin təzahürüdür.

Ölkəmiz iqlim dəyişmələri və şəhərsalma ilə əlaqədar qlobal çağırışların həllində, innovativ yanaşmaların formalaşmasında etibarlı tərəfdaş kimi tanınır. BMT nin Məskunlaşma Proqramı ("UN-Habitat") ilə birgə təşəbbüslər və bu çərçivədə memarların bir araya gəldiyi milli şəhərsalma forumları Azərbaycanın beynəlxalq tərəfdaşlarla ortaq fəaliyyətinin uğurlu nümunəsidir.

Sonda bildirək ki, 2026-cı il mayın 17–22-də ölkəmiz yenidən dünyanın diqqət mərkəzinə düşəcək. Paytaxt Bakıda Birləşmiş Millətlər Təşkilatının (BMT) ən nüfuzlu tədbirlərindən biri – Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) keçiriləcək. Məzmununa və əhatə dairəsinə görə bu forum BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflər Konfransından (COP) sonra ikinci ən böyük və strateji əhəmiyyətli qlobal platforma qəbul edilir. Belə bir vacib tədbirin Bakıda təşkil olunması, beynəlxalq aləmdə şəhərsalma, dayanıqlılıq və ətraf mühit sahələrində Azərbaycanın yüksək nüfuza malik olduğunu göstərir.

***Musa BAĞIRLI***
***XQ***

### *Ekspert rəyi*

**Eldəniz ƏMİROV,**
**iqtisadçı**



2026-cı ilin "Şəhərsalma və Memarlıq ili" elan olunması şəhərlərə rasional və iqtisadi sistem kimi yanaşmaq üçün fürsət yaradır.

Şəhərsalmanın əsas xüsusiyyəti ondan ibarətdir ki, bu sahədə buraxılan səhvləri çox vaxt düzəltmək olmur. İnfrastruktur düzgün qurulmadıqda və məkan real ehtiyaclara uyğun planlanmadıqda sonradan bu boşluqları aradan qaldırmaq çətinləşir. Bu isə iqtisadi baxımdan məhsuldarlığın azalması, əlavə ictimai xərclərin artması və uzunmüddətli vaxt itkisi ilə nəticələnir. Zamanın qiyməti o həddə yüksəlib ki, vaxt itkisi artıq ömür itkisidir.

Azərbaycan son illərdə şəhərsalma və memarlıq sahəsində ciddi uğurlar əldə etmişdir. İşğaldan azad edilmiş ərazilərimizdə həm "ağıllı şəhər", həm də "ağıllı kənd" prinsiplərinə uyğun olaraq yaşayış məntəqələrinin bərpası və inkişafı həyata keçirilir. Praktik olaraq, Qarabağ və Şərqi Zəngəzurda salınan və inşa edilən şəhərlər həm müasir, həm də funksional mərkəzlərə çevrilmişdir. Bu, şəhərsalma sahəsində yeni yanaşma və yeni modeldir.

Azərbaycanın keçirdiyi beynəlxalq toplantılarda xarici ekspertlər xüsusilə işğaldan azad edilmiş ərazilərdə yeni texnologiya və yanaşmaların tətbiqi ilə şəhərsalmanın genişləndirilməsini yüksək qiymətləndirmişlər. Təbii ki, şəhərsalma sahəsində həyata keçirilən işlər yalnız işğaldan azad olunmuş ərazilərlə məhdudlaşmır. Digər bölgələrimizdə, o cümlədən paytaxt Bakı şəhərində də müasir şəhərsalma prinsipləri tətbiq olunur. Bu baxımdan, 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi həm ölkəmizin bu sahədə əldə etdiyi uğurların, həm də beynəlxalq təşkilatlar və ekspertlər tərəfindən yüksək qiymətləndirilməsinin nəticəsidir.

Digər tərəfdən, Azərbaycan 2026-cı ildə dünyanın ən böyük beynəlxalq toplantılarından birinə ev sahibliyi edəcək. May ayında keçiriləcək bu tədbir, COP29-dan sonra ölkəmizin ev sahibliyi etdiyi ən böyük ikinci beynəlxalq toplantı hesab olunur. Bu forumda Azərbaycan şəhərsalma sahəsində əldə etdiyi uğurları və tətbiq etdiyi metodları beynəlxalq ictimaiyyətə təqdim edəcək.

Beləliklə, 2026-cı il şəhərsalma və memarlıq baxımından Azərbaycan üçün əlamətdar və fərqli bir il olacaq. Ölkəmiz həm azad edilmiş ərazilərdə, həm də digər bölgələrdə yeni, müasir və ağıllı şəhərsalma ənənəsini daha da genişləndirəcək.

### *Ekspert rəyi*

**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**



Azərbaycan son illərdə şəhərsalma və memarlıq sahəsində ciddi uğurlar əldə etmişdir. İşğaldan azad edilmiş ərazilərimizdə həm "ağıllı şəhər", həm də "ağıllı kənd" prinsiplərinə uyğun olaraq yaşayış məntəqələrinin bərpası və inkişafı həyata keçirilir. Praktik olaraq, Qarabağ və Şərqi Zəngəzurda salınan və inşa edilən şəhərlər həm müasir, həm də funksional mərkəzlərə çevrilmişdir. Bu, şəhərsalma sahəsində yeni yanaşma və yeni modeldir.

Azərbaycanın keçirdiyi beynəlxalq toplantılarda xarici ekspertlər xüsusilə işğaldan azad edilmiş ərazilərdə yeni texnologiya və yanaşmaların tətbiqi ilə şəhərsalmanın genişləndirilməsini yüksək qiymətləndirmişlər. Təbii ki, şəhərsalma sahəsində həyata keçirilən işlər yalnız işğaldan azad olunmuş ərazilərlə məhdudlaşmır. Digər bölgələrimizdə, o cümlədən paytaxt Bakı şəhərində də müasir şəhərsalma prinsipləri tətbiq olunur. Bu baxımdan, 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi həm ölkəmizin bu sahədə əldə etdiyi uğurların, həm də beynəlxalq təşkilatlar və ekspertlər tərəfindən yüksək qiymətləndirilməsinin nəticəsidir.

Digər tərəfdən, Azərbaycan 2026-cı ildə dünyanın ən böyük beynəlxalq toplantılarından birinə ev sahibliyi edəcək. May ayında keçiriləcək bu tədbir COP29-dan sonra ölkəmizin ev sahibliyi etdiyi ən böyük ikinci beynəlxalq toplantı hesab olunur. Bu forumda Azərbaycan şəhərsalma sahəsində əldə etdiyi uğurları və tətbiq etdiyi metodları beynəlxalq ictimaiyyətə təqdim edəcək.

Beləliklə, 2026-cı il şəhərsalma və memarlıq baxımından Azərbaycan üçün əlamətdar və fərqli bir il olacaq. Ölkəmiz həm azad edilmiş ərazilərdə, həm də digər bölgələrdə yeni, müasir və "ağıllı" şəhərsalma ənənəsini daha da genişləndirəcək.

# Gənclər və İdman Nazirliyi ilin ən yaxşılarını mükafatlandırıb

**Gənclər və İdman Nazirliyi ilin idman yekunlarını ilə bağlı qala mərasimi keçirib.**

Tədbirə idman təşkilatlarının, federasiyaların, media qurumlarının rəhbərləri, idmançılar, məşqçilər və idman ictimaiyyətinin nümayəndələri qatılıblar.

Qala mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva da iştirak ediblər.

Gənclər və idman naziri Fərid Qayıbov 2025-ci ilin Azərbaycan idmanı üçün kifayət qədər uğurlu keçdiyini qeyd edib. Nazir il ərzində 2113 medalın qazanıldığını, bunun 30 faizinin qızıl əyarlı olduğunu bildirib. Bu isə Azərbaycan idmanı tarixində rekord göstəricidir. Nazir bu nailiyyətlərin Prezident İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğı nəticəsində əldə olunduğunu vurğulayıb.

Daha sonra 4 nominasiya üzrə xüsusi mükafatlar təqdim olunub. Deflimpiya Oyunlarının gümüş mükafatçısı Coşqun Əliyev (cüdo, 60 kiloqram), boks üzrə dünya çempionu Sübhan Mamedov (50 kiloqram), Azərbaycan Atçılıq Federasiyası və cüdo üzrə qarışıq komanda xüsusi mükafata layiq görülüb.




“Sabah” basketbol klubu
“Kür” həndbol klubu

**“İlin ən yaxşı idman dəstəkçiləri”**
“iTicket.az”
“Azercell”
“Azəryolservis”

**“Uğurlu beynəlxalq əməkdaşlıq”**
Azərbaycan Avtomobil Federasiyası
Azərbaycan Üzgüçülük Federasiyası
Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası

**“2025-ci ildə dövlət qurumları arasında idman yarışları”**
Fövqəladə Hallar Nazirliyi
SOCAR
Daxili İşlər Nazirliyi

**“İlin kişilərdən ibarət ən yaxşı milli komandaları”**
Minifutbol üzrə milli komanda
Boks üzrə milli komanda
Yunan-Roma güləşi üzrə milli komanda

**“İlin qadınlardan ibarət ən yaxşı milli komandaları”**
3×3 basketbol üzrə milli komanda




Səbuhi Musayev (“Prosport.Az”)
İlin ən yaxşı televiziya jurnalisti
Fəridə Abdullayeva (İctimai TV)
Arifə Lətifova (“CBC Sport”)
Vüqar Nəzərov (İdman TV)

**“İlin ən yaxşı idman klubları”**
“Ocaq Sport” İdman Klubu
“Neftçi” İdman Klubu
DİN-in İdman Cəmiyyəti

**“İlin ən yaxşı idman qurğusu”**
Milli Gimnastika Arenası
Gəncə İdman Sarayı
Tofiq Bəhramov adına Respublika Stadionu

**“İlin ən yaxşı Olimpiya-İdman Kompleksləri” (OİK)**
Quba OİK



2025-ci ilin idman yekunları barədə hesabat videoçarxı təqdim edildikdən sonra federasiyalar, idman jurnalistləri arasında və sosial mediada aparılmış sorğu əsasında müəyyənləşmiş müxtəlif nominasiyalar üzrə ilin qaliblərinin mükafatlandırılması mərasimi olub.

Mərasimdə ilin ən yaxşı idman fotoqrafları, media qurumları və idman jurnalistləri də açıqlanıb. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) hər üç nominasiyada qaliblər arasında olub. İlqar Cəfərov ilin ən yaxşı idman fotoqrafı seçilib. AZƏRTAC ilin ən yaxşı yazılı media qurumları arasında, Agentliyin İdman redaksiyasının redaktoru Elnur Salahov isə ilin ən yaxşı idman jurnalistləri arasında ikinci yerə layiq görülüb.

**“İlin ən yaxşı idman veteranı”**
Tərlan Həsənov (cüdo)
Tamilla Bünyatova (atletika)
Məhəmməd Müslümzadə (sambo)

**“İlin ədalətli oyun nominasiyası”**
Azərbaycan Badminton Federasiyası



Şahmat üzrə milli komanda
Futbol üzrə milli komanda

**“Qeyri-olimpiya idman növləri üzrə ilin ən yaxşı baş məşqçiləri”**
Elşad Quliyev (minifutbol)
Nicat Abbasov (şahmat)
Hikmət Hacıyev (kikboksinq)

**“İlin ən yaxşı qadın məşqçiləri”**
Amina Abdullatif (cüdo)
Fəridə Əzizova (taekvondo)
Samirə Hüseynova (qılıncoynatma)

**“İlin ən yaxşı kişi məşqçisi”**
Qurban Qurbanov (“Qarabağ” futbol klubu)
Riçard Trautman (cüdo)
Elbrus Rzayev (boks)

**“İlin ən yaxşı paralimpiyaçıları”**
İlham Zəkiyev (paracüdo)
Raman Saley (paraüzgüçülük)
Kamran Zeynalov (paragülləatıcılıq)





Azər İlyasov (Kanoe və avarçəkmə)
Rauf Məmmədov (şahmat)

**“İlin ən yaxşı uşaq-gənclər idman məktəbi”**
“Ulduz” futbol akademiyası
Respublika Kompleks idman məktəbi
Şuşa uşaq-gənclər idman məktəbi

**“İlin ən yaxşı idman filmi və videoçarxı”**
“Arzuların ardınca” filmi
“Baku Open” şahmat festivalı üçün videoçarx
“Uğur hekayəni yalnız öz gücünlə yaza bilərsən” (taekvondo)

**“İlin ən yaxşı idman fotoqrafı”**
İlqar Cəfərov (AZƏRTAC)

İslam Atakişiyev (idman.biz)
Samirə Həsənova ("Report")

**“İlin ən yaxşı idman media qurumları” (Yazılı media)**
“İdman.biz”
AZƏRTAC
“Report”

**“İlin ən yaxşı media qurumları” (Telekanallar)**
İctimai TV
“CBC Sport”
İdman TV

**“İlin ən yaxşı idman jurnalistləri” (Yazılı media)**
Elmir Əliyev (Haqqın.az)
Elnur Salahov (AZƏRTAC)

Şəki OİK
Şirvan OİK

**“İlin ən yaxşı idman həkimi”**
Zaur Abdullayev (Azərbaycan Boks Federasiyası)
Müşfiq İbrahimov (Azərbaycan Güləş Federasiyası)

**“İlin ən yaxşı hakimi”**
Nazim Umbayev (Azərbaycan Cüdo Federasiyası)
Eldar Zülfüqarov (Azərbaycan Voleybol Federasiyası)
Cahangir Babayev (Azərbaycan Karate Federasiyası)
Ramil Vəliyev (Azərbaycan Cüdo Federasiyası)

**“İlin ən yaxşı idman tədbirləri”**
MDB Oyunları
Minifutbol üzrə dünya çempionatı
UFC döyüş gecəsi

**“İlin ən yaxşı idman federasiyaları”**
Azərbaycan Cüdo Federasiyası
Azərbaycan Boks Federasiyası
Azərbaycan Gimnastika Federasiyası

**“İlin qadınlardan ibarət ən yaxşı klub komandaları”**
“Azərreyl” voleybol klubu
“Neftçi” futbol klubu
“Azəryol” həndbol klubu

**“İlin kişilərdən ibarət ən yaxşı klub komandaları”**
“Qarabağ” futbol klubu

**“Qeyri-olimpiya idman növləri üzrə ilin ən yaxşı idmançıları”**
İrina Zaretska (karate)
Ülviyyə Fətəliyeva (şahmat)
Elvin Məmmədov (kikboksinq)

**“İlin ən yaxşı qadın idmançıları”**
Jalə Əliyeva (güləş)
Südabə Ağayeva (cüdo)
Nigar Nəsirova (atıcılıq)

**“İlin ən yaxşı kişi idmançıları”**
Həsrət Cəfərov (yunan-Roma güləşi)
Zelim Kotsoyev (cüdo)
İsa Rüstəmov (ağırlıqqaldırma)

Mükafatçılar bəlli olduqdan sonra tədbir bədii hissə ilə davam edib.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 270 (30964) 24 dekabr 2025-ci il, çərşənbə

## İDMAN

### Misli Premyer Liqasının ən dəyərli futbolçuları

**“Transfermarkt” portalı Misli Premyer Liqasında çıxış edən futbolçuların yenilənmiş bazar dəyərlərini açıqlayıb.**




Siyahıda yer alan 10 futbolçudan 9-u “Qarabağ” klubunun üzvüdür.

Reytinqə kabo-verdeli yarımmüdafiəçi Leandro Andrade başçılıq edir. Onun bazar dəyəri 500 min avro artaraq 3 milyona çatıb.

İkinci pillədə yer alan Ağdam təmsilçisinin digər futbolçusu Nəriman Axundzadənin dəyəri yarım milyon avro artaraq 2,5 milyon olub. Braziliyalı Kadi Borges isə eyni göstərici ilə üçüncü sırada qərarlaşıb.

1. Leandro Andrade (“Qarabağ”) - 3 milyon avro
2. Nəriman Axundzadə (“Qarabağ”) - 2,5 milyon avro
3. Kadi Borges (“Qarabağ”) - 2,5 milyon avro
4. Mateuş Koxalski (“Qarabağ”) - 2 milyon avro
5. Toral Bayramov (“Qarabağ”) - 1,8 milyon avro
6. Aleksey Kaşuk (“Qarabağ”) - 1,8 milyon avro
7. Pedro Bikalyo (“Qarabağ”) - 1,5 milyon avro
8. Emmanuel Addai (“Qarabağ”) - 1,5 milyon avro
9. Elvin Cəfərquliyev (“Qarabağ”) - 1,5 milyon avro
10. Timoteuş Puxaç (“Sabah”) - 1,5 milyon avro.

### “Bakı–Xankəndi” veloyarışının loqosu

**“Bakı-Xankəndi” Azərbaycan Velosiped Yarışının loqosunun təqdimatı olub.**

BAKU-KHANKENDI AZERBAIJAN CYCLING RACE

Loqo yarışın Təşkilat Komitəsinin iclasında nümayiş etdirilib. Sonsuzluq işarəsi formasında olan loqo üç variantda təqdim olunub.

Qeyd edək ki, yarış 2026-cı il mayın 10-14-də keçiriləcək.

### “Napoli” İtaliya superkubokunu qazanıb

**Futbol üzrə İtaliya Superkubokunun qalibi bəlli olub.**

Finalda “Napoli” və “Bolonya” komandaları üz-üzə gəliblər.

Görüş Neapol təmsilçisinin 2:0 hesablı qələbəsi ilə yekunlaşıb. Qolları David Neres vurub.

*Qabil ƏLİYEV*
*XQ*



# “Qarabağ”ın yüksəliş yolu

## *O gecə isə Nərimanın qolu stadionu lərzəyə gətirmişdi*

**Ağdamın “Qarabağ” komandasının hücumçusu Nəriman Axundzadənin 2024-cü il fevralın 22-də Tofiq Bəhramov adına Respublika Stadionunda UEFA Avropa Liqasının pley-off mərhələsinin cavab görüşündə Portuqaliyanın “Braqa” klubunun qapısına vurduğu qolun Azərbaycanda necə böyük toy-bayrama çevrildiyi xatirələrdə hələ təzədir. Hamının ürəyindən olan və ölkəmizi səkkizdəbir finala yüksəldən qola Masallı şəhər 11 illik İncəsənət məktəbinin 2-ci sinif şagirdi Zəhra Əsgərli də biganə qalmamış və ona öz töhfəsini bacarıqla ərsəyə gətirdiyi nəcib bir əl işi ilə vermişdi.**



“Xalq qəzeti” də, öz növbəsində, hərdən stadionu xatırladıb, lap yarışlardakı kimi, yazılarımızın kəskin rəqabət meydanına çevrilən “Son səhifə”sində həmin füsunkar tabloya və onu müşayiət edən “Nərimanın tarixi qolu” və Zəhranın “Qarabağ” sevgisi” sərlövhəli qeydlərlə zirək Nərimana, gözəl Zəhraya minnətdarlıq ifadəsi kimi səxavətlə yer ayırmışdı.

Biz bu yaxınlarda, noyabrın 25-də elə həmin stadionda Avroliqadan da yüksək səviyyəli Çempionlar Liqası turnirinin əsas mərhələsinin 6-cı turu çərçivəsində keçirilmiş “Qarabağ”–“Ayaks” (Niderland) görüşünün də şahidləriyik. Olduqca vacib, hamımızın, ən azı, heç-heçə gözlədiyimiz qarşılaşmada Amsterdamdan şəhərimizə 5 məğlubiyyətlə, 36 komanda arasında 36-cı yerlə gələn rəqibə 2:1 hesabı ilə irəli çıxdığımız oyunun yekununda uduzub (2:4), son 11 dəqiqədə –79, 83 və 90-da qapımıza vurulan 3 qolun təsiri ilə soyuq və yağışlı havada ikiqat üşüdük.

Oyunun gedişində hesabda əldə edilən üstünlüyün itirilməsi, hətta 1 xal belə qazanılmaması, təbii ki, bütün azarkeşləri əməlli-başlı pərt etdi, komanda tənqidlərə məruz qaldı. Çox təəssüf ki, təhqirlər də söylənildi. Oyunun yalnız son yarım saatında meydanda olan Nərimana da çox irad tutuldu. Söz yox, tənqid də futbolun bir hissəsidir. Hər hansı komanda uduzanda, xüsusən də qələbəyə yaxın olduğu oyunda, tənqiddən qaça bilmir.

Amma burası da var ki, futbol aləminin min dəfələrlə şahidi olduğu kimi, hətta Dünya çempionatlarında belə, gözlənilməz qələbə və məğlubiyyətlər az olmur. Məşqçilərin matçın gedişində heyətdə etdikləri dəyişikliklər heç də həmişə özünü doğrultmur, əvəzedicilər qısa vaxt ərzində özlərini göstərə bilmirlər. Ancaq buna görə hirslə, qəzəblə ayrı-ayrı futbolçuları top-tüfəngə tutmaq nə dərəcədə düzgündür?!

Belə etməkdənsə, sağlam, xoşməramlı tənqidə üstünlük vermək, bu zaman Nərimanın “Braqa” ilə görüşdə aləmə səs salan 120+2 dəqiqə qolu ilə Azərbaycan futbolunu tarixdə ilk dəfə avrokuboklar meydanında səkkizdəbir finala çıxardığını xatırlamaq da yerinə düşməzmi?! Yoxsa bir uğursuz oyun onun “Qarabağ”ın buraya qədər gəlib çıxmasında bütün xidmətlərinin üstündən qalın xətt çəkib?

Azərbaycan futbolunda ən yaxşı məşqçi kimi komandası ilə birlikdə tarix yazan Qurban Qurbanov Avropanı heyrətə gətirən, hazırda qitənin ən güclü klublarının mübarizəsində finişə 2-cə tur qalmış pley-offun qapısını açmaq şansını özündə saxlayan, “Benfika” və “Kopenhagen”i udan, “Çelsi”ni heç-heçəyə razılaşmağa məcbur edən sayılıb-seçilən bir komanda yarada bilibsə, deməli, alqışa layiq yol keçilib.

Futbol bir də ona görə idmanın şahı, milyonların sevimli oyunu hesab edilir ki, təsəvvürolunmaz gözəlliyi və nüfuzu ilə yanaşı, ağlasığmaz qollar, penaltilər, qələbə və məğlubiyyətlər, hakim səhvləri ilə dolu mübarizə meydanıdır. İndi “Qarabağ” beynəlxalq yarışlarda oynayanda təkcə Azərbaycandakı azarkeşləri deyil, xarici ölkələrdə də futbol pərəstişkarları bilirlər ki, maraqlı, məzmunlu mübarizənin şahidi olacaqlar. Tribunalarda tamaşaçılar belə komandalara biganə qalmır, oyunu həyəcanla izləməkdən zövq alırlar.

“Ayaks”la görüşdən sonra rinqdə ağır zərbə alıb, nokauta düşən boksçular kimi, dərin sarsıntı keçirdiyimiz günlərdə 63 il əvvələ təsadüf etmiş bir oyun yadıma düşdü. 1962-ci ildə Çilidə 7-ci Dünya çempionatında SSRİ komandası qrup mərhələsində Kolumbiya millisinə qarşı görüşdə 4:1 hesabı ilə irəlidə olsa da, hakimin final işarəsinə az qalmış rəqib Lev Yaşinin qoruduğu qapıya 3 top vurmuş və tərəflər meydanı 4:4 hesablı heç-heçə ilə tərk etmişdilər. İndi yaddaşımı yoxlamaq üçün araşdırma apardım. Zənnim məni aldatmayıb. Hətta bir qədər əlavə məlumat da aldım.

Deməli, Arika şəhərində 1-ci qrup komandalarının yarışında Yuqoslaviya və Uruqvaya müvafiq surətdə 2:0 və 2:1 hesabı ilə qalib gələn sovet futbolçuları Kolumbiya ilə oyunda heç-heçə ilə kifayətlənmişlər. Hərçənd belə gurultulu başlanğıcdan sonra heç kimin ağlına gələ bilməzdi ki, 8-11-ci dəqiqələrdə, yəni 3-4 dəqiqə ərzində o uzaq illərdə Bakıda “Neftçi” ilə oyunlarda çox gördüyümüz Valentin İvanovun 2 dəqiq sərbəsindən, eləcə də, İqor Çislenkonun 1 qolundan sonra 3 dəfə məyus olan kolumbiyalılar 18 dəqiqə ərzində (68, 72 və 86) Lev Yaşini də 3 dəfə topu tordan çıxarmağa məcbur edəcəklər. Həmin oyunda daha iki qoldan birini 56-cı dəqiqədə Viktor Ponedelnik vurmuş, 21-ci dəqiqədə isə rəqib komanda fərqlənmişdir.

Beləliklə də Kolumbiya 1956-cı ilin olimpiya çempionu, 1960-cı ildə Avropa çempionatının qızıl medalçısı Yaşinə çətin anlar yaşatmışdır. Qrupda cəmi 1 xalla sonuncu pillədə qalan komanda liderlə (5 xal) mübarizədən heç-heçə ilə ayrılmışdır. Çili mundialından təxminən 40 il sonra isə Beynəlxalq Futbol Federasiyası (FİFA) Lev İvanoviç Yaşini XX əsrdə dünyanın ən yaxşı qapıçısı elan edəcəkdi.

Bu arada 2026-cı il yanvarın 21-nə, Almaniyanın Frankfurt şəhərinin “Ayntraxt” klubu ilə oyunumuza getdikcə yaxınlaşırıq. Vəziyyət ümidsiz deyil. Şansımız da var, qətiyyətli istəyimiz də. Bəlkə də son iki görüşdən birində öz stadionumuzda Almaniya təmsilçisi və ya 28 yanvarda futbolun vətəni İngiltərədə “Liverpul” üzərində qələbə pley-offa vəsiqəni Azərbaycan çempionuna təmin edər.

Çalışqan və əzmkar “Qarabağ” kollektivinə qarşıdan gələn Yeni il münasibətilə təbriklərimizi və ən xoş arzularımızı da elə bu istəklə çatdıraq.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

# “Şahmata həsr edilən ömür”

**Azərbaycan Şahmat Federasiyasının (AŞF) təşkilatçılığı ilə “Şahmata həsr edilən ömür” sənədli filminin təqdimatı keçirilib.**

Dövlət və hökumət qurumlarının rəsmilərinin, idman ictimaiyyətinin və media mənsublarının iştirakı ilə keçirilən mərasimi giriş sözü ilə açan AŞF-nin prezidenti Mahir Məmmədov filmin müəllifi Azad Abbasovun gözəl iş ərsəyə gətirdiyini bildirib. O, Faiq Həsənovun ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın çətin günlərində şahmat hərəkatının mövcud olması üçün mübarizə apardığını vurğulayıb. Federasiya rəhbəri 85 yaşlı hakimin ölkədə 59-dan çox şahmat məktəbinin indiyədək mövcud olmasında böyük səylərinin və misilsiz rolunun olduğunu deyib.

Sonra film nümayiş olunub. Filmdə Faiq Həsənovun uşaqlıq illəri, şahmatda atdığı ilk addımları, hakimlik fəaliyyətinə başlaması, beynəlxalq turnirlərdə iştirakı və Azərbaycan şahmatının inkişafındakı əvəzsiz rolu əks olunub.

Filmin nümayişindən sonra dünyanın ulduz şahmatçılarının Faiq Həsənovun 85 illik yubileyi münasibətilə ünvanladıqları təbrikləri əks etdirən videoçarx təqdim olunub.

Sonda çıxış edən “Şərəf” və “Şöhrət” ordenli, Beynəlxalq dərəcəli hakim Faiq Həsənov qeyd etdi ki, Azərbaycan şahmatı dünyada güclü məktəbə və zəngin ənənələrə malik ölkə kimi tanınır. O, cari ilin ölkə şahmatı üçün məhsuldar alındığını bildirib. F.Həsənov qadın və kişilərdən ibarət komandaların bu il böyük nailiyyətlərə imza atdıqlarını söyləyib. O, həm Avropa, həm Dünya çempionu olmuş qadın şahmatçı Ülviyyə Fətəliyevanın çıxışını yüksək qiymətləndirib və uğurların davamlı olmasını arzulayıb. Çıxışının sonunda yubilyar filmin ərsəyə gəlməsində əziyyəti olanlara, eləcə də təqdimatın təşkilatçılarına və qonaqlara təşəkkürünü bildirdi.

*Q.ƏLİYEV*
*XQ*

## HAVA

# Bəzi yerlərdə yağış yağacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə çiskinli yağış yağacağı ehtimalı var. Gecə və səhər duman olacaq. Cənub-şərq küləyi əsəcək, gündüz şimal-qərb küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturunun gecə 3-6, gündüz 8-12 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 766 millimetr civə sütunundan 763 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 80-85, gündüz 70-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi şərq rayonlarında yağış yağacağı proqnozlaşdırılır. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək.

Havanın temperaturunun gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 7-12 dərəcə isti, dağlarda gecə 3-8 dərəcə şaxta, gündüz 3-8 dərəcə isti olacağı bildirilir.

*XQ*

## BİLDİRİŞ

“ALE Caspian” MMC-nin (VÖEN: 2002637001) müflis elan olunması ilə əlaqədar Bakı Kommersiya Məhkəməsində e-2-2(113)-8252/2025 saylı iş üzrə məhkəmə baxışı 8 yanvar 2026-cı il saat 12.40-a təyin edilmişdir. Debitor və kreditorlar Bakı Kommersiya Məhkəməsinə müraciət edə bilərlər.

**Əlaqə telefonu**: (012) 525-20-74.

**Ünvan:** AZ1040, Bakı şəhəri, Bakıxanov qəsəbəsi, O.Əfəndiyev küçəsi 8.

## “Azərneftkimyaquraşdırma” QSC səhmdarlarının nəzərinə!

“Azərneftkimyaquraşdırma” QSC səhmdarlarının illik ümumi yığıncağı 10 fevral 2026-cı il saat 11.00-a təyin edilmişdir. Ümumi yığıncağın keçiriləcəyi

**Ünvan:** AZ1108, Bakı şəhəri, Dərnəgül qəsəbəsi, 2090-cı məhəllə, 560/510.

**Gündəlikdəki məsələ:** “Azərneftkimyaquraşdırma” QSC-nin 2025-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.

**Əlaqə telefonu:** (010) 228-28-74.

## “Camaşırxana Kombinatı” ASC səhmdarlarının nəzərinə!

30 yanvar 2026-cı il saat 15.00-da Bakı şəhəri, Nəsimi rayonu, Alı Mustafayev küçəsi 30/14, 26 nömrəli ünvanda keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

1. Cəmiyyətin illik hesabatının müzakirəsi və təsdiqi.
2. Cəmiyyətin direktorunun seçilməsi.
3. Cəmiyyətin müşahidə şurasının üzvlərinin və sədrinin seçilməsi.
4. Cəmiyyətin yeni nizamnaməsinin qəbul edilməsi və təsdiq olunması.
5. Cari məsələlər.

Səhmdarların ümumi yığıncaqda şəxsiyyət vəsiqələri ilə iştirakları vacibdir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Dillər Universitetinin professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin xarici dillərin tədrisi metodikası kafedrasının dosenti

**GÜLBƏNİZ CAMALOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3596
SİFARİŞ 2332
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00